**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Beynəlxalq istehsal və əmtəə bazarlarının qloballaşmasının səbəb və nəticələri" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Musayev Elşad Arzu**

**BAKI – 2021**

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
# BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**“____” _______________ 20__-ci il**

**“Beynəlxalq istehsal və əmtəə bazarlarının qloballaşmasının səbəb və nəticələri”**

**Mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060401 Dünya İqtisadiyyatı**
**İxtisaslaşma: Beynəlxalq Ticarət**
**Qrup: 834**

**Magistrant**
**Musayev Elşad_Arzu________**
**______________________ imza**

**Elmi rəhbər**
**i.e.n., dos. Məmmədov Müzəffər_Qulu________**
**____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif**
**_________________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2021**

**Elm andı**

Mən, Musayev Elşad Arzu oğlu and içirəm ki, “Beynəlxalq istehsal və əmtəə bazarlarının qloballaşmasının səbəb və nəticələri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**BEYNƏLXALQ İSTEHSAL VƏ ƏMTƏƏ BAZARLARININ QLOBALLAŞMASININ SƏBƏB VƏ NƏTİCƏLƏRİ**


**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Qlobal miqyasda mövcud olan maddi tələbatın ödənilməsi və qloballaşma ilə birlikdə mövcud bütün sərhədləri aşması beynəlxalq istehsal şəbəkəsi və əmtəə bazarları üzrə tədqiqatın aktuallığının əsas göstəriciləridir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədləri müvafiq sahələrin qloballaşmasına səbəbləri və bu zaman meydana gələn hadisələrin, müasir meyillərin öyrənilməsi, proqnozlar və problemlərin həll edilməsi istiqamətində təkliflərin verilməsidir.**

**İstifadə olunmuş metodlar: Tədqiqat zamanı analiz-sintez, ideallaşdırma, müqayisə, induksiya, deduksiya və s. metodlardan istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: İnformasiya bazasını Azərbaycan, İngilis və Türk dillərində olan və son 5-10 ili əhatə edən məqalə, kitab, monoqrafiya, o cümlədən DSK, UNCTAD, DB, BVF, UNİDO kimi regional və beynəlxalq təşkilatların, dövlət qurumlarının son 5 ili əhatə edən statistik hesabatları təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Məlumatların təhrif olunması, təşkilatların məlumatlarının gerçək rəqəmləri əks etdirməməsi, istifadə olunan mənbələrdə müəlliflərin problemə subyektiv yanaşması və s. tədqiqatın qarşısında duran əsas məhdudiyyətlərdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İstehsal və istehlakın mövcud şəraitə uyğunlaşdırılması, istehsal, ticarət əlaqələrinin qurulması və əmtəə bazarlarının genişləndirilməsi məsələləri üzrə təkliflərin edilməsidir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Mövcud tədqiqat zamanı əldə edilən nəticələr Beynəlxalq istehsal, ticarət, BXİ-lərin yönləndirilməsi, beynəlxalq əməkdaşlıqlar, gələcəyin planlaşdırılması və s. sahələr üzrə tətbiq edilə bilinər.**



***Açar sözlər: Beynəlxalq istehsal, əmtəə bazarları, Trans Milli Koporasiyalar, qloballaşma, birbaşa xarixi investisiya***

**CAUSES AND CONSEQUENCES OF GLOBALIZATION OF INTERNATIONAL MANUFACTURING AND COMMODITY MARKETS**

## SUMMARY

**The actuality of the subject: Meeting the existing material needs on a global scale and crossing all existing borders with globalization are the main indicators of the relevance of research on the international production network and commodity markets.**

**Purpose and tasks of the research: The purpose of the study is to study the causes of globalization of the relevant areas and the events that occur at this time, current trends, forecasts and make recommendations for solving problems.**

**Used research methods: During the research, analysis-synthesis, idealization, comparison, induction, deduction, etc. methods were used.**

**The information base of the research: The database includes articles, books, monographs in Azerbaijani, English and Turkish covering the last 5-10 years, as well as regional and international organizations, government agencies such as The SSC, UNCTAD, WB, IMF, UNIDO, and compiles statistical reports the last 5 years.**

**Restrictions of research: Distortion of data, failure of organizations 'data to reflect real figures, authors' subjective approach to the problem in the sources used, etc. are the main limitations of the study.**

**The novelty and practical results of investigation: It is the adaptation of production and consumption, the establishment of production and trade relations, and the making of proposals for the expansion of commodity markets.**

**Scientific-practical significance of results: The results of the current research include international production, trade, FDI guidance, international cooperation, future planning etc. areas can be applied.**

***Keywords: International production, commodity markets, Transnational Corporations, globalization, foregin direct investment***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AR** | Azərbaycan Respublikası |
| **ARDNŞ** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **ARDSK** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi |
| **AŞ** | Avropa Şurası |
| **BEA** | Beynəlxalq Enerji Agentliyi |
| **BƏB** | Beynəlxalq Əmək Bölgüsü |
| **BXİ** | Birbaşa Xarici İnvestisyalar |
| **BİT** | Beynəlxalq İqtisadi Təşkilat |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BTC** | Bakı-Tbilisi-Ceyhan |
| **BTƏ** | Bakı-Tbilisi-Ərzurum |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **CHAFTA** | Çin-Avstraliya Azad Ticarət Razılaşması |
| **DB** | Dünya Bankı |
| **ETİ** | Elmi Texniki İnqilab |
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **FAO** | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **GDO** | Geni Dəyişdirilmiş Orqanizm |
| **GUAM** | Gürcüstan, Ukraniya, Azərbaycan, Moldova |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **İƏT** | İslam Əməkdaşlıq Təşkilatı |
| **KİV** | Kütləvi İnformasiya Vasitələri |

| | |
|---|---|
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **NATO** | Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| **OPEC** | Neft İxrac Edən Ölkələr Birliyi |
| **RTR** | Regional Ticarət Razılaşmaları |
| **TANAP** | Trans-Anadolu Qaz Boru Kəməri |
| **TAP** | Trans-Adriatik Boru Xətti |
| **TMK** | Trans Milli Korporasiya |
| **UNCTAD** | BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı |
| **UNİDO** | BMT-nin Sənaye İnkişafı Təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |

# MÜNDƏRİCAT

**GİRİŞ............................................................................................................. 9**

**I FƏSİL . BEYNƏLXALQ İSTEHSALIN MÜASİR VƏZİYYƏTİ, FORMALARI VƏ QLOBALLAŞMASI SƏBƏBLƏRİ. ......................................................... 16**

1.1. Beynəlxalq istehsalın mahiyyəti, müasir vəziyyəti və inkişaf istiqamətləri........ 16

1.2. İstehsalın beynəlxalq kooperasiyası və ixtisaslaşması. ....................................... 22

1.3. Beynəlxalq istehsalın qloballaşmasının səbələri. **............................................. 31**

**II FƏSİL. BEYNƏLXALQ ƏMTƏƏ BAZARLARININ MÜASİR VƏZİYYƏTİ, STRUKTURU VƏ QLOBALLAŞMASININ SƏBƏBLƏRİ.................................44**

2.1. Beynəlxalq əmtəə bazarlarının mahiyyəti, müasir vəziyyəti və inkişaf istiqamətləri. ............................................................................................................................ 44

2.2. Beynəlxalq əmtəə bazarlarının strukturu. ........................................................... 53

2.3. Beynəlxalq əmtəə bazarlarının qloballaşmasının səbəbləri. ................................ 59

**III FƏSİL. BEYNƏLXALQ İSTEHSALIN VƏ ƏMTƏƏ BAZARLARININ QLOBALLAŞMASININ NƏTİCƏLƏRİ VƏ AZƏRBAYCANA TƏSİRİ......... 66**

3.1. Beynəlxalq istehsalın qloballaşmasının nəticələri. ............................................ 66

3.2. Beynəlxalq əmtəə bazarlarının qloballaşmasının nəticələri. .............................. 71

3.3. Beynəlxalq istehsalda və əmtəə bazarlarında Azərbaycanın mövqeyi. .............. 77

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ................................................................................ 86**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI................................................ 90**

CƏDVƏLLƏRİN SİYAHISI................................................................................... 97

QRAFİKLƏRİN SİYAHISI.................................................................................... 97

DİAQRAMLARIN SİYAHISI ................................................................................ 97

# GİRİŞ

**Mövzunun aktuallığı.** Beynəlxalq istehsal və beynəlxalq əmtəə bazarları dünya təsərrüfat münasibətlərinin özək sahələri olmaqla iqtisadi subyektlər arasında qurulan əlaqələrin əsasnı təşkil edir. Beynəlxalq istehsal və əmtəə bazarları arasında da ümumi bağlılıq vardır: Əmtəə bazarlarının əsas mübadilə obyektləri qlobal istehsal şəbəkəsinin son nəticələridir. Ölkələr və TMK-lar səviyyəsində əsas gəlir mənbəyi və iqtisadi əlaqələrin özəyi olduğu üçün həm beynəlxalq istehsal prosesi, həm də əmtəə bazarlarının öyrənilməsi, mövcud sahələrin qloballaşmasının səbəb və nəticələri, o cümlədən Azərbaycan Respublikasının müvafiq mənada rolu və mövqeyinin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyatın məhdud resurslar şəraitində mövcud olduğunu və heç bir ölkənin öz daxili tələbatını qapalı iqtisadiyyat prinsipinə əsaslanaraq ödəyə bilməməsini nəzərə alsaq, beynəlxalq istehsalın və bu mənada müşahidə edilən müasir tendensiyaların nə dərəcə aktual olduğunu anlaya bilərik.

Beynəlxalq istehsal və əmtəə bazarlarının qloballaşmasının aktuallığı həm də qloballaşma prosesinin xarakterilə də bağlıdır. Beləki, qloballaşma prosesi məhsuldar qüvvələrə xidmət etdiyi və bu məhsuldar qüvvələrin iqtisadi proseslərdə iştirak səviyyəsinin yüksək olması, qeyri-məhsuldar qüvvələrin təkrar istehsal prosesində sıxışdırılıb çıxarmasına və qeyri-məhsuldar qüvvələrə sahib üçüncü sinif ölkələrin iqtisadi arenadakı mövqeyinin daha da zəifləməsinə gətirib çıxarır.

Həm beynəlxalq istehsal şəbəkəsinin beynəlxalq təsərrüfat əlaqələrində əhəmiyyəti, həm beynəlxalq əmtəə bazarlarının qlobal əmtəə ticarətindəki rolu, eyni zamanda Azərbaycanın bu mənada mövqeyi və rolu müvafiq sahələrin araşdırılması, yeniliklərin öyrənilməsi və tətbiqini zəruri edir. Azərbaycan Respublikasının iqtisadi arenadakı prioritet məqsədləri beynəlxalq istehsal şəbəkəsinə qoşulmaq, istehsal prosesində yeni və müasir texnika və texnologiyanı tətbiq etmək, istehsal şəbəkəsində intensiv inkişafa nail olmaq, o cümlədən ixrac strukturunda emal sənayesi məhsullarını artırmaq, neft və neft məhsullarının ixrac strukturundakı payını azaldaraq qeyri-neft

sektorunun payını artırmaq və s.-dir. Ölkənin iqtisadi arenadakı prioritet məqsədləri də məhz bu mövzunun nə qədər aktual olduğunu göstərir. Bu istiqamətdə inkişafın bütün dünya dövlətləri qarşısında duran əsas məqsəd olması mövzunun qlobal miqyasda aktuallığını artırmaqdadır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Beynəlxalq istehsal və əmtəə bazarları beynəlxalq təsərrüfat münasibətlərinin əsas hissələrini təşkil etdiyi üçün müvafiq sahələrin öyrənilməsi səviyyəsi yüksəkdir. Lakin XX əsrin sonu və XXI əsrin başlanğıcı ilə birlikdə müvafiq sahələrdə qloballaşma səviyyəsinin artması, rəqabət arenasına yeni iştirakçıların qoşulması problemin öyrənilməsinin yeni və daha aktual formalarının yaradılmasını tələb edir. Məsələn istehsal prosesinin ekstensiv xarakterdən intensiv xarakterə keçməsi, istehsal prosesinin idarə edilməsi formaları olan taylorizm və fordizm sistemlərinin yavaş-yavaş əhəmiyyət itirməsi müvafiq sahələrdə yeni araşdırmaların edilməsini tələb edir. Bununla yanaşı beynəlxalq ticarət münasibətləri sistemində ölkələrin məhdud resurslar şəraitində iştiraklarını təmin edə bilmə arzuları yeni ticarət nəzəriyyələrini yaratma və onu tətbiq etmə zərurətini ortaya çıxarmışdır. Həmçinin qloballaşma tendensiyasının həm beynəlxalq istehsalda, həm də əmtəə bazarlarında yeni meyilləri ortaya çıxardığı üçün müvafiq sahələrdə yeni araşdırmaların edilməsini tələb olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** İstənilən tədqiqat işində əsas məqsəd praktiki və nəzəri baxımından faydalı olmaq və iqtisadiyyatın müvafiq sahələrinə çevik tətbiq olunmaq özəlliyi daşımaqdır.

Müvafiq tədqiqat işində əsas məqsəd beynəlxalq istehsal və əmtəə bazarlarınnın qloballaşması səbəb və nəticələrini öyrənmək, o cümlədən bu sahələrdə baş verən müasir meyilləri təhlil etmək və qiymətləndirmək, əldə edilən informasiya hesabına gələcəyə yönəlik proqnozlar verməkdir. Həmçinin Azərbaycan Respublikasının beynəlxalq istehsal və əmtəə bazarlarındakı iştirakını və rolunu müəyyən etmək, ölkənin gələcək inkişafı barədə proqnozlar vermək və təkliflər sistemi müəyyən etmək tədqiqat işinin əsas məqsədlərindəndir.

Nəzərdə tutulan məqsədlər çərçivəsində tədqiqatın qarşısında durən vəzifələr aşağdakılardır:

- ✓ Beynəlxalq istehsalın ölkə və qlobal miqyasda əhəmiyyətini araşdırmaq;
- ✓ Qlobal istehsal posesinin mərhələlərini və inkişaf istiqamətlərini öyrənmək və bu istiqamətdə inkişafı təmin etmək üçün təkliflər vermək;
- ✓ Dövlətlərin, regionlar və beynəlxalq iqtisadi təşkilatların, o cümlədən TMK-ların beynəlxalq istehsal şəbəkəsində fəaliiyətini qiymətləndirmək;
- ✓ Qloballaşma prosesinin beynəlxalq istehsala təsirini və mümkün nəticələri analiz etmək, istehsalın ixtisaslaşması və kooperativləşmə istiqamətində inkişafı dəyərləndirmək;
- ✓ Beynəlxalq investisyaların istehsalın qloballaşmasına təsiri, həmçinin TMK-ların qeyri-rezident kimi fəaliyyət istiqamətlərini və mərhələlərini analiz etmək
- ✓ Beynəlxalq istehsalın qloballaşması səbəblərini və müvafiq prosesin mümkün nəticələrini analiz etmək;
- ✓ Beynəlxalq əmtəə bazarlarının ölkə və qlobal miqyasda mahiyyətini araşdırmaq və beynəlxalq təsərrüfat münasibətlərindəki yerini müəyyənləşdirmək;
- ✓ Beynəlxalq ticarət, ixrac və idxal tərəflərin fəaliyyətini analiz etmək;
- ✓ Beynəlxalq əmtəə bazarlarında mübadilə edilən əsas əmtəə qruplarını müəyyən etmək, onların tarixi inkişaf xəttini analiz etmək və gələcəyə dair proqnozlar vermək;
- ✓ Beynəlxalq əmtəə bazarlarının qloballaşması səbəb və nəticələrini müəyyən etmək;
- ✓ TMK-ların, beynəlxalq marketinq siyasətlərinin, informasiya inqilabının, regional və beynəlxalq təşkilatların beynəlxalq əmtəə bazarlarımna təsirini analiz etmək;
- ✓ Azərbaycan Respublikasının beynəlxalq istehsal və əmtəə bazarlarındakı mövqeyini araşdırmaq və gələcəyə yönəlik proqnozlar vermək;

- ✓ Eyni zamanda yuxarıda sadalanan bəndlər üzrə nəzəri və praktiki baxımdan faydalı təkliflər kodeksi hazırlamaq və s.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti beynəlxalq istehsal, əmtəə bazarları, müvafiq sahələrdə ölkələrin, TMK-ların və regional və beynəlxalq xarakterli təşkilatların fəaliyyəti, Azərbaycan Respublikasının beynəlxalq istehsal və əmtəə bazarlarındakı mövqeyidir.

Tədqiqatın predmeti isə yuxarıda qeyd edilən tədqiqat obyektlərinə əsaslanmaqla qloballaşmanın müvafiq istiqamətdə səbəb və nəticələrini analiz etmək, qlobal və milli əhəmiyyətli təklif və tövsiyyələr təqdim etməkdir.

**Tədqiqat metodları.** Tədqiqat problemini araşdırarkən müvafiq araşdırma sahələri ilə bağlı tarixi araşdırma nəticələri və nəzəriyyələri öyrənmə məqsədi qarşıya qoyulmuşdur. Bu zaman mövzunun daha vacib nöqtələrinə toxuna bilmək üçün abstraklaşdırma, bütün istiqamətlər üzrə problemin öyrənilməsi üçün analiz, analiz mərhələsində əldə edilən bilikləri ümumi problemə tətbiq edə bilmək üçün sintez – nəzəri tədqiqat metodlarından istifadə edilmişdir. Bununla belə idellaşdırma metodu tətbiq etməklə mövcud vəiyyətlə mümkün ən yaxşı vəziyyət müqayisə edilməyə çalışılmışdır. Sahələrarası məsələlərlə bağlı induksiya və deduksiya metodları tətbiq edilməklə tədqiqatın nəzəri və praktiki əhəmiyyətliliyinə töhfə verilməyə çalışılmışdır.

Bu metdolarla yanaşı beynəlxalq və regional təşkilatların mütəmadi təqdim etdikləri statistik göstəricilər analiz edilmiş və tarixi qanunauyğunluq müəyyən edilməyə çalışılmışdır. Bu mənada DB, BVF, UNİDO, UNCTAD, Azərbaycan Respublikası Statistika Komitəsi və s. qurum və inistutların statistik hesabtalarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasının nəzəri baxımdan son 10 ilin nəzəri məlumat mənbələri – kitab, monoqrafiya, məqalə, həmçinin son 5 ilin statistik göstəriciləri təşkil edir.

Bu zaman Azərbaycan, Türk və İngilis dilində olan kitab, məqalə və digər oxşar mənbələrdən istifadə edilmişdir. Həmçinin nəzəri baxımdan tədqiqat probleminə aid

olan keçmiş istehsal-ticarət nəzəriyyələrinə istinad edilmişdir. Nəzəri mənbələrə daha çox yüksək reytinqli bazalarda yayımlanan məqalələr aiddir. Müxtəlif dillərdə olan məqalə və kitablara istinad etməklə problemlə bağlı müxtəlif ideya və fikirləri öyrənib, onlara uyğun yeni fikir formalaşdırmağa çalışılmışdır. Statistik göstəricilər baxımından isə əsasən regional və beynəlxalq iqtisadi təşkilatların, müstəqil qurumların və Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatlarından istifadə edilmişdir.

Kitab, məqalə, internet resursları və s. formasında informasiya mənbəyindən asılı olmayaq bütün istinad edilən mənbələr tədqiqat işinin sonunda tam formada ədəbiyyat siyahısında göstərilmişdir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqatın məhdudiyyətləri əsasən birincil və ikincil məlumat mənbələrinin yaranma tarixi, əldə edilmiş informasiyaların akttuallığı və obyektiv gerçəkliyi hansı şəkildə təmin etməsi, problemin aid olduğu sahələrdə baş verən dəyişikliklərin sürətli olması, müvafiq sahələrdə fors-major halların aktual informasiyaları belə etibarsızlaşdırması və s-dir.

Çox hallarda ölkə və təşkilatlar,o cümlədən TMK-lar öz mənafelərini nəzərə alaraq yanlış məlumatlar dərc edirlər ki, bu məlumatlar bir çox hallarda problemin həllinə aparan yolda ciddi əngəl yaradır. Digər tərəfən birincil və ikincil informasiyalarda olan təhriflər, fikir və ideologiyaların subyektiv xarakter daşıması və müəyyən hallarda obyektiv gerçəkliyi təmin edə bilməməsi tədqiqat zamanı problem yaradan əsas məsələlər olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində əldə olunan elmi yeniliklər aşağdakılardır:

- Beynəlxalq istehsal şəbəkəsinin müasir dövrün tələblərini və məhdud resurslar şəraitini nəzərə alan yeni forma və sistemlərinin qurulmasının vacibliyi vurğulanmış;
- Ənənəvi xarakterli istehsal sahələrini, ənənvi istehlak məhsullarını dövriyyədən çıxartmaq və insanların tələbatını bu istiqamətdə formalaşdırmağın əhəmiyyəti göstərilmiş;

- Beynəlxalq investisiya qoyuluşlarında beynəlxalq marketinq və reklam işinin önəmi əks etdirilmiş;
- İstehsal prosesində qloballaşmaya səbəb olan hadisələrin texnoloji inkişaf və informasiya inqilabı ilə ümumi bağlılığı müəyyən edilmiş;
- Müvafiq saəhə başverən qloballaşmanın nəticələrinin əsasən iki qrup üzrə təsnifatlaşdırılığı (pozitiv və neqativ)təsbit olunmuş;
- Beynəlxalq əmtəə bazarlarında ümumi dövriyyədə kənd təsərrüfatı məhsullarının azalması, texnika və texnoloji vadanlıqların, nanotexnologiya, biotexnologiya və suni intelektə əsasəlan məhsulların ticarət dövriyyəsində payının artması, enerji daşıyıcılarında ənənvi enerji növləri(neft,qaz, kömür) hələlik öz gücünü saxlasa da, növbəti 50 il ərzində kəskin azalması, alternativ mənbələrin istifadəsinin artması, kənd təsərrüfatı məhsullarına olan tələbatı ödəmək üçün "nəhəng" ölkələrin digər regionların torpaq icarəyə götürməsi və s. tendensiyalar müəyyən edilmiş;
- Əmtəə bazarlarının qloballaşma səbəb və nəticələri ilə beynəlxalq istehsalda müvafiq problemlərin ortaq cəhətlərinin say çoxluğu və oxşar xarakterliliyi müəyyən edilmiş;
- Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılğı azalmadığı təqdirdə yaxın 50 ildə ciddi proqblemlə qarşılacağı, ölkəyə yatırılan BXİ-lərin qeyri-neft sektoru və dövrün aktual tələbatlarını ödəməyə yönəlik istehsal sahələrinə istiqamətlənməsinin vacibliyi, idxal və ixrac strukturumuzda kəmiyyət çeşidliliyin olmasına baxmayaraq keyfiyyət baxımdan geri qalındığı və s. müəyyən edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Tədqiqat işinin sonunda əldə edilən nəticələrin praktiki əhəmiyyətliliyi, problemin araşdırılması istiqamətində qarşıya qoyulan əsas məqsədlərdən biridir.

Müvafiq tədqiqat nəticəsində əldə edilən nəticələrin yeni istehsal metodlarının müəyyən edilməsi, ənəvi metodların tətbiqinin dayandırılması, üzünmüddətli məqsədləri nəzərə alaraq insanların sosial-psixoloji və maddi tələbatlarını idarə edilməsi istiqamətində, qloballaşmanın istehsal və ticarət sahəsində faydalı

ünsürlərindən istifadə etmək və neqativ nəticələrdən qorunmaq üçün proteksionist tədbirləri hər zaman aktiv saxlamağın vacibliyi, texnologiyanın bütün sahələrdə inkişafı, ağıllı şəhərlərin və süni intelektin həyatımızın bir parçasına çevrilməsinin əhəmiyyətinin göstərilməsi, Azərbaycan Respublikasında qeyri-neft sektorunun həcminin artırılması, intensiv, dayanıqlı və davamlı inkişafa nail olmaq üçün xarici təcrübənin öyrənilməsinin vacibliyi və s. istiqamətlərində praktiki əhəmiyyəti mövcuddur.

Mövcud tədqiqat işi beynəlxalq istehsal, beynəlxalq əməkdaşlıq, reklam və marketinq (xüsusən rəqəmsal marketinq), ticarət və əmtəə bazarları, beynəlxalq investisiya, kosmos sənayesinin və oxşar sahələrin inkişafına həvəsləndirmə və s. sahələrdə tətbiq edilə bilinər.

# I FƏSİL . BEYNƏLXALQ İSTEHSALIN MÜASİR VƏZİYYƏTİ, FORMALARI VƏ QLOBALLAŞMASI SƏBƏBLƏRİ

## 1.1. Beynəlxalq istehsalın mahiyyəti, müasir vəziyyəti və inkişaf istiqamətləri

Beynəlxalq istehsal bir ölkənin müəyyən məhsulun istehsalını həyata keçirmək məqsədi ilə ikinci bir ölkənin istehsal imkanlarından-istehsal resurslarından, ucuz işci qüvvəsindən, maliyyə vasitələrindən və s. amillərdən istifadə etməklə öz istehsalını xaricə köçürmək və ya daxildə bu imkanlardan istifadə etməklə həyata keçirdikləri istehsal prosesidir. Başqa sözlə beynəlxalq istehsal daxili istehsalın beynəlxalq mahiyyət daşıması ilə yaranır. Beynəlxalq istehsal termini başqa ölkələrdə yerləşən şirkətlər (TMK) tərəfindən buraxılan və nəzarət olunan mallara və xidmətlərə aiddir(Xasbulatov R.İ. 2015: s.361). Tarixən istehsal dövlət ərazisi çərçivəsində inkişaf etmişdir.Dünya miqyasında isə proses istehsalın beynəlmiləşməsi, istehsal gücləri, istehsal amillərinin dünyəviləşməsi fonunda irəliləyiş tapmışdır(Elşən H. 2018: s.29). Onun mahiyyətini anlamaq üçün ilk növbədə istehsal prosesinin mahiyyətini və təşkilini anlamaq lazımdır. İstehsal hər bir iqtisadiyyat üçün ən vacib prosesdir. Bu prosesin nəticəsi insanların gündəlik ehtiyaclarının təmin edilməsində əsas rol oynayır. İstehsal əmək cisimlərinin müxtəlif maşın və avadanlıqlar vasitəsilə hazır məhsula çevrilmə prosesidir.

İstehsal müəssisənin əsas gəlir qaynağı hesab olunmaqla yanaşı ölkənin regional və beynalxalq arenadakı gücünü təcəssüm etdirən ən əsas amildir. Heç bir ölkənin məhsul istehsalı həyata keçirmədən iqtisadi güc qazanması və davamlı-dayanıqlı iqtisadi sistem qurması mümkün deyil. Məhsuldar istehsal şəbəkəsinin qurulması ölkənin iqtisadi gücünü təyin etməklə yanaşı onun beynəlxalq arenadakı siyasi gücünün də müəyyənləşdirilməsinə xidmət edir. İstehsalın texniki vasitələrlə silahlanması səviyyəsi ölkə üçün əsas məhsuldarlıq göstəricisi sayılır. Yəni məhsul istehsalının vacibliyi ilə yanaşı texniki təchizatla silahlanma ölkə üçün əhəmiyyət daşıyan mühüm

faktor hesab olunur. Elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsi ölkə iqtisadiyyatlarının texniki cəhətdən yenidən qurulmasına, istehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin yüksəlməsinə, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur(Telman H.2009: s.521). Artıq istehsalın mahiyyətini açmaq üçün onun məhsuldarlğından və ölkənin beynəlxalq arenadakı nüfuzuna təsirindən söz açdıq. Lakin istehsalın rolu cəmiyyətin həyatında yalnız "güc əldə etmə vasitəsi" olmaqla məhdudlaşmır. İstehsal, fərd, toplum,dövlət və iqtisadiyyat arasında daha dərin və mürəkkkəb sistem mövcuddur. Beləki, istehsal müəyyən məna da fərd və toplum arasındakı bağlılığı ortaya çıxarır. Fərd ancaq müəyyən birlik daxilində daha çox önəm daşıyır, bir bir-biriləri ilə öz ehtiyaclarını qarşılamaq üçün əlaqə quran fərdlər, ehtiyacları olan məhsulları istehsal və növbəti mərhələdə mübadilə edirlər. Bütün bu qarşılıqlı əlaqələr nəticədə vahid bir iqtisadi və siyasi sistemin formalaşmasına gətirib çıxarır. Bu qanuna uyğunluq insanların mədəni həyatına da təsirsiz ötüşmür. Əsasını ehtiyaclarını ödəmək üçün həyata keçirdikləri istehsal və mübadilə təşkil edən topluluqların yaranması ilə insanlar daha da böyük topluluqlar və birliklər təşkil etməyə başlamışdır. Bu da zamanla müxtəlif kiçik topluluqların bir-birinə mədəni inteqrasiyasına səbəb olur. İlk baxışda bu mədəni inteqrasiyaya əsas səbəb kimi ticarət əlaqələrinin təsir etdiyi görünür, lakin daha dərinə endikdə ticarətin istehsal olmadan mövcud olmadığını və bütün mədəni, siyasi və iqtisadi bağlılıqların məhz istehsalın reallaşdırılması ilə birlikdə yaranmağa başladığını görə bilərik. Fərdlərin birləşərək topluluqlar yaratması və ayrı-ayrılıqda öz ehtiyaclarını tamamilə qarşılaya bilməmələri istehsal prosesinin cəmiyyətin tarixi inkişafı üçün nə qədər vacib rol oynadığını göstərir. İlk topluluqların formalaşdığı dövrə qədər istehsalın ya olmaması, ya da çox primitiv xarakter daşıması cəmiyyətin həm mədəni, həmdə digər sahələrdəki inkişaflarının ləng getməsini şərtləndirmişdir. Avropa və qərb ölkələrinin şərqə nisbətən mədəni inkişafını da istehsalda baş verən artım və məhsuldarlıqla əlaqələndirmək məqsədə uyğundur. Hər bir milli iqtisadiyyatın əsasını istehsal, bölgü, mübadilə və istehlak prosesi təşkil edir. Bu prosesin hər bir fazası bir-birilə sıx bağlıdır

və asılıdır. Lakin istehsal mərhələsi bu prosesin mərkəzində dayanır.Nəsnəsiz istehlak istehlak deyil.Bu mənada istehsal istehlakı yaradır(İrfan E. 2007: s.6) İstehlak edilən məhsulun, dəyəri istehsal mərhələsində formalaşır, ardıcıl reallaşdırılan proseslərin səbəbi kimi istehsal həyata keçirilir. Məhsul istehsal edildikdən və dəyər formalaşdıqdan sonra fərdlər arasında bölgü həyata keçirilir. Növbəti mərhələ isə mübadilədir. Xüsusi istehsal dəyərinə malik məhsul növbəti mərhələdə üzərinə əlavə olunmuş dəyərlə birlikdə qarşılıqlı mübadilə edilir. Bu zaman tarixi inkişafa xas olaraq mübadilənin tərəfləri kimi müxtəlif dəyərlərə malik məhsullar və ya əmtəə formasında pul çıxış edir. Son mərhələ isə istehlakdır. Lakin bu prosesdə istehlak sonuncu mərhələ kimi görünsə də, əslində istehsalla vəhdət təşkil edir. Karl Marksa görə istehsalla istehlak eyni zamanda baş verir. Biz hər hansı məhsulu istehsal edərkən onun istehsalında sərf etdiyimiz bütün istehsal faktorlarını istehlak etmiş hesab olunuruq. Yəni istehsal etdiyimiz anda istehlak etmiş oluruq. Bu prosesə digər tərəfdən də yanaşsaq eyni nəticəyə gələrik. İstehlakla istehsal arasındakı başqa bir qanuna uyğunluq isə səbəb-nəticə əlaqəsidir. İstehlakın olması üçün istehsal lazımdır, lakin istehlak tələbi olmasa, istehsalın bir əhəmiyyəti qalmır. Bütün bunları nəzərə alsaq, istehlak ilə istehsalı bir-birindən ayrı proses kimi nəzərdə tuta bilmərik. Ən primitiv iqtisadiyyatlarda belə bu qanunauyğunluq qorunur, bölgü və mübadilə proseslərinə ehtiyac duymayan primitiv iqtisadiyyatlarda da istehsalın səbəbi istehlakdır və istehsal edərəkən hər hansı digər məhsulu istehlak edirik. Beynəlxalq istehsalın müasir vəziyyəti son dövrlərdə dünyanı öz təsiri altına alan Covid 19 pandemiyası ilə birlikdə zəifləməyə başlamışdır. 2019-cu ilin ikinci yarısından başlayan geriləmə 2020-ci ilin mart ayından etibarən daha da zəifləmişdir. Xüsusilə Çin istehsalının azalması öz əksini beynəlxalq istehsalın ümumi səviyyəsində də müvafiq şəkildə göstərmişdir. Pandemiyadan öncəki dövrə nəzər salsaq beynəlxalq istehsalda Çinin yenə də liderlik etdiyini müşahidə etmiş olarıq.

Birləşmiş Millətlər Təşkilatının Sitatistika Bölməsinin( UN Statisics Division) məlumatına əsasən 2018-ci ildə Çinin ÜDM-sinin 30%-ni istehsal sektoru təşkil

etmişdir. Eyni ildə dünyanın ən böyük iqtisadiyyatı olan ABŞ-da bu göstərici 11% təşkil etmişdir. Yenə BMT-nin Statistika Bölməsinin 2018-ci il üzrə statistikasına əsasən Çinin beynəlxalq istehsaldakı payına baxsaq ölkənin istehsal sahəsində süpergüc olduğunu rahatlıqla deyə bilərik.

**Qrafik 1: 2018-ci il üzrə beynəlxalq istehsalda 5 aparıcı ölkənin payı**




**Mənbə:**Qrafik UNİDO-nun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, https://www.unido-.org/sites/default/files/files/202009/World_manufacturing_production _2018_q2.pdf ,Report on world manufacturing production.

2020-ci ilin I rübündə sənayecə inkişaf etmiş ölkələrin istehsal həcmində təxminən 16.4%-lik bir geriləmə müşahidə edilidi (UNIDO-World manufacturing growth in Quarter II 2020, s.2). Bu geriləmənin səbəbi kimi pandemiya ilə birlikdə ölkələrin məhdudlaşdırma tədbirlərinin həyata keçirilməsi göstərilir. Xüsusi ilə Çin, Avropa Birliyi və ABŞ-ın istehsal həcmlərinin azalması 2020-ci ilin ilk rübü üçün beynəlxalq istehsalın öncəki illərin müvafiq dövrünə görə daha aşağı olmasına gətirib çıxardı. Azalma yalnız bu bölgələrlə məhdudlaşmadı. Çərqi Asiyanın nəhəng istehsalçılarından olan Yaponiyada da müvafiq dövrdə istehsal 20%-dən çox azaldı. Bu göstərici ümumilikdə Şərqi Asiyada 12.9%-lik bir azalma ilə müşahidə olunurdu. Lakin bu bölgədə yalnızca Çinin Tayvan əyalətində istehsalda artım müşahidə edildi. Ümumi artım 5.3% təşkil etməklə birlikdə artıma səbəb olan "komputer və elektronika" sektoru

da öncəki dövrə nisbətdə 21.7%-lik bir artımla bu mənada xüsusi rol oynadı. Orta texnologiyalara sahib sektorlarda isə istehsal həcmi 2019-cu ilin əvvəlindən azalmağa başlamışdı. Bu mənada 2020-ci ildə də istehsalda mənfi artımın böyüməsi müşahidə edildi. 2019-cu ildən başlayan azalmaya səbəb kimi qeyri-metal tutumlu sahələrdə (8.2%) və rezin məlumatlarında olan azalmanı göstərirlər. Uyğun olaraq rezin məlumatlarında 14.6%-lik azalma qeydə alınıb. 2020-ci ilin II rübündə orta və yüksək texnologiyalı sektorlatrda isə 10.4%-lik azalma müşahidə edildi. İstehsalın müxtəlif sahələrində və iri sənaye ölkələrində olan azalmanın əsas səbəbi 2019-cu ilin sonuncu rübü etibarilə dünyanı cənginə alan COVİD 19 pandemiyasıdır. Lakin beynəlxalq istehsalın gələcəyinə baxdıqda bu azalmanın pandemiyanın öz təsirini itirməsi ilə birlikdə artma ilə əvəz olunacağını deyə bilərik. Ancaq mümkün artımın səviyyəsi öncəki illərə nisbətdə daha yavaş ola bilər. Səbəb isə ölkələrin istehsal sektoru başda olmaqla iqtisadiyyatın bütün istiqamətlərinə ehtiyyatla yanaşmaları olacaq. Eyni zamanda qısa müddətli dövrdə hiss etməsək də uzun müddətli dövrdə istehsalın xarakteri kəskin dəyişəcək. Bu dəyişiklik özünü xüsusi olaraq enerji istehsalında göstərəcək. Hazırkı min illiyin başlanğıcından etibarən enerji istehsalında alternativ enerji meyili sezilsə də, bu qlobal enerji istehsalında lazımı səviyyədə yer almamışdır. Lakin növbəti on illiklərlə birlikdə alternativ enerji istehsalının daha da artacağı və ənənəvi enerji istehsalının azalacağı qaçınılmazdır. Buna müvaffiq olaraq iqtisadiyyatları ənənəvi enerji hasilatı ilə məhdudlaşan ölkələrin istehsalı və paralelində milli iqtisadiyyatları kəskin düşüşə məruz qalacaq.

İstehsalın inkişaf tarixi eyni zamanda onun çeşidliliyini formalaşdırmışdır. Müasir dövrdə istehsalın müxtəlif inkişaf istiqamətləri diqqət cəlb edir. İstehsalda əl əməyinin xüsusən inkişaf etmiş ölkələrdə çox böyük miqyasda “yoxa çıxması” son məhsulun çeşidliliyinə və məhsuldarlığına səbəb olur. İstehsaldakı dəyişikliyin əsas səbəblərindən biri zəruriyyətdir. Yuxarıda ənənəvi enerji istehsalının və paralelində bu sahəyə əsaslanan milli iqtisadiyyatların zəifləməsinin səbəbi də məhz, zəruruiyyətdir. Alternativ enerji istehsalının artması ilə birlikdə qlobal miqyasda enerji tələbatı bu

sektorun hesabına ödəniləcək və nəticədə ənənəvi enerji istehsal edən ölkələr istehsallarını ya azaltmağa, ya da yeni növ istehsal sektorlarını inkişaf etdirməyə məcbur olacaqlar. Planetin ənənəvi istehsal üsul və metodlarına tab gətirməməsi insanları yeni istehsal metod və vasitələrinin inkişafına sövq etmişdir. Eyni zamanda rahatlığa və təhlükəsizliyə meyl edən insan düşüncəsi təhlükəli istehsal mərhələlərini xələfləri olan robot və bənzəri vasitələrə vermişdir. İstehsaldakı bu inkişaf qanuna uyğunluğunun digər bir səbəbi isə artan istehsal tələbi- yəni, istehlakdır. İnsanların ehtiyacları artıqca istehsalda paralel artmalı olduğundan insanoğlunu istehsal prosesinin əksər fazalarında avtomatlaşdırılmış istehsal metod və vasitələri əvəz etməli olmuşdur. Bu zaman istehsalın inkişaf istiqaməti kimi daha mükəmməl texnikaların istehsalı, davamında isə süni intelektin inkişafı izləmişdir. İstehsalın bu sürətdə inkişafının istehsal faktorlarının çatışmazlığına səbəb olması və planetin bu sürətə tab gətirməməsi, insanları təkrar istehsal, süni maddələrin yaradılması və daha çox bərpa edilə bilinən istehsal vasitələrinin olduğu sahələrə meyl etməsinə gətirib çıxarmışdır.

İstehsalın həm ölkələrin iqtisadi rifahı, təhsil səviyyəsi, infrastruktu, həm də dünya miqyasında müvafiq göstəricilərin inkişafı üçün vacibdir. Buna görədə dünya miqyasında ölkələr arasında istehsalın gücü ilə əlaqədar bir rəqabət mühiti formalaşmışdır. Bu rəqabət mühiti dünya miqyasında həm sosial, həm də iqtisadi rifahın yüksəlməsinə imkan yaradır. Bu rəqabətdə ölkələrin mövqeyini araşdırmaq məqsədi ilə "**Qlobal İstehsal Rəqabətliliyi İndeksi**" hazırlanmışdır. Bu indeksə əsasən XXI əsrin 2-ci onilliyi ilə birlikdə Çin ilk sıraları ələ keçirmişdir. Müvafiq mənada ABŞ, Almaniya, Yaponiya və s. kimi ölkələr ən yüksək rəqabətə sahib ölkələr hesab edilir(Global Manufacturing Competitiveness Index, 2016: s.5). Müvafiq indeks üzrə 2016-cı ilin göstəricilərinə aşağda verilmiş cədvəl ilə nəzər salaq. Qeyd edək ki, 2016-cı ildə təqdim edilmiş göstəricilər daha öncə 2010 və 2013-cü illərdə Deloitte Qlobal və Rəqabət Qabiliyyəti Şurası tərəfindən nəşr edilmiş məlumatlara əsaslanmışdır.

**Cədvəl 1: 2016-cı il ölkələr üzrə Qlobal İstehsal Rəqabətqabiliyyətlilik İndeksi**

| Sıra | Ölkələr | Dərəcə: 100(yüksək),10(aşağı) |
|---|---|---|
| 1 | Çin | 100.0 |
| 2 | Amerika Birləşmiş Ştatları | 99.5 |
| 3 | Almaniya | 99.3 |
| 4 | Yaponiya | 80.4 |
| 5 | Cənubi Koreya | 76.7 |
| 6 | Birləşmiş Krallıq | 75.8 |
| 7 | Tayvan | 72.9 |
| 8 | Meksika | 69.5 |
| 9 | Kanada | 68.7 |
| 10 | Meksika | 68.4 |

**Mənbə:** Cədvəl Deloitte-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www2.deloitte.com/global/en/pages/manufacturing/articles/global-manufacturing-competitiveness-index.html , 2016 Global Manufacturing Competitiveness Index

## 1.2. İstehsalın beynəlxalq kooperasiyası və ixtisaslaşması

Beynəlxalq kooperasiya və ixtisaslaşma beynəlxalq əmək bölgüsünün dərinləşməsilə birlikdə ölkələrin dünya iqtisadiyyatındakı mövqeylərini şərtləndirən başlıca məhfumlardan olmuşdur. Beynəlxalq kooperativləşmə və beynəlxalq ixtisaslaşma Beynəlxalq Əmək Bölgüsünün (BƏB) əsasını təşkil edir. Ölkələr istehsalın təşkili, məhsulun daşınması, satışı, turizm, bank sektoru və s. sahələrdə əməkdaşlıq etmək və ya ayrılıqda ixtisaslaşmaqla dünya iqtisadiyyatının aparıcı halqalarına çevrilməyə çalışırlar. Bu mənada istehsalın kooperativləşməsi ölkələr üçün əhəmiyyət daşıyır. Beynəlxalq kooperasiya milli iqtisadiyyatların və ya onların şirkətlərinin müəyyən məhsul istehsalı üzrə əməkdaşlığıdır. Adətən əməkdaşlıqlar müştərək müəssisələrin yaradılması və ya bir neçə ölkənin müəssisələri tərəfindən ortaq lahiyələrin həyata keçirilməsi ilə şərtlənir. Bu müəssisələr eyni məhsulun istehsalını və sonrakı mərhələləri müştərək şəkildə həyata keçirilmələrinə baxmayaraq ayrılıqda müstəqlliklərini qoruyurlar. Bu əməkdaşlığı həyata keçirmək üçün müəssisələr işlərin təşkili və pay bölgüsü ilə bağlı müqavilə bağlayırlar. Bəzən isə ölkələr məhsulun istehsalını həyata keçirmək üçün birlikdə vahid müəssisə də təşkil edə bilirlər. XIX əsr

etibarilə müasir mənasına qovuşan kooperativ anlayışı bu dövrlərdə Fransada istehsal kooperativi, Almaniyada bank kooperativi kimi formaları ilə məhşurlaşmışdır (G-20 Ülkelerinde Kooperatifçilik,2015: s.7). Kooperativləşmə həmin dövrdə daha çox Avropa ölkələrinə xas olmuşdur. Əksər Avropa ölkələri cəmiyyətin ehtiyac və istəklərinə əsaslanan kooperativlər quraraq fəaliyyət göstərmişdir. Standart tanımlandırmaya əsasən kooperativçilik içtirakçıların davranışlarının başqalarının mövcud və proqnozlaşdırılan seçimlərinə görə tənzimlənməsidir (Sebastian P. 2014: s.10). Beynəlxalq istehsal üzrə kooperasiyanın təşkilinin əsas məqsədi istehsalın səmərliliyini yüksəltməkdir. Beynəlxalq istehsal kooperasiyası dünya ölkələrinə istehsalın səmərəliyini artırmaqla yanaşı müəyyən üstünlüklər də verir. Bu üstünlüklərə istehsal gücünün artırılması, istehsalın təşkilinin daha aşağı maddi xərcə səbəb olması, istehsal edilən məhsulun həcminin artması, vaxta qənaət, istehsal prosesinin müxtəlif mərhələlərində istifadə edilən resursların daha səmərəli istifadə edilməsi və s. aiddir. Ölkələrin beynəlxalq istehsal üzrə kooperativlərin yaradılmasına sövq edən başlıca səbəb müəyyən məhsulların istehsalının reallaşdırılmasının çətin olması və baha başa gəlməsidir. Ölkələr bü kimi çətinliklərin aradan qaldırılması məqsədilə həmin sahədə istehsal imkanlarını birləşdirərək həm maddi, həm də təchizat baxımından yaranan çətinlikdən rahatlıqla qurtula bilirlər. İstehsal kooperativləməsinin bu şəkildə əlverişli şərait yartamasını daha dərindən anlamaq üçün ölkələrin ayrılıqda ixtisaslaşmasına da nəzər salmalıyıq. İxtisaslaşma və kooperativləşmə nə qədər bir-birindən ayrı proseslər kimi səciyələnsə də vəhdət xarakter daşıyırlar və bir-birilə sıx bağlıdırlar. Beynəlxalq istehsalın ixtisaslaşmasına keçmədən öncə qısa şəkildə istehsalın kooperativləşməsilə arasında olan əlaqəyə nəzər sala bilərik. Beləki ölkələr adətən daha aşağı maddi xərcə səbəb olan və daha çox istehsal resursu ilə təmin olunduqları sahələrdə istehsalın həyata keçirilməsinə çalışırlar və zamanla bu sahədə ixtisaslaşırlar. Bu ixtisaslaşma beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsi ilə birlikdə xüusi hal almağa başlayır. Bu zaman ölkələr məhsul istehsalı ilə ixtisaslaşmaqdan çox bir məhsulun hansısa hissəsinin istehsalı üzrə ixtisaslaşırlar. Daha sonra ölkələr ixtisaslaşdıqları hissələri kooperativlər

təşkil edərək son məhsulun ərsəyə gəlməsi üçün istifadə edirlər. Bu hal istehsalın beynəlxalq kooperasiyasının inkişaf etməsinə şərait yaradan əsas səbəblərdən birirdir. Beynəlxalq kooperasiyanın inkişafı ilə birlikdə istehsal sektorundakı mülkiyyət münasibətlərinin də çeşidlənməsi qaçınılmaz oldu. Keçən əsrdən etibarən dövlət mülkiyyətinin istehsaldan çıxması, istehsal prosesinin özəl şirkətlərin idarəsinə keçməsi XXI əsr etibarilə daha da yeni xarakter aldı. Hal-hazırda nəyinki dövlət mülkiyyəti istehsal sektorundan çıxır, hətta ayrı-ayrı şirkətlər öz imkanlarını birləşdirərək müştərək mülkiyyətə əsaslanan müsəssisələr yaradırlar. Ölkələri və şirkətləri öz imkanlarını birləşdirərək müştərək mülkiyyətə əsaslanan müəssisələr yaratmağa sövq edən bir səbəb də risklərin sığortalanmasıdır. Beynəlxalq istehsaldakı kooperativləşmə TMK-ların və dövlətlərin kooperativ mənfəət əldə etməsinə səbəb olur. Kooperativ mənfəətin artması və risklərin sığortalanması istehsalın kooperativləşməsini daha da sürətləndirir. Beynəlxalq istehsalın kooperativləşməsinin digər bir ciddi təsiri də qlobal siyasətə qarşı olmuşdur. Həm kooperativ kapitalın daha aşağı riskliliyi, həm də kooperativ mənfəətin artması bu koperativlərin əsasını təşkil edən ölkələr arasındakı siyasi bağlılıqları da artırmışdır. Eyni zamanda ölkələr arası ticarət də yüksəlməyə başlayıb. Bəzi hallarda kooperativ müəssisələr tərəfindən istehsal edilən məhsulların ticarəti tamamilə müstəqil subyektlər tərəfindən reallaşdırılsa da, çox zaman istehsalı təşkil edən kooperativlər həm də istehsal edilən məhsulun ticarəti üzrə də razılığa gəlirlər. Bu da kənar xərclərin aşağı düşməsinə, nəticədə məhsulun maya dəyərinin azalmasına səbəb olur. Ticarət xərclərinin azlığı və aşağı maya dəyəri isə daha böyük ticarət həddini əldə etməyə imkan verir. Kooperativləşmənin beynəlxalq istehsalı artırması ilə birlikdə ölkə iqtisadiyyatının da gəlişməsinə köməyi xüsusi ilə qeyd edilməlidir. Adətən ölkələr iqtisadi cəhətdən zəif inkişaf etmiş bölgələrində iqtisadi və sosial tərəqqiyə nail olmaq üçün gömrük rüsumlarını və digər əlaqədar vergiləri azaldaraq kooperativ kapitalı bu bölgələrə gətirirlər. Müxtəlif ölkələrin iri TMK-ları da yaranmış bu müsbət şəraitdən istifadə etmək üçün öz imkanlarını birləşdirirlər. Bu isə bölgədə istehsalın artmasına və nəticədə iqtisadi və sosial inkişafa

gətirib çıxarır. Nəticədə həm kooperativ müəssisə, həm də kooperativ kapitala ehtiyac duyan ölkə qazanmış olur. Bu tip bölgələrə kooperativ kapitalın gəlməsi mövcud siyasi vəziyyətin sabitləşməsinə də kömək edir. Beynəlxalq istehsalın kooperativləşməsinin bir çöx üstün cəhətləri olsa da, mənfi tərəfləri də mövcuddur. Xüsusi ilə kapitalın təmərküzləşməsi və inhisarlaşma qlobal istehsal üçün mənfi şəarit yaradır. İnhisarlaşmış müəssisələr bazardakı mənfəəti maksimum mənimsəmək üçün öz istehsallarını kəskin azalda bilirlər. Bu zaman tələb təklifi üstələdiyi üçün qiymət qalxır və inhisarlaşmış müəssisə daha çox mənfəət əldə edir, əvəzində istehsalın azalması isə dünya bazarının digər iştirakçılarının daha da itirməsinə gətirib çıxarır. Beynəlxalq istehsalı bu kimi təhlükələrdən qorumaq üçün kooperativ müəssiələrin fəaliyyəti BİT-lər tərəfindən nəzarət altında saxlanılır. Lakin yenə də inhisarlaşmaya olan meyil beynəlxalq istehsala öz mənfi təsirini göstərməkdə davam edir.

Beynəlxalq istehsalın kooperativləşməsinin təsiri insanlarının mədəni həyatından da təsirsiz ötüşməmişdir. Ayrı-ayrı ölkələrin yaratdıqları istehsal kooperativləri istehsalın müxtəlif mərhələlərində və kooperativ əməkdaşlığın digər proseslərində sahə üzrə peşəkar işçilərin əməyindən istifadə etməyə çalışırlar. Bu zaman müxtəlif milli mənsubiyyəti olan işçilərin istehsal kooperativində birgə işləməsinə şərait yaranır. Həm müxtəlif milli mənsubiyyətə sahib işçilərin, həm də kooperativ kapitalın fəaliyyət göstərdiyi ölkənin insanlarının qaynayıb qarışması mədəni vəhdətləşməyə səbəb olur. Kooperativlərin ölkəyə gəlməsi bu mədəni əlaqənin qurulmasından əlavə işsizliyin azalmasına da səbəb olur. Şirkətlər daha çox kooperativ mənfəət əldə etmək istədikləri üçün işçi qüvvəsinin bol və uzuc olduğu bölgələrə axın edirlər. Bu da bölgədə işsizliyin azalmasına səbəb olur. Hal-hazırda bir çox ABŞ və AB şirkətlərinin Çində istehsal müəssisələri qurmasının əsas səbəblərindən birir də ucuz işçi qüvvəsidir. Beynəlxalq istehsalın kooperativləşməsində transmilləşmə faktoru xüsusi mahiyyət daşıyır. Transmilliləşmə ölkələrarası inteqrasiyanın müəssisələr səviyyəsində formalaşmasıdır. Özəl müəssisələrdə yaranan kapital profisiti mövcud kapitalın daha çöx gəlirliklik gətirəcəyi regiona hərəkət edir. Bu zaman həmin şirkət

Trans Milli şirkətə çevrilir. Ana şirkət öz istehsalını mextəlif regiondakı törəmə şirkətlərinə köçürərək həm, istehsal və satış kanalları ilə bağlı çeşidlilik əldə edir, həm də sadəcə bir bölgədə istehsalın yarada biləcəyi riskdən sığortalanırlar. Kapital defisiti olan ölkə üçün də TMK-ların rolu əhəmiyyətlidir. Kapital defisiti olan ölkədə istehsal üçün lazım olan digər istehsal amilləri səmərəli istifadə edilə bilinmir və ya lazım olan dəyəri görmür. İstehsalın inkişafı ilə yanaşı onun kooperativləşməsinə də eyni dərəcə də təsir göstərir. İri TMK-lar istehsal riskini azaltmaq və satış kanallarını çeşidləmək üçün ortaq hərəkət etməəyə daha çox həvəs göstərirlər. Beynəlxalq istehsalda rast gəlinən meyillərdən biri də "**Transşipment**"-dir. Bu əslində beynəlxalq ticarətdə bir növ saxtakarlıq etmək üçün həyata keçirilir. Transşipmentin mahiyyəti odur ki, bir ölkə istehsal etdiyi məhsulun yalnız son mərhələsini və ya qablaşdırılmasını xaricdə həyata keçirir və istehsalın son mərhələsi və ya qablaşdırılmasını təmin edən ölkə məhsulun istehsalçısı hesab edilir. Bəs burada ölkə üçün qazanc nədir? Qeyd edim ki, bu prinsipdən daha çox ABŞ-Çin ticarət müharibəsi başladığı dövrdən etibarən Çin istifadə edir. Məqsəd isə Çin məhsullarının maneəsiz şəkildə ABŞ-a ixrac edilməsidir. Beləki Çin hər hansı məhsulunu Taylanda göndərir. Məhsul burada qablaşdırılır və "Made in Tayland" etiketi vurularaq ixrac edilir. Tədqiqatçılar hesab edir ki, bu kimi istehsal prosesi dünya miqyasında son dövrlərdə kəskin artmaqdadır. Transşipment prosesi ilə ixrac edilən məhsulların əsl istehsalçılarını tapmaq elə də asan olmur. Təxmini hesablamalara əsasən bu zaman ixrac edilən məhsulların yalnız 20%-i "track" edilə bilinir. Qalan hissəni isə izləmək qeyri-mümkündür. Çinin ABŞ-la olan ticarət müharibəsində əlini sağlamlaşdıran əsas strategiyalardan biri məhz Trsanşipmentdir. Beynəlxalq İstehsalın kopperativləşməsi ilə yanaşı ixtisaslaşma meyilləri də günü-gündən artmaqdadır. İxtisaslaşma BƏB-in əsas formalarından biri hesab olunur. Beynəlxalq ixtisaslaşma (international specialization) ölkənin müəyyən əmtəə və xidmətləri öz daxili tələbatından artıq istehsal etməklə onların dunya bazarlarında reallaşdırılması üzrə ixtisaslaşmasını ehtiva edir (Elşən H. 2018: s.34). Ölkələr bu və digər məhsulun istehsalında ixtisaslaşmaqla əlində olan istehsal resurslarından daha səmərəli

istehsal edirlər. Ölkələr müəyyən məhsulun istehsalında ixtisaslaşmaqla daxili tələbatdan daha çox istehsal etməklə yanaşı istehsalın maya dəyərini aşağı çəkirlər. Bu da həmin məhsulun istehsalında ölkənin rəqabət üstünlüyü qazanması deməkdir. İxtisaslaşma iki əsas səviyyədə reallaşır:

1. Ölkənin istehsal ixtisaslaşması;
2. Regional səviyyədə istehsal ixtisaslaşması.

İxtisaslamanın bu səviyyələrlə yanaşı müəyyən formaları da vardır. İstehsalın ixtisaslaşmasının bu məna da 3 əsas formasını qeyd etmək lazımdır.

- ✓ Predimet ixtisaslaşma-bu halda ölkələr hazır məhsulun istehsalı üzrə ixtisaslaşırlar. Məsələn İsveçrə saat istehsalı üzrə, Belarusya kənd təsərrüfatı texnikası üzrə, ABŞ kosmik sənaye məhsulları üzrə ixtisaslaşıb və s.
- ✓ Detal üzrə ixtisaslaşma- ölkələr bu zaman məhsulun müəyyən hissəsi və detalı üzrə ixtisaslaşırlar. Məsələn telefon və oxşarı elektronik cihazların istehsalı zamanı ölkələr onun müəyyən detalları üzrə ixtisaslaşır və son nəticədə bu detallar birləşərək son məhsulu formalaşdırır.
- ✓ Texnoloji ixtisaslaşma- Bu ixtisaslaşma forması isə istehsal prosesinin müəyyən mərhələləri üzrə ixtisaslaşmadır.

Qeyd etmək lazımdır ki, ölkələrdə bu ixtisaslaşma formalarının müxtəlif məhsullar üzrə fərqli formalarına rast gəlinə bilinir. Yəni bir ölkə traktor istehsalı üzrə ixtisaslaşmaqla yanaşı, telefonun müəyyən hissəsi üzrə də ixtisaslaşa bilər. Ya da ölkədə olan istehsal amillərinin xarakterindən asılı olaraq bir neçə məhsul üzrə predmet ixtisaslaşması da mümkündür. Əsas məsələ ölkənin ixtisaslaşma forması yox, istehsalında ixtisaslaşdığı məhsulun və ya detalın ona nə dərəcədə fayda gətirdiyi və bu ixtisaslaşmanın nə qədər səmərəli olmasıdır. İxtisaslaşma prosesi ölkənin sahib olduğu istehsal amillərinin çeşidliliyi və bolluğu ilə bir başa bağlıdır. Bu məsələdə bir çox nəzəri yanaşma olsa da, mahiyyət ölkənin sahib olduğu bol resursun istifadəsi ilə ixtisaslaşmasıdır. Lakin ölkənin beynəlxalq arenadakı nüfuzu ixtisaslaşdığı məhsulun dəyərindən və ona olan tələbatdan çox asılıdır. Yəni eyni səviyyədə müxtəlif məhsullar

üzrə ixtisaslaşan iki ölkədən biri daha dəyərli və tələbatı olan məhsul istehsal etdiyi üçün digər ölkəyə nisbətən daha nüfuz sahibi olacaq. İxtisaslaşmanın faydası yalnızca ölkə üçün deyil, həm də bütün dünya iqtisadiyyatı üçün xüsusidir. Müəyyən sahədə ölkənin ixtisaslaşması eyni zamanda bu sahədə istifadə olunan istehsal amillərinin daha səmərəli istifadə edilməsi mənasına gəlir. Tarix boyu istehsalın ixtisaslaşması və ölkələrin xarici ticarət münasibətlərini bu ixtisaslaşma əsasında qurmaları barədə ideyalar irəli sürülmüşdür. Bu mənada Adam Simitin **"Mütləq üstünlüklər nəzərəiyyəsi"**, David Rikardonun **"Nisbi üstünlüklər nəzəriyyəsi"**, **Hekşer-Olin nəzəriyyəsi** və s. nəzəriyyələri xüsusilə qeyd edtmək lazımdır. Adam Simitin nəzəriyyəsi ölkənin hansısa məhsulun istehsalında digər ölkəyə nisbətən daha səmərəli olduğunu söyləyir. Bu nəzəriyyəyə görə ölkə hansı məhsulun istehsalında səmərəliliyə nail ola bilirsə, onu istehsal etməli və xarici ticarət münasibətlərini onun əsasında qurmalıdır. Onun davamçısı olan David Rikardonun nisbi və ya müqayisəli üstünlüklər nəzəriyyəsi isə ölkənin bir məhsulun istehsalında digərinə nisbətən aşağı alternativ xərcə malik olmasına əsaslanır. Bu nəzəriyyənin mahiyyəti Rikardonun əmək məhsuldarlığı amilinə Smitin «mütləq üstünlüklərindən» asılı olmayaraq, ölkənin istehsal edə biləcəyi bütün əmtəələrlə ticarəti faydalı edən yeganə şərt kimi yanaşmasından ibarətdir (Xasbulatov R.İ.2015: s.136). Rikardo sual verirdi ki, əgər iki ayrı məhsulun istehsalında eyni dövlət tərəfdaş dövlətinə nisbətən üstünlüyə malik olarsa, digər dövlət hansı məhsulu istehsal etməlidir? Bu suala mütləq üstünlüklər nəzəriyyəsi ilə cavab vermək mümkün deyil. Rikardo isə öz nəzəriyyəsində iki məhsuldan hansının alternativ xərci azdırsa, onun istehsalının həyata keçirilməsininin vacibliyindən danışır. Nisbi üstünlüklər nəzəriyyəsinə əsaslandıqda dünya səviyyəsində baxdıqda istehsal olunan məhsulun həcmi mütləq üstünlüklər nəzəriyyəsinə nisbətdə daha çox olur.

Qlobal iqtisadi sistemin inkişafı ölkələrin ticarət və istehsal proseslərinə öz təsirini göstərməkdədir. Qlobal miqyasda belə inkişaf istehsalın nəyinki bir ölkədə həyata keçirilməsini tarixə qovuşdurur, eyni zamanda istehsalın müxtəlif mərhələlərinin ayrı-ayrı ölkələrdə həyata keçirilməsini şərtləndirir. İstehsalın hər

mərhələsinin ayrı-ayrı ölkələrin ixtisaslaşması ilə həyata keçirilməsinə **“şaquli ixtisaslaşma”** da deyirlər.Şaquli ixtisaslaşmanın hər mərhələsində müxtəlif ölkələr durur və onlar bir-biri ilə bağlıdırlar (Mehmet Z. 2019: s.5). TMK-lar adətən xərclərini azaltmaq üçün istehsal resurslarının müəssisələrə olan məsafəsi, istehsal müəssisələrinin bazara olan məsafəsi və s. kimi faktorları nəzərə alaraq istehsalın müxtəlif mərhələlərini ayrı-ayrı ölkələrdə həyata keçirirlər. Şaquli ixtisaslaşma texnoloji və ya mərhələ ixtisaslaşması ilə eynilik təşkil edir. Şaquli ixtisaslaşmanın ölkə və dünya iqtisadiyyatına müsbət və mənfi təsirləri mövcuddur. Şaquli ixtisaslaşmanın gətirdiyi müsbət və mənfi təsirləri anlamaq üçün ilk növbədə onun mahiyyətini daha dərindən açmalıyıq. Bu mənada istehsalın şaquli ixtisaslaşmasını ölkənin hər hansı məhsulu idxal edib daha sonra bu idxal məhsulu üzərində müəyyən istehsal prosesini həyata keçirməklə son məhsulu alması və daha sonra onu ixrac etməsi kimi də başa düşə bilərik. Qeyd edək ki, ixtisaslaşmanın bu formasını hər hansı ölkənin həyata keçirə bilməsi üçün ilk növbədə digər ölkələrlə sıx iqtisadi əlaqələrinin olması vacibdir. Şaquli ixtisaslaşmanın obyekti olan istehsal məsulunun reallaşdırılması üçün onun ilk növbədə müəyyən istehsal prosesindən keçməsi zəruridir. Eyni zamanda son məhsulun istehsal edilə bilməsi üçün hər ölkə  sahib olduğu qaynaqlarla məhdudlaşan imkanlarını razılıq əsasında istifadə etməlidir. Yəni müəyyən mərhələnin bir ölkədə həyata keçirilməsi digər ölkədə son məhsulun əldə edilməsi üçün əsasdır. Əgər hər hansı mərhələdə problem yaranar və ya uyğun ixtisaslaşma olmaz isə son məhsulun əldə edilməsi mümkün olmaz. Bu səbəbdən ölkələr istehsal üzrə şaquli ixtisaslaşarkən öncədən istehsal və ticarətlə bağlı razılığa gəlməlidirlər.  Artıq şaquli ixtisaslaşma üçün müvafiq son məhsulu istehsal edən ölkələr qrupunun tam kordinasiyasının vacibliyi bizə məlumdur. Bu zaman ortaya daha bir əhəmiyyət daşıyan məsələ çıxır ki, bu da istehsal prosesinin ləngiməməsi üçün ölkələrin tarif və qeyri-tarif ticarət məhdudlaşdırıcı alətlərini mümkün olduğu qədər azaltmalı olduğudur. Şaquli istehsal ixtisaslaşmasının ölkələr üçün mahiyyətini ifadə edən aşağdakı amilləri xüsusi ilə qeyd etmək lazımdır:

- Xaricdən daha aşağı maliyyətli mal idxalı;

- ➢ Ucuz əmək resursları hesabına aşağı maliyyət;
- ➢ Dünya bazarına sürətli inteqrasiya, ölkə xaricində formalaşmış faydanın mənimsənilməsi;
- ➢ Partniyor ölkədən idxal edilən malin növbəti istehsal mərhələsi üçün daha ucuz və keyfiyyətli olması;
- ➢ Ölkənin ixtisaslaşdığı məhsulun hər hansı hissəsinin daha keyfiyyətli detalını idxal etməklə əldə olan məhsulun optimizasiyası;
- ➢ Şaquli ixtisaslaşmanın yaratdığı əməkdaşlıq əlaqəsinin son məhsulun tamamlanmasında yarana bilinicək problemləri aradan qaldırması və son məhsulun maneəsiz satışı və s.

Şaquli ixtisaslaşmanın yuxarda saydığımız üstün cəhətləri ilə yanaşı özü ilə gətirdiyi mənfi cəhətlərini də qeyd etmək lazımdır:

- ➢ Son məhsulun müəyyən hissələrinin idxal edilməsi prosesi sürətləndikcə ölkənin tədiyyə balansında xərc hissəsinin artması;
- ➢ İdxala meyilliliyin artmasının müəyyən məndada daxili istehsalda geriləməyə səbəb olması;
- ➢ İdxalın artması ilə birlikdə xarici valyutanın ölkədən çıxması, milli valyutanın dəyər itirməsi;
- ➢ Şaquli ixtisaslaşma ölkəni ixtisaslaşdığı məhsulun tamamlanması üzrə xaricdən nisbi asıllığını şərtləndirir ki, bu zaman yaranmış istehsal əməkdaşlığının pozulması ölkə üçün ciddi itkilərə səbəb ola bilər;
- ➢ Ölkənin şaquli ixtisaslaşma ilə birlikdə ölkəyə gələn istehsal TMK-larından asılı hala düşməsi və s.

Bu məsələyə nəticə olaraq qeyd etmək lazımdır ki, ölkələrin istehsalda şaquli ixtisaslaşması qurulmuş əməkdaşlıq əlaqələrinin davamlı olduğu müddətcə faydalıdır. Lakin bu zaman əməkdaşlığın davamlılığını qorumaqla yanaşı ölkələr daxili istehsalda alternativ istiqamətlərə də yönəlməlidir.

### 1.3. Beynəlxalq istehsalın qloballaşmasının səbələri

Qloballaşma anlayışı ötən əsrin sonlarından-xüsusəndə sosializm sisteminin dağılması və kapitalizmin müasir dünyanın alternativsiz iqtisadi sistemi olmasından etibarən bir çox iqtisadi və siyasi ədəbiyyatlarda müzakirə mövzusu olmağa başlamışdır. Qloballaşma təbii-tarixi proses olmaqla ölkələrin milli iqtisadiyyaltlarını qoruyan proteksionist tədbirlərin və bənzəri müdafiə xarakterli ticarət məhdudlaşdırıcı alətlərin tətbiqini istisna edir. Yəni ölkələr üçün qloballaşma ilə dünya iqtisadiyyatından qismən və ya tamamilə təcrid edilmiş milli iqtisadiyyat anlayışı əks mövqedə durur. Qloballaşmanın üstünlüklərindən istifadə etmək istəyən ölkələr üçün milli iqtisadiyyata proteksionist tədbirlərin tətbiq edilməsi və dünya bazarı ilə məhdud əlaqələrin qurulması məqbul hal deyil. Bu təbii-tarixi məhfumun üstünlüklərindən istifadə etmək istəyən ölkələr ilk növbədə iqtisadiyyatlarını liberallaşdırmalıdır. Bu məqsədlə tarif və qeyri-tarif metodların tətbiqindən qaçınırlar. Bu zaman dünya iqtisadiyyatında olan mənfəətdən faydalana bilsələrdə qloballaşma özü ilə bərabər bəzi çətinliklərdə gətirdiyi üçün müəyyən hallarda ölkə risklərlə də qarşılaşır. Qloballaşmanın iqtisadi məkan təzahürləri qlobal səviyyədə rifahın artmasına gətirib çıxarır. Qloballaşmanın tarixi müxtəlif insan qruplarının arasında iqtisadi münasibətlərin yarandığı ilkin dövrlərə təsadüf edir(İbrahim A. 2013: s.3). Qloballaşma bütünlükdə açıq iqtisadiyyata əsaslandığı üçün dünya iqtisadiyyatında baş verən böhranlardan qaçınmaq heç də asan olmur. Bu qloballaşmanın özü ilə bərabər gətirdiyi ən böyük risklərdən biri hesab edilir. Qloballaşmanın ölkə üçün müsbət və mənfi cəhətləri olduğu üçün onun dəstəkçiləri və əlehdarları da mövcuddur. Onun üstünlüyünü dilə gətirən qlobalistlər istənilən halqa ölkənin dünya iqtisadiyyatına inteqrasiya etməsinin tərəfdarlarıdır. Antiqlobalistlər isə qloballaşmanın mənfi tərəflərini dilə gətirməklə onun ölkə iqtisadiyyatları üçün qarşısının alınmasının çətin olacağı problemlər gətirəcəyini söyləyirlər. Hətta bəzi aniqlobalistlər qloballaşmanı “Amerikanlaşma” ilə bərabər tutaraq bu prosesin bütünlükdə nəhəng dövlətlərin maraqlarına xidmət edən bir siyasi-iqtisadi və sosial proses olduğunu qeyd edirlər.

Onun nəhəng ölkələrin maraqlarına xidmət etməsi İnkişaf Etməkdə Olan və daha yoxsul ölkələrin iqtisadiyyatları üçün sadəcə riskdən ibarət olduğu və onların iqtisadiyyatlarında yaranan mənfəətin İnkişaf Etmiş Ölkələr tərəfindən mənimsənilməsi qloballaşmanın əsas "mahiyyətini" təşkil edir. Əlbəttə ki, bu antiqlobalistlərin mövqeyidir. Qloballaşmanın antiqlobalistlərin dediyi kimi mənfi təsirləri olsa da, ölkələrin iqtisadi inkişafı ilə yanaşı mədəni inkişafına da müsbət təsiri çox böyükdür.

Qloballaşma tərəftarları qloballaşma ilə birlikdə həm iqtisadi, həm də digər sahələrdə qütbləşmənin aradan qaxlması ilə qarşılıqlı əlaqələrin daha da inkişaf edəcəyini düşünürlər (Mehmet Ç. 2012: s.3). Qloballaşmanın əsas əlamətlərinə BƏB-in xarakterində keyfiyyət dəyişməsi, TMK kimi və digər iqtisadi subyektlərin əhatə dairəsi və funkisyasının artması, qlobal miqyasda təhlükəsizlik sistemlərinin dəyişməsi aiddir (Osmova M.N., Boyçenko A. V., Jelezova V.F., Kasatkina E.A., Zubenko V.A., Talıziza E.V., Lyamenkov A.K. 2008, s.26). İndi isə qloballaşma və beynəlxalq istehsalla bağlı əsas məsələyə keçməmişdən qabaq qısa şəkildə qloballaşmanın özü ilə gətirdiyi mənfi meyillərə nəzərə salaq.

İlk növbədə qloballaşmanın iqtisadi cəhətdən şərh edilən mənfi cəhətlərindən söz aça bilərik. Ölkələrin liberal iqtisadi siyasət yürütmələri dünya iqtisadiyyatında baş verən maliyyə-iqtisadi böhranlara ölkəni müqavimətsiz edir. İqtisadi cəhətdən əsas itkiyə məhz İEOÖ-lər məruz qalır. ETİ-ın bu ölkələrdə İEÖ-lərə nisbətən zəif getməsi onların dünya iqtisadiyyatında daha zəif təmsil olunmasına gətirib çıxarır, beləliklə də bu tip ölkələrdə idxal həm ixracı üstələyir, həm də milli iqtisadiyyat böyük ölçüdə iri iqtisadiyyatlardan ya da TMK-lardan asılı hala düşür. Bu isə öz növbəsində ölkələrin milli iqtisadiyyatlarda və milli bazarlarında yaranan gəlirin xaricə daşınmasına səbəb olur. Eyni zamanda ölkənin milli valyutası xarici təsirlərdən və idxalın ixracı üstələməsi səbəbindən daha da dəyərsizləşir. Əlbəttə İEÖ-lər üçün də qloballaşmanın müəyyən riskləri mövcuddur. Bu risklər öz növbəsində miqrasiyya axınının bu tip ölkələrə meyil etməsi ilə işsizlik probleminin və sosial müdafiə probleminin yaranması ilə

səcəiyyələnir. İqtisadi problem olmasa da, miqrasiyya prosesinin sürətlənməsi İEÖ-lərdə kiçik ölçülü milli münaqişələrin yaranmasına, bəzən isə yerli əhalinin narazılıqlarına səbəb olur.

Qloballaşmanın iqtisadi riskləri ilə yanaşı siyasi-mədəni sahədə də riskləri mövcuddur. Bu mənada narkomaniyanın, terrorizmin, ərazi uğrundan yaranan siyasi münaqişlərin artmasını xüsusilə qeyd etmək lazımdır. Qloballaşmanın mənfi cəhətlərinin olması onun cəmiyyətin inkişafı üçün faydasız olduğu mənasına gəlmir. Hərçənd ölkələrin böyük əksəriyyətinin qloballaşmaya meyil etməsi və iqtisadi baxımdan dünyada vacib mövqeyə çatmağa çalışması günümüzün əsas tendensiyalarından hesab edilir. Qloballasma problemi müasir dövrün filosofları, politoloq, sosioloq, iqtisadçıları və hə tta cografiyaçılar tərəfindən geniş müzakirə olunan ən aktual problemlərindən biridir (İsrafilov H.A. 2009: s.307).

İqtisadi qloballaşmanın bir-birilə əlaqədar iki forması iqtisadi ədəbiyyatlarda müzakirə mövzusu hesab olunur. Bunlar 1) dünya bazarının qloballaşması və 2) istehsalın qloballaşması. Dünya bazarlarının qloballaşması ayrılıqda mövcud olan milli və regional bazarların vəhdət təşkil etməsidir.İstehsalın qloballaşması istehsalın üstünlüklərindən istifadə etmək məqsədilə ölkələrin və ya istehsal müəssisələrinin istehsalını xaricə daşımasıdır. Bu zaman əsasən istehsalın gəlir və xərc üstünlüklərindən faydalanmaq ölkələr üçün prioritet götürülür. Qloballaşmanın əsas hərəkətverici gücləri olaraq, kapitalın təmərküzləşməsi və mərkəzləşməsi, təsərrüfat həyatının beynəlmilləşməsi, ETT, internetin genişlənməsi,beynəlxalq təşkilatların fəaliyyəti, qlobal problemlərin kəskinləşməsi çıxış edir (Elşən H. 2018: s.542).

Qloballaşmanın mahiyyyəti, onun formalaşmasının tarixi inkişaf mərhələləri və mənfi-müsbət cəhətləri ilə bağlı qeyd etdikdən sonra, nəhayət beynəlxalq istehsal prosesi və qloballaşma arasındakı əlaqəyə keçə bilərik. İstehsal prosesi, son məhsulun satışı, eyni zamanda bütün istehsalçılar, vasitəşilər və son tədarükçülər cəmiyyətdə baş verən mədəni proseslərdən və texnologiyanın inkişafı ilə şərtlənən qloballaşmadan təsirlənirlər. Qloballaşmanın təzahürləri öz təsirini ətraf-mühit məsələlərində, ticarət

razılaşmalarında və resrurslara olan tələb üzərində göstərir. Öz növbəsində bu üç amilin beynəlxalq istehsala təsiri olur. Ümumiyyətlə cəmiyyətin iqtisadi, siyasi və mədəni həyatında baş verən hər bir müsbət hadisə istehsalın qloballaşmasına təsir göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi beynəlxalq istehsalın qloballaşmasına səbəblərindən biri "**Sərbəst Ticarət Razılaşmalar**" dır. Ölkələr arasında bağlanmış belə ticarət sazişləri iqtisadi imkanları artırır, beləliklə istehsalçılar bu sazişlərə əsasən istehsalın müəyyən mərhələsini daha səmərəli şəkildə digər ölkədə həyata keçirirlər. Bu sazişlər sazişin hər iki tərəfi üçün fayda yaradır. Belə sazişlərdən birinə Çin və Avstraliya arasında bağlanmış CHAFTA sazişini nümunə kimi göstərə bilərik. Bu razılaşmadan sonra digərinin daxili bazarında və ərazisində xüsusi imkanlar qazanan ölkələr istehsallarını buraya daşıyırlar və nəticədə istehsalın qloballaşması baş verir. Bu prosesi daha aydın başa düşmək üçün Çin və Avstraliya arasında bağlanmış sazişə bir az detallı nəzər salaq. CHAFTA ilə hər iki tərəfin üstünlükləri göstərilir. Avstraliyada kənd təsərrüfatı məhsulları, dəmir, nikel, kömür, mis və s. kimi strateji xammallarla zəngindir. Bu isə Çinin öz istehsalını buraya daşıması və ya müvafiq xammalla həyata keçirdiyi istehsalın zəruri vasitələrini bu ölkədən tədarük etməsi iki ölkə arasında istehsal prosesinin qloballaşmasına gətirir. Bu proses bağlanmış sazişin tərəflərinin çoxalması ilə birlikdə daha qlobal xarakter daşıyır. Bu mənada sazişlər ikitərəfli və çox tərəfli də ola bilər. Tərəfdaş ölkədə baş verən böhran nəticəsində ölkənin valyutasının aşağı düşməsi, daxili siyasi çaxnaşma, müəyyən hallarda proqnozlaşdırılmayan xərclərin artması digər tərəfdaş ölkə üçün itkiyə səbəb olur. Bu zaman qarşıya çıxan problemlərin bir neçə ümumi həll yolu vardır. Beləki qlobal istehsalçı rəqabətdə digər ölkələr və rəqiblərə uduzmamaq üçün yüksək keyfiyyətli məhsul və xidmət, təhlükəsiz və sürətli daşınma, aşağı maya dəyəri kimi strateji əhəmiyyətli prinsiplərə sadiq olmalıdırlar. Əks təqdirdə istehsalın qloballaşması prosesi ölkə üçün mənfəətdən çox itgi gətirəcək. **"Texnoloji inkişaf"** beynəlxalq istehsalın qloballaşmasına təsir edən amillərdən biri hesab edilir. Dünya miqyasında texnoloji inkişafın sürətlənməsi istehsal prosesində ölkələrə maddi xərc və zaman baxımından fayda verir. ETT-nin istehsal

prosesini sürətləndirməsi nəticəsində həm daha çox istehsal etməyə imkan yaranır, həm də istehsal prosesi daha təhlükəsiz olur. Maddi baxımdan da xərclərin aşağı düşməsi ilə ölkələr və ya iri istehsal şirkətləri fəaliyyət dairələrini genişləndirməyə meyil edirlər. Bu zaman onların əsas hədəfi xarici istehsal paylarını artırmaqdır ki, xərc və zaman baxımından faydanın əldə edilməsi ilə buna imkan yaranaır. Texnoloji inkişafın istehsala təsiri 2 halda özünü biruzə verir: 1) Ümumi istehsal maliyyətləri, 2) işçi qüvvəsi ilə əlaqədar maliyyətlər. Beynəlxalq istehsalda bu texnoloji inkişafın yaranması ölkələr və iri TMK-lar arasında olan iqtisadi rəqabətdən qaynaqlanır.

Müasir dövrdə beynəlxalq istehsalın həcminin bu qədər artması ölkələrin və cəmiyyətlərin “**ideloji baxış bucaqları”** ilə də əlaqədardır. Məlumdur ki, ölkələr əsasən liberalizm və proteksionizm idealarına əsaslanaraq digər ölkələr ilə istehsal, ticarət və digər iqtisadi əlaqələr qururlar. Proteksionimz ideologiyası ilə çıxış edən ölkələr daxili iqtisadiyyatlarını və milli bazarı qorumaq üçün bir çox tarif və qeyri-tarif proteksionist məhdudlaşdırıcı alətlərindən istifadə edirlər. Bu məhdudlaşdırıcı alətlər kapitalın ölkə ərazisinə gəlməsinə və ya ölkədən kapitalın çıxmasına əngəl törədir. Nəticədə xaricdə istehsal fəaliyyəti göstərən şirkətlər bu məhdudlaşdırıcı alətlərin təsiri ilə maliyyət itkisi ilə üzləşirlər, bəzən isə ümumiyyətlə xaricdə istehsal müəssisələri qurmaq mümkün olmur. Beləliklə proteksionizm siyasəti dünya miqyasında istehsalın həcminin azalmasına səbəb olur. Digər tərəfədn liberalizm ideologiyası ilə çıxış edən ölkələr həm xarici kapitalın ölkəyə daxil olması, həm xaricdə müəssisələrin yaradılmasına həvəs göstərirlər. Bu zaman son məhsulun, kapitalın və işci qüvvəsinin rahat hərəkət etməsi nəticəsində beynəlxalq istehsalın həcmi daha da artır. Ölkələr bu məqsəd ilə qeyri-tarif metodlarının tətbiqindən çəkinir, gömrük tarif və rüsmlarını aşağı salırlar. Bu prosesi Avropa Birliyi ölkələrində daha aydın müşahidə edə bilərik. Avropa Birliyi ölkələri arasında məhdudlaşdırıcı alətlərin demək olar ki, heç tətbiq edilməməsi və miqrasiya prosesinin rahatlığı, həmçinin ortaq iqtisadi siyasətlərin qurulması bölgə və regional miqyasda istehsalın artmasına səbəb olub. Bu kimi liberal əlaqələrin qurulması ilə həm də inkişaf etməkdə olan ölkələr xarici kapitalın ölkə ərazisinə daxil

olmasına nəticə də iqtisadi inkişafa nail olurlar. Daha səmərəli istehsal metodlarının öyrənilməsi və tətbiqi, yeni texnologiyanın yaranması, istehsal prosesinin robotlaşması, yüksək rəqabətdən və texnoloji səviyyədən qaynaqlanan keyfiyyət faktoru və s. kimi faktorların təməlində ölkələrin liberal görüşləri dayanır. İkiqat vergi tutma prinsipinin ləğv edilməsi xüsusi ilə beynəlxalq istehsalın qloballaşmasına təsir göstərməkdədir. Xaricdə istehsal fəaliyyəti göstərən şirkətlərin yalnız bir ölkəyə vergi verməsi daha çox gəlir əldə etmələrinə və istehsallarının həcminin artırılmasına səbəb olur.

İndi isə istehsalın qloballaşmasının digər bir səbəbini izah edək. Bu "**ətraf mühitin istehsala təsirləri**" kimi şərh edilir. Ətraf mühitin istehsalın qloballaşmasına bir neçə formada təsir edir. İlk növbədə qeyd edək ki, ətraf mühitin çirklənməsi problemi qlobal problemdir və bu qlobal səviyyədə razılaşma əsasında həll edilə bilər. Buna görə də ölkələr bəzi məsələlərdə razılığa gəlirlər və ilk halda qeyd etdiyimiz kimi saziş əsasına razılaşırlar. Beləliklə istehsal prosesində xammalın istifadəsi, texnoloji inkişafın səviyyəsi, istehsal edilən məhsulların keyfiyyəti, iqlim dəyişikliyi, xammalın tükənməsi, istehlakdan geriyə qalan hissənin yenidən istehsal prosesinə cəlb olunması və s. kimi məsələlərlə bağlı tərəflər razılığa gəlirlər. Bu razılıq əsasında istehsal qlobal xarakter alır. Ətraf mühitlə bağlı saziş bağlayan tərəflər istehsal prosesində istifadə etdikləri texnoloji avadanlığın səviyyəsini yüksəldirlər, bu öz növbəsində ətraf mühitə müsbət təsir etməsilə birlikdə istehsalın artması, son məhsulun sürətli və keyfiyyətli ərsəyə gəlməsinə səbəb olur. Ölkələr xammal israfının qarşısını almaq üçün yüksək səviyyəli istehsal metodlarından istifadə edərək həm istehsala, həm də ətraf mühitə fayda verirlər. Bunun üçün xammalın emalı sonunda itkinin olmaması üçün xammalın təkrar emalı da həyata keçirilə bilər. Bu proses son məhsuldan geriyə qalan tullantı üçündə xarakterikdir. Bəs bu kimi tədbirlərin görülməsi istehsalın qlobal xarakter almasına necə təsir göstərir? Bu sualın cavabı iki əsas amildən asılıdır. İlki təbiətə daha az zərəvə vermək məqsədilə texnoloji üstünlüyə nail olmaq davamında istehsalın səviyyəsini yüksəldir və qloballaşma üçün müsbət şərait yaradır. Digər tərəfdən qlobal miqyasda razılaşdırılan keyfiyyət və ölçülərə riayət edən ölkələr daha uğurlu olur ki,

bu da digərlərinin həm onların istehsal metdolarını öyrənməsinə, həm də ortaq istehsal prosesi həyata keçirmələrinə səbəb olur. Bəzən İEÖ-lər öz ərazilərində ətraf mühitin salamatlılığına nail ola bilmək məqsədilə istehsal proseslərini, xüsusəndə daha çirkli istehsal proseslərini nisbətən az inkişaf etmiş ölkələrə daşıyırlar. Əslində bu addım istehsalın qloballaşmasına təsir göstərsə də, İEOÖ-lərdə ətraf mühtin vəziyyətini daha da pistləşdirir. Həm xarici istehsalçıların, həm də daxili istehsalçıların fəliyyəti ətraf mühitə, əsasəndə atmosferə ciddi təsir göstərir. Ətraf mühit məsələlrinin istehsalın qloballaşması üzrəində təsiri müəyyən mənada məcburi xarakter daşıyır.

**“Xammal mənbələri”** beynəlxalq istehsalın qloballaşmasına təsir göstərən digər bir səbəbdir. İstehsal prosesinin daha ucuz başa gəlməsi üçün beynəlxalq istehsalçılar öz müəssisələrini xammal mənbələrinə yaxın olan ərazilərə daşıyırlar, bu da beynəlxalq istehsalın həcminin daha da artmasına səbəb olur. Bu tendensiya hal-hazırda bir çox ölkənin istehsal müəssisələrini Çinə daşıması ilə də özünü biruzə verir. Çin əhalisinin çoxluğu əksər böyük istehsalçıları fabriklərini burada açmağa sövq edir. Xüsusən də əl əməyinə əsaslanan məhsulların istehsalı ilə bağlı fəaliyyət göstərən şirkətlər Çinə daha çox axın edirlər. Bu şirkətlərdən birinə idman malları istehsalı ilə məşğul olan Amerika mərkəzli Nike şirkətini nümunə gətirə bilərik. 41 ölkədə 530 yaxın fabrikası olan şirkətin əsas iş prinsipi istehsal prosesini ucuz işçi qüvvəsi olan bölgələrə daşımaqdır. Bu mənada Nike və digər oxşar şirkətlər üçün Çin əvəz olunmaz regiondur.

Xammal mənbələrinin beynəlxalq istehsalın qloballaşmasına digər təsir variantı isə xammalın rahat əldə edilə bilinməsi və keyfiyyətli olmasıdır. Məsələn daş kömür mədənləri Almaniyada (Rur,Saar) da çox yayılmasına rəğmən onların çıxarılması çətin olduğu üçün Almaniya daş kömür istifadəsi xüsusi ilə fərqlənən istehsal müəssisələrini bu prosesin daha asan olduğu regionlara daşıyır. Digər tərəfdən son istehlak məhsulunun keyfiyyətli olması üçün istifadə olunan xammalın da keyfiyyətli olması xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə ölkələr öz istehsal proseslərini daha keyfiyyətli

xammal mənbələri olan yerlərə daşıyırlar. Ümumiyyətlə bu proseslərin hər birinin əsasında ölkələr arasında bağlanan sazişlər durur.

Beynəlxalq istehsalın qloballaşması səbəblərindən biri də iri istehsal TMK-larının daha çox "**gəlir əldə etmə"** istəyidir. Adətən TMK-lar əlavə gəlir mənbəyi olan yerlərə daha sürətlə "axın" edirlər. Əlavə mənfəət yaranan bölgələrdə istehsal sahələrini quran TMK-lar istehsalın qlobal xarakter daşımasında əsas faktorlardan biri hesab edilir. Hətta müəyyən hallarda bu TMK-lar öz aralarında xüsusi açıq və gizli sazişlər bağlayaraq istehsal sahələrini müəyyən əraziyə köçürürlər. Həm məhsulun istehsalı, həm də daşınma və satışla bağlı razılığa gələn şirkətlər bütün sahələrdə qloballaşmaya nail olurlar. Adətən bu kimi açıq və gizli sazişlər hesabına istehsal sektorlarının müəyyən ərazilərdə inkişaf etdirilməsi həm bu şirkətlər üçün, həm də həmin regionun iqtisadiyyatı üçün faydalı olur. TMK-ların ölkəyə kapital qoyuluşu həmin TMK-nın aid olduğu ölkənin iqtisadi, sosial, mədəni və s. xüsusiyyətlərini yeni ölkəyə daşımasına imkan yaradır. Ölkəyə cəlb olunan xarici kapitalın məbləği onun investisiya cəlb ediciliyi, siyasi sabitliyi və iqtisadiyyatın perspektiv inkisafı indikatoru kimi çıxıs edir (Əzizova G.A.2012:s.46).

**"İnvestisiya"** anlayışı beynəlxalq istehsalın qloballaşması səbəblərindən daha biri kimi qəbul oluna bilər. Birbaşa yatırımlar həm xaricdə istehsal müəssisələrinin yaradılması, həm də mövcud istehsal müəssisələrinin satın alınması formasında həyata keçirilir. Digər tərəfdən insanlar müəyyən hallarda əllərində olan əlavə vəsaitlərini-yığımlarını banklara qoymaqdansa, şirkətlərin səhmlərini almağa çalışırlar. Belə olduqda şirkətlərdə dünyanın müxtəlif yerlərində istehsal müəssisələri yarada bilmələri üçün vəsait cəmlənmiş olur. Şirkətlər bu vəsaitlər hesabına dünyanın müxtəlif yerlərində istehsal müəssisələri yaradırlar.

Nəticədə həm istehsal fəaliyyəti həyata keçirən beynəlxalq istehsalçı fayda əldə edir, həm də yığımını bu şirkətin səhmlərinə xərcləyən şəxslər. İnvestisiyaların, xüsusəndə birbaşa xarici investisiyaların (BXİ) illər üzrə dəyişməsinə nəzər salsaq, onun beynəlxalq istehsalın qloballaşmasındakı rolunu daha dəqiq anlaya bilərik. Bu

məqsədlə UNCTAD-ın illər üzrə BXİ-nin səviyyəsi barədə statistik göstəricilərindən istifadə edə bilərik.

**Qrafik 2: Qlobal miqyasda müxtəlif illər üzrə BXİ-nin dəyişməsi**




**Mənbə:**Qrafik UNCTAD-ın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://unctad.org/-webflyer/world-investment-report-2020 , Dünya İnvestisiya Hesabatı 2020.

Qrafikdən göründüyü kimi uzun tarixi dövr ərzində xaricə yatırılan birbaşa investisiyalar artmışdır. Bu isə öz növbəsində beynəlxalq istehsalın qloballaşmasına, həcminin artmasına mühüm təsir göstərmişdir. Lakin ayrı-ayrı dövrlər üzrə baxdıqda BXİ-nin həcminin kəskin dəyişməsini müşahidə edə bilərik. Buna səbəb isə dünya miqyasında baş verən iqtisadi böhranların ölkələri xaricə yatırım etməkdən çəkindirməsidir.BXİ-nin həcmi 2015- ci ildə 2 trilyon dollara qədər yüksəlmişdir (Unıted Natıons Conference On Trade And Development,2020:s.20). BXİ-ların artması prosesi müəyyən səbəblərdən tərəddüdlə qarşılaşsa da, fikrimizcə, növbəti illərdə də artan miqyasda davam edəcək. Öz müqabilində bu da beynəlxalq istehsalın daha da qloballaşmasına səbəb olacaq. BXİ ilə bağlı təhlilimizdə daha dərinə getsək, görərik ki,

BXİ-nin və davamında beynəlxalq istehsalın artmasında əsas rolu İEÖ-lər oynayır. Daha sonra isə öz növbəsində İEOÖ-lər və keçid iqtisadiyyatlı ölkələr gəlir.

**“Siyasi və sosial-iqtisadi sabitlik”** beynəlxalq istehsalın qloballaşmasına təsir edən növbəti faktordur. TMK-lar öz istehsallarını xaricə daşıyarkən bu ölkələrin daxili və xarici siyasi vəziyyəti, sosial vəziyyəti və maliyyə-iqtisadi durumu ilə maraqlanırlar. Bu TMK-ların gələcək qayğıları və risklərlə əlaqədardır. Yuxarıda sadalanan faktorların sabitliyi TMK-ların rahatlıqla bu ərazilərdə istehsal prosesini həyata keçirməsinə səbəb olur. Şirkətlər çox zaman xaricdə istehsal etdikləri məhsulları məhz həmin regionda satmağa çalışırlar ki, bu əlavə daşınma xərclərinin və proqnozlaşdırıla bilinməyən digər xərclərin qarşısını almağa imkan yaradır. Bu amili nəzərə alan şirkətlər istehsal etdikləri məhsulların həmin ərazidə davamlı istehlak edilən məhsul olmadığı halda istehsal prosesinin nə qədər asan başa gəlməsindən asılı olmayaraq bu ərazidə fəaliyyət göstərməkdən qaçınırlar. Bu mənada ölkələrin milli və dini dəyərləri xüsusi önəmə sahibdir. Qloballaşma prosesi zamanla bu milli və dini dəyərlərin yaratdığı “sərt divarları” yıxıb keçə bilsə də, bu şirkətlər üçün çox zaman iqtisadi baxımdan çox baha başa gəlir ki, şirkətlər bunu nəzərə alaraq belə bölgələrdə istehsal müəssisələrini qurmaqdan çəkinirlər.

**Beynəlxalq İqtisadi Təşkilatların** və **TMK-ların** beynəlxalq istehsalın qloballaşmasında əhəmiyyəti qeyd edilməlidir. Ölkələrin və şirkətlərin istehsal əlaqələrinin təhlükəsizliyinin təmin edilməsində Beynəlxalq İqtisadi Təşkilatların rolu çox böyükdür. İstehsalın qloballaşması prosesində ölkə və şirkətlərin qarşılaşa biləcəkləri çətinliklərin aradan qaldırılması və iqtisadi problemlərin həll edilməsi məqsədilə bu təşkilatlar beynəlxalq iqtisadi hüququn normalarından istifadə edirlər. Ümumiyyətlə bu tip təşkilatlara BVF, DB, ÜTT, BMT-nin Sənayenin İnkişafı Təşkilatı və bu kimi digər təşkilatları aid edə bilərik. Müəyyən mənada Beynəlxalq İqtisadi Təşkilatlar ölkələr və şirkətlər üçün xaricdə istehsal proseslərinin reallaşdırarkən qarant rolunu oynayır. BMT-nin Sənayenin İnkişafı Təşkilatının bu mənada xüsusi əhəmiyyəti vardır. 1967-ci ildə BMT-nin Baş Asambleyasının qərarı ilə yaradılan təşkilatın hal-

hazırda 170-dən artıq üzvü var. Mərkəzi qərargahı Vyanada yerləşən təşkilatın əsas məqsədləri İnkişaf Etməkdə Olan Ölkələrin sənayeləşdirilməsi, sənaye sahələrinin inkişaf etdirilməsi məqəsdilə ölkələr arasında sazişlərin bağlanılmasına töhfə verilməsi, sənaye potensialı olan, lakin yetərincə kapitala sahib olmayan ölkə və regionlara xüsusi yardımlar ayrılması, təkmilləşdirilmiş istehsal metodlarının tətbiqi və ölkələrə xüsusi təlimlərin keçirilməsi və s.-dir. Bu təşkilatla yanaşı digər iqtisadi təşkilatlar da müxtəlif ölkə və regionlarda istehsalın təkmilləşdirilməsi və istehsal məhsullarının keyfiyyətinin artırılması istiqamətində fəaliyyət göstərirlər. Bütün bu yardım və təlimlər beynəlxalq istehsalın qloballaşması prosesinə təsir edir. Qeyd etdiyimiz kimi TMK-larda beynəlxalq istehsalın qloballaşması səbəblərindən biridir. Gəlir əldə etmək və dünya miqyasında hegomonluğa nail olmaq istəyən TMK-lar istehsal proseslərinin dünyanın müxtəlif yerlərinə yayırlar. Nəticədə İstehsalın qlobal xarakter alması prosesi sürətlənir.

**“Mədəniyyət və mədəni əlaqələr”** beynəlxalq istehsalın qloballaşması faktorlarından biridir. Artan Komnukasiya imkanları və texnoloji infrastuktur sayəsində yeni bazarların inkişafı qloballaşma prosesini sürətləndirməkdədir (Elçin A. B. 2012: s. 14) XXI əsrdə artıq ölkələr arasında mədəni əlaqələr tarix boyu mövcud olduğu ən üst səviyyəyə çatıb. Dünyanın müxtəlif regionlarında insanlar demək olar ki, eyni və ya yaxın ideologiyalara sahibdirlər, eyni tərzdə geyinir, eyni yeməkləri yeyirlər və s. Bu yaxınlıq çox da iri miqyaslı olmasa da, texnologiyanın, xüsusən komnukasiya vasitələrinin inkişafı bu tendensiyanı sürətləndirir. Nəticədə mədəni əlaqələrin güclənməsi ilə xaricdə istehsal əlaqələri qurmaq ölkələr üçün real vəziyyət alır. Hətta ingilis dilinin qloballa dil kimi formalaşmağa başlaması bu mənada şirkətlərin istehsal və s. əlaqələrinin qurmalarına xüsusilə üstün imkan yaradır. Bu faktoru qeyd edərkən zidd mədəni sivilizasiyaların mövcudluğunu da göz ardı etməməliyik.

Beynəlxalq istehsalın qloballaşması səbəblərindən digər biri də **“İmkanlar və problemlərdir”.** Bunu qloballaşma və müxtəlif istehsal sistemləri ilə müəyyən qədər izah etməyə çalışaq. Qloballaşma tendensiyasının sürət qazanması ilə birlikdə həm də

istehsal prosesinin müxtəlif sistemləri yaradılmışdır.Yeni qloballaşan istehsal proseslərinin yaranma səbəbi daha sürətli və aşağı maliyyətli istehsalın həyata keçirilməsinə nail olmaqdır. Qısa şəkildə bəzi istehsal sistemlərinə nəzər salaq. Bu sistemlərdən biri **Fordizmdir.** Fordizm 1920-ci illərdən etibarən istifadə edilməkdədir. Henry Fordun idea müəllifi olan bu istehsal sisteminin mahiyyəti işçilərin rolunu azaltmaq, lakin onu vahid istehsal prosesinin bir hissəsi halına gətirməkdir. Fordizmdə hər özəl iş ayrı bir işçi tərəfindən həyata keçirilməkdədir (Özay Ü. T. 2010: s.4). Bu zaman istehal edilən məhsulun müəyyən hissələri sistemli şəkildə işçinin qarşısına gəlir və işçi üzərinə qoyulan funkisonal fəaliyyətə uyğun işini görür və məhsul növbəti mərhələ üçün dəzgah və avadanlıqlarla hərəkət edir. Bu zaman istehsalın əsas yükü dəzgah və avadanlıqların üzərinə düşdüyü üçün işçi sayında ixtisara getmək asanlaşır və nəticədə maliyyət sərfiyyatını azaltmaq olur. Fordizmin şüarı belədir: az əmək, az materiyal itkisi və az vaxt itkisi".

XX əsrin 60-cı illəri etibarilə fordist sistem qloballaşmanın yeni çalarlarına uyğun gəlmirdi. Bu sistemdə alıcının fərdi maraqları nəzərə alınmırdı, əsas kütlənin ehtiyac və arzuları kimi görünürdü, lakin cəmiyyətin sosial-iqtisadi inkişafı tələbatların xüsusiyyətini dəyişdirmişdir. Nəticədə istehsal prosesləri qloballaşmanın yeni çalarlarına uyğunlaşma çalışmışdır. Bu dövrdə daxili bazarların zəifləməsi ölkələri yeni bazarlar tapmağa və istehsalı daha aşağı maliyyətli etməyə sövq etmişdir. Keçən əsrin 60-cı illərindən etibarən artıq İEOÖ-lər də istehsallarını xaricə daşımağa çalışmışdır. Bununla həm yeni bazarlar tapmaq, həm də istehsalı xaricdə həyata keçirməklə daşınma xərclərinə qənaət etmək mümkündür.

1970-ci illərdən etibarən kütləvi istehsal, kütləvi satış və kütləvi istehlak anlayışı tamamilə zəifləmişdir. Nəticədə Fordist istehsal sistemi yeni formasını almışdır. Buna post fordist istehsal sistemi və ya **Dəyişkən İstehsal Sistemi** deyilir. Dəyişkən istehsal sisteminin mahiyyəti istehsal prosesinin dövrə, yeni şərtlərə, alıcının zövqlərinə və s. sürətli uyğunlaşmasıdır. Bu sistemdə "şəbəkə iqtisadiyyatı", "informasiya iqtisadiyyatı", "bilgi iqtisadiyyatı" və s. kimi anlayışlar mahiyyətini artırmışdır.

Ümumiyyətlə dəyişkən istehsal sisteminin əsas mahiyyəti texnologiyada baş verən dəyişiklərdənn istifadə etməklər sürətlə dəyişən tələblərə vaxtlı- vaxtında qarşılıq verməkdir.

Digər bir istehsal sistemi **Taylorizmdir.** Sistemin banisi Amerikalı Frederik Taylor olmuşdur. Taylorizmin əsasları fordizmə çox oxşardır. Beləki, taylorizmdə işçinin üzərinə heç bir qərar qəbuletmə səlahiyyəti düşmür. Bu sistemdə istehsal prosesinin hər bir mərhələsi ən kiçik detalına qədər əvvəlcədən planlaşdırılır və bütün proses bu plana uyğun həyata keçirilir.

# II FƏSİL. BEYNƏLXALQ ƏMTƏƏ BAZARLARININ MÜASİR VƏZİYYƏTİ, STRUKTURU VƏ QLOBALLAŞMASININ SƏBƏBLƏRİ

## 2.1. Beynəlxalq əmtəə bazarlarının mahiyyəti, müasir vəziyyəti və inkişaf istiqamətləri

Bazar anlayışı tələb, təklif, qiymət və rəqabətin qarşılıqlı təmasda olduğu iqtisadi məhfumu ifadə edir. Alıcı və satıcıların qarşı-qarşıya gəldiyi bu iqtisadi məkan təkrar istehsalın əsas mərhələlərindən biri olan "mübadilə" prosesini özündə ehtiva edir. Bazarlar əhatə dairəsindən, strukturunda, həmin bazarlarda ticarət edilən obyektlərdən asılı olmayaraq satıcının alıcıların maraq dairəsini nəzərə almaqla fəaliyyət göstərməli olduğu bir iqtisadi məkandır. Müasir marketinq yanaşmasında istehlakçıların tələb və istəklərini hədəf seçməyən bir şirkətin bazardakı digər "oyunçular" ilə rəqabət aparması imkansızdır(Mehmet Ç. 2019: s.5). Bazarlar əhatə dairəsinə, mübadilə obyektlərinin növlərinə, rəqabətqabiliyyətlik xarakterinə görə və s. əsasən müxtəlif növlərə ayrılır. Əhatə dairəsi bazarların milli, regioal, ya da beynəlxalq mahiyyət daşıması ilə xarakterizə edilir. Milli bazarlar ölkənin inzibati sərhədləri çərçivəsində fəaliyyət göstərən mübadilə məkanlarıdır. Regional bazarla isə bir qrup ölkə arasında bağlanılan sazişə əsasən müəyyən bir bölgədə mövcud olur. Bu mənada beynəlxalq bazarlar milli və regionla bazarlardan müəyyən qədər fərqlənir. Beynəlxalq bazarlar özündə milli bazarların ölkə sərhədlərini aşaraq vahid dünya bazarının formalaşmasını xarakterizə edir.

Beynəlxalq əmtəə bazarları müvafiq milli bazarların beynəlxalq xarakter alması ilə meydana çıxır. Adətən ölkələrin və şirkətlərin beynəlxalq bazarlara meyil etməsinin əsas səbəbi daxili bazarlarda istehsal edilən məhsula kifayət qədər tələbin olmamasıdır. Həmçinin tələbədən artıq istehsal etmək, məhsul istehsalında ixtisaslaşmaq iqtisadi subyekti daxili bazardan beynəlxalq bazara doğru hərəkət etməyə təşviq edir. Beynəlxalq əmtəə bazarların mahiyyətini qavraya bilmək üçün onun funkisonal "vəzifələrini" bilmək lazımdır. Bu mənada bir neçə funkisonal vəzifə qeyd edə bilərik.

**1.** Beynəlxalq əmtəə bazarlarının **informativlik** funkisyası- beynəlxalq bazar iştirakçılarına fəaliyyətlərinin təşkili və bazarlara daxil olma strategiyaları ilə bağlı bəzi informasiyalar verir. Məsələn: İstehsal ediləcək məhsulun reallaşdırılacağı qiymət, ona olan tələb, rəqiblərin qiymət və satış strategiyaları, istehsal edilməli və bazara çıxarılmalı olan məhsulun miqdarı və s. barədə məlumatlar ölkə və şirkətlər üçün bu bazarların tətqiq edilməsi ilə ortaya çıxan məlumatlardır.

**2. Kommunikativlik-** Beynəlxalq əmtəə bazarları əmtəə istehsalçıları ilə əmtəə istehlakçıları arasında əlaqələrin qurulmasını təmin edir. Bu mənada istehsalçı müştərisini daha asan tapa bilir və istehlakçı rahat şəkildə tələbatını ödəyir.

**3. Tənzimləmə-** Əmtəələrin istehsalçılarının müxtəlif olması və onların öz məhsullarına müxtəlif qiymətlər təyin etməsi istisna hal hesab olunmur. Lakin beynəlxalq əmtəə bazarları tələb və təklif intikatorlarını "hərəkətə" gətirərək mövcud qiymət fərqliliklərini müəyyən mənada yaxınlaşdırmaqla bazarda mövcud olan qiymət amplidudasını kiçildir.

**4. Keyfiyyət təyin etmə -** əmtəə istehsalçıları məhsullarının keyfiyyətini yüksəltmədiyi halda bazardan sıxışdırılıb çıxarılırlar. Hal-hazırda keyfiyyət təyin etmə istiqamətində beynəlxalq arenada bir çox qəlibləşmiş standartlar mövcuddur. Bu standartlara cavab verə bilməyən əmtəə istehsalçıları bazardan sıxışdırılıb çıxarırlırlar.Bu və bənzəri digər funkisyaları analiz etməklə beynəlxalq əmtəə bazarlarının mahiyyətini qavramaq mümkündür. Beynəlxalq bazarlar ölkələrin öz inzibati sərhədləri xaricinə çıxması ilə meydana gəlir. Bu mənada beynəlxalq əmtəə bazarlarına çıxış formaları tətqiq edilməli olan problemdir. Şirkətlərin beynəlxalq bazarlara çıxması forması onun daxili bazardakı mövqeyindəndə asılıdır. Yəni şirkətin istehsal həcmi, rəqabətqabiliyətlik səviyyəsi, və s. həmin şirkətin beynəlxalq bazara çıxış formasını təyin edir. Aşağı satış həcminə malik ölkələr xarici bazara bir başa çıxmaqdan daha çox lisans vermə yolu ilə milli bazarların sərhəddini aşaraq beynəlxalq bazara daxil ola bilirlər (Mehmet R.G. 2020: s.20). Əmtəə istehsalçıları beynəlxalq əmtəə bazarlarına daxil olarkən ilk növbədə həmin bazarı öyrənməli, beynəlxalq bazarlarda

olan keyfiyyət və tələb səviyyəsi, rəqabətdə olan ölkələr və s. ilə bağlı məlumatların əldə edilməsi vacibdir. Beynəlxalq əmtəə bazarlarında baş verən qlobal böhranların səbəbləri hər zaman iqtisadi faktorlar olmur. Müəyyən hallarda bu böhranlara ölkələr arasında baş verən siyasi münaqişələr və təbii fəlakətlər də səbəb ola bilir. Bu zaman beynəlxalq bazarda mövqeyi itirməmək üçün bazara çıxarılan əmtəələrin tələb, keyfiyyət və maliyyət baxımından təhlil edilməsi vacibdir. 2008-ci ildəki dünya böhranından çox ölkələr əziyyət çəkmiş olsa da, bəzən bu kimi riskləri lehinə çevirməkdə mümkündür. ABŞ və AB ölkələri bu böhran zamanı dərin sarsıntı keçirsələr də, Çin və Hindistanda fəaliyyət göstərən ABŞ və AB istehsal müəssisələri bu böhrandan mənfəətli şəkildə çıxa bilmişdilər (Işın Ç. 2013: s.39).

Beynəlxalq əmtəə bazarlarının müasir vəziyyətinə nəzər salmaqla müvafiq sahədə olan problemlərin mahiyyətini anlaya və mümkün həll yolları tapmaq olar. Bu mənada beynəlxalq miqyasda ticarət edilən əmtəələrin beynəlxalq bazardakı vəziyyətini tətqiq etmək daha məqbul hesab edilir. Covid 19 pandemiyası ilə bərabər bütün əmtəə növləri üzrə qiymətlər və satışlar kəskin azalsa da, 2020-ci ilin 3-cü dövrü ilə birlikdə vəziyyət nisbətən sabitləşmişdir. Xam neftin qiyməti 2020-ci ilin aprel ayındakı kəskin enmədən sonra ilin sonlarına doğru 2 dəfəyə qədər artmışdır (Word Bank-Commodity Markets Outlook/ October 2020 p.1).

Bununla belə neft qiymətləri pandemiyadan öncəki səviyyədən xeyli aşağıdır, lakin növbəti illərdə neft qiymətlərinin sürətlə artacağı gözlənilir.

Digər tərəfdən Çinin pandemiyadan nisbətən tez qurtulması ilə birlikdə metal qiymətləri əvvəlki vəziyyətini tez bərpa etdi. Ümumi halda beynəlxalq əmtəə bazarlarının vəziyyətini təhlil edə bilmək üçün ayrı-ayrı əmtəələr üzrə müasir trendi izləmək daha münasibdir. Bu məqsədlə Dünya Bankının müvafiq dövrlər üçün tərtib etdiyi hesabatları analiz etmək olar. Aşağıdakı qrafikdə 2019 və 2020-ci ilin müəyyən ayları üzrə enerji, kənd təsərrüfatı və metal əmtəələrinə əsaslanan əmtəə qiymətləri indeksi verilmişdir.

**Qrafik 3: Pandemiya dövründə beynəlxalq əmtəə bazarında əmtəə qiymətləri indeksi.**




**Mənbə:** Qrafik Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://openknowledge.worldbank.org/handle/10986/34621 , Commodity Markets Outlook, October 2020

Qrafikin daha anlaşıqlı olması üçün qeyd etmək lazımdır ki, **Əmtəə Qiymətləri İndeksi** müəyyən tip oxşar əmtəələrin daxil olduğu səbəti əks etdirir. Bu zaman oxşar əmtəələrin qiymətlərinin çəkili ortasından istifadə edilir. Məsələn kənd təsərrüfatı üzrə əmtəə qiymətləri indeksi taxıl, buğda, qarğıdalı, ət və ət məhsulları, süd və süd məhsulları, və s. kimi əmtəələrin qiymətlərinin çəkili orta həddinə əsasən müəyyən edilir.

Bu qiymət indeksləri ölkədəki infilasiyanın səviyyəsini, iqtisadi inkişafı, sosial rifahın həddini və s. müəyyən etmək üçün istifadə edilən əsas alətlərdən hesab edilir. Lakin müxtəlif ölkələrdə bu indekslərdə olan artımlar müxtəlif formada izah edilir. Kasıb ölkələrdə müvafiq məhsullar üzrə istehsalın az olması, ərzaq çatışmazlığı və s. əmtəə qiymətləri indeksinin yüksək olmasına gətirib çıxarır. Eyni zamanda İEÖ-lərdə isə buna səbəb kimi əhalinin artan gəlirlərini və artan tələbatı göstərə bilərik. Qrafikdən də göründüyü kimi pandemiya ilə birlikdə hər üç əmtəə kateqoriyasında(Enerji, Kənd təsərrüfatı, Metal) qiymətlər aşağı enmişdir. Lakin kənd təsərrüfatı məhsulları zəruri istehlak məhsulları hesab olunduğu üçün beynəlxalq

bazarlarda bu əmtəələrin qiymətləri qısa müddətdə əvvəlki həddə çatmışdır. Metal və enerji əmtəələri üzrə əmtəə qiymətləri indeksi isə zəruriyyətin az olması hesabına əvvəlki həddə çatmamışdır. Kənd təsərrüfatı və xüsusəndə enerji yönümlü əmtəələr arasında olan bu kəskin fərq dəyişimi ölkələrin uzunmüddətli qapanmalara getməsi ilə əlaqədardır.

Enerji istehlakının əsas pay sahibi olduğu sənaye sahələri bu müddət ərzində bağlandığı üçün əmtəə bazarlarında enerji qiymətləri kəskin şəkildə aşağı düşmüşdür. Enerji üzrə daha aydın nəticə əldə edə bilmək üçün neft istehlakı və istehsalının dəyişim tendensiyasını izləmək lazımdır. Bu məqsədlə yenə də Dünya Bankının müvafiq dövr üzrə neft istehsalı və neft istehlakı ilə bağlı statistik göstəricilərindən istifadə edə bilərik.

**Qrafik 4: 2018-2020-ci illər üzrə neft istehsal və istehlakı**




**Mənbə:** Qrafik Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://openknowledge.worldbank.org/handle/10986/34621 , Commodity Markets Outlook, October 2020

Qrafikdən də göründüyü kimi hər dollar üzrə neft istehsal və istehlakında 2019-cu ilin dekabrına qədər nisbi sabitlik olmuşdur. Sonrakı müddətdə yuxardada qeyd

etdiyimiz kimi neft istehlak edən sənaye müəssisələrinin bağlanması, nəqliyyatda neft və neft məhsulları sərfiyyatının azalması ümumilikdə neft istehlakını aşağı salmışdır. Bu zaman beynəlxalq neft bazarlarında neftə olan tələb təklifin xeyli altına düşmüşdür. Pandemiya ilə bərabər ortaya çıxan bu tendensiya sübut edir ki, təbii ehtiyyatlardan asılı olan iqtisadiyyatlar dünya miqyasında mövqeylərini hər hansı bir böhran olduqda itirə bilirlər. Neft və digər təbii ehtiyyatlar ölkə iqtisadiyyatı üçün nə qədər faydalı gəlir mənbəyi hesab olunsa da, uzunmüddətli dövrdə nəzər saldıqda xüsusəndə gələcək dünyanın reallıqları üçün riskli gəlir mənbələri hesab edilirlər. Yenə qrafikə qayıtsaq, 2020-ci ilin son rübü ilə birlikdə neft istehlakının artığını görə bilərik, lakin öncəsində yaşanan böhran hesabına artıq ölkələrin neft istehsalından çəkinməsi və istehsal edilən neftdən gələn gəlirin əvvəlki dövrlərə nisbətən az olması beynəlxalq neft bazarlarında neftin əvvəlki halına qayıtması prosesini ləngitməkdədir. Bununla belə pandemiyanın öz təsirini yavaş-yavaş itirməsi halında növbəti illərdən etibarən enerji sektorunda, xüsusən neft bazarlarında sürətli artım da gözlənilləndir.Xüsusilə nəqliyyat sektorunda hər yerdə yanacaq doldurma məntəqələrinin mövcud olması, neft və neft məhsullarına əlçatanlığın asan olması neft bazarlarında neftə olan tələbatı artıran faktorlardandır (Hüseyn N. B. 2019: s.46). Bu üstünlüyü hesabına beynəlxalq neft bazarları digər enerji bazarlarına nisbətən sürətli bərpa olunacaq. Beynəlxalq əmtəə bazarlarının ən çox mübadilə edilən əmtəə kateqoriyaları sırasında kənd təsərrüfatı məhsullarının xüsusi payı var.Beynəlxalq əmtəə bazarlarında kənd təsərüüfatı məhsullarının mövcud trendini izləmək üçün BMT-nin Kən Təsərrüfatı Təşkilatı-FAO-nun güncəl statistik hesabatlarını nəzərdən keçirə bilərik. XXI əsrin başlanğıcı etibarilə kənt təsərrüfatı malları beynəlxalq ticarətdə öz payını əvvəlki dövlərə nisbətən 2 dəfədən çox artırmışdır. Kənd təsərrüfatı məhsullarının 1995-ci ildə 680 milayrd ABŞ dolları olan ticari dəyəri, 2018-ci ildə 1.5 trilyon ABŞ dollarına qədər yüksəlmişdir. Müvaffiq dövr ərzində kənd təsərrüfatı məhsullarının ümumi beynəlxalq ticarətdəki payı 7.5% olmuşdur (FAO 2020: p.3). Kənd təsərrüfatı məhsulları üzrə FAO-nun dövrü qiymət indeksinə və ayrı-ayrılıqda ərzaq qiymətlərinin dəyişməsinə qrafik olaraq nəzər salaq.

**Qrafik 5: 2010-2020-ci illər üzrə ərzaq məhsulları üzrə qiymət indeksi**




**Mənbə:** Qrafik FAO-nun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. http://www.fao.org/policy-support/tools-and-publications/resources-details/en/c/1309575/ , The State of Agricultural Commodity Markets 2020

BMT-nin Kənd Təsərrüfatı Təşkilatının dövrü olaraq nəşr etdiyi **Ərzaq Qiymət İndeksi** müvafiq dövr üzrə ərzaq qiymətlərində baş verən dəyişiklikləri əks etdirir. Bu indeks də ərzaq qiymətlərinin beynəlxalq səviyyədə qiymətlərinin çəkili ortası ilə müəyyən edilir. Qrafik 5-dən də göründüyü kimi ərzaq qiymətləri beynəlxalq bazarlarda 2010-2012-ci illədə yüksək olmuşdur. Daha sonra beynəlxalq ərzaq bazarında qiymətlər aşağı düşmüş və nisbi sabitlik yaranmışdır. Müxtəlif illərdə ərzaq qiymətlərində olan bu dəyişikliklərin bir neçə səbəbi vardır. Beləki, ərzaq qiymətləri geopolitik dəyişikliklər, maliyyə böhranları, kəskin iqlim dəyişiklikləri və təbii fəlakətlər, o cümlədən, son dövrlərdə ortaya çıxan pandemiyadan öz təsirini alır.

2020-ci ilin noyabr ayı etibarilə ərzaq qiymətlərində müəyyən qədər artımlar müşahidə edilmişdir. Lakin ərzaq qiymətləri  digər əmtəələrə nisbətən daha sabitdir. Səbəb isə ərzaq mallarına olan tələbin qeyri-elastik olmasıdır. Bununla belə qlobal miqyasda ekonomik krizlər ərzaq çatışmazlığı problemi yaradır ki, bu zaman qiymətlərin sürətlə yüksəlməsi qaçınılmazdır. Bu prosesə isə daha çox 3-cü dünya ölkələrində rast gəlinir. Həm ekonomik krizlər, həm də ətraf mühit problemlərinin

artması Afrika, Asiyanın kasıb ölkələri, Latın Amerikası üçün ərzaq çatışmazlığı və ərzaq qiymətlərindəki artımı qaçınılmaz edir. Beləki 2018-ci ildə ərzaqla təminatda güvənsizlik yaşayan 96 milyondan artıq insan valyutaların dəyər itirdiyi, işsizliyin çox olduğu kasıb ölkələrdə yaşayırdı. Bu 96 milyon insanın cəmi 33 ölkədə yaşadığı məlumdur. Həmin 33 ölkədən 27-sində 2015-2017-ci illərdə adambaşına düşən ÜDM sürətlə azalmaqda idi (FAO 2019: p. 20).

Dünya Bankının **Metal və Mineral Qiymətlər İndeksi** 2020- ci ilin 3-cü rübündə 19.5% artaraq ilin əvvəlindəki baş vermiş "itkini" aradan qaldırdı (World Bank 2020: p.31). Əsas metallar və dəmir qiymətlərində 2017-2020-ci illər üzrə dəyişim tempinə nəzər salaq.

**Qrafik 6: 2017-2020-ci illər əsas metallar-dəmir qiymətlər indeksi**




**Mənbə:** Qrafik Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://openknowledge.worldbank.org/handle/10986/34621 , Commodity Markets Outlook, October 2020

Digər əsas metallardan fərqli olaraq pandemiya dövründə dəmir qiymətlərindəki artımın səbəbi dəmir istehlakındakı Çin amilidir. Çinin pandemiyanın təsirindən sürətli çıxması nəticəsində dəmirə olan tələb yenidən artdı və beynəlxalq metal bazarında

dəmirin qiymətləri yüksəlməyə başladı. Beynəlxalq metal bazarındakı ümumi vəziyyəti analiz edərkən ayrı-ayrı ölkələrin xüsusi payını nəzərə almaq lazımdır. Metal bazarında son dövrlərdə müşahidə edilən mənfi tendensiyaya baxmayaraq dəmir istehlakında Çin faktoru vəziyyəti dəyişdirmişdir. Bu problem bütün əmtəə ticarətində öz təsirini göstərməkdədir. Beynəlxalq əmtəə bazarında olan müasir trendləri analiz etməklə Covid 19 pandemiyasının ümumilikdə mənfi təsirini müşahidə etdik. Xüsusən ölkələrin qapanma siyasəti, ölkələr arası əlaqələrin kəsilməsi enerji sektorunda kəskin zəifləmə ilə müşaiyət olundu. Beləki 2020-ci ilin ilk rübündə neft qiymətləri mənfi qiymətlərə qədər düşdü (https://www.weforum.org/agenda/2020/04/oil-barrel-prices-economic-supply-demand-coronavirus-covid19-united-states/). Buna səbəb isə neft istehlakının kəskin düşməsi və istehsal olunan neft ehtiyyatlarının anbarlarda qalması olmuşdur.

Beynəlxalq əmtəə bazarlarının inkişaf meyilləri müvafiq bazarlarda tələb və təklif əsasında müxtəlif əmtəə qruplarında baş vermiş qiymət dəyişikliklərinə əsaslanır. Əmtəə bazarlarında mövcud olan tələb bazarların böyüməsi nəticəsində artmaqdadır. Eyni ilə artan tələbi qarşılamaq üçün təklifi də artıran ölkələr və şirkətlər əmtəələrin qiymətlərini də tənzimləyirlər. Beynəlxalq əmtəə bazarlarının müasir inkişaf istiqamətini bu bazarlarda olan tələblə yanaşı bazarın iştitakçıları, ətraf-mühit problemləri, iqtisadi-siyasi konyuktura və s. təyin edir. Əmtəə bazarlarının müasir inkişaf istiqamətlərinin formalaşmasında ideoloji qeyri-müəyyənliklə texnoloji və cəmiyyətin inkişafının təsiri böyükdür. Texnologiyanın inkişaf etməsi yeni-yeni əmtəələrə tələb yaratsa da, bəzi əmtəələrə olan tələbatı tamamilə aradan qaldırır. Məsələn keçən əsrin sonlarına qədər kommunikasiya vasitəsi kimi poçt göndərişlərindən, orta əsrlərdə isə çapar və göyərçinlərdən istifadə edilsə də, müasir dövrdə bu məqsədlə email servisləri, sosial şəbəklər, qlobal və lokal informasiya kanallarından istifadə edilir. Bu inkişafın gələcək səviyyəsi yeni əmtəələrin yaranmasına şərait yaratmaqla müasir aktual əmtəələrə olan tələbatı da tamamilə yox edə bilər. Qlobal istiləşmə sənaye və nəqliyyatda mineral yanacaqlara tələbin günü-gündən azalmasına səbəb olur. Artıq daha təmiz enerji ehtiyyatlarına və bu enerjini əldə

etmək üçün istifadə edilən avadanlıqlara tələb artır. Hal-hazırda ictimai nəqliyyatda sürücü və nəqliyyat vasitəsi kombinasiyası gələcəkdə süni intelektlə idarə edilən sürücüsüz nəqliyyat vasitəsi formasını alacaq.

## 2.2. Beynəlxalq əmtəə bazarlarının strukturu

Beynəlxalq bazarlar əmtəə və xidmətlərin beynəlxalq mübadilə məkanıdır. Bu bazarlarda mübadilə obyekti olan əmtəə və xidmətlərin çeşidliliyi onun strukturnu müəyyən edir. Bu mənada "Beynəlxalq Maliyyə Bazarları", "Beynəlxalq Əmtəə Və Xidmətlər Bazarı", "Beynəlxalq Enerji Bazarı", "Beynəlxalq Əmək Bazarı" və s. beynəlxalq bazarın struktur vahidləri hesab edilir. Oxşar mənada beynəlxalq əmtəə bazarları da mübadilə edilən əmtəələrin çeşidliliyi baxımından struktur vahidlərə ayrılır. Beynəlxalq əmtəə bazarlarının struktur vahidlərindən biri **"Beynəlxalq Ərzaq Bazarı"-**dır. Beynəlxalq ərzaq bazarına nəzər saldıqda 2 əsas tendensiya müşahidə edilir:

- Qlobal miqyasda beynəlxalq ərzaq bazarının həcmi daima artmaqdadır. Bunun əsas səbəbi dünya əhalisinin və müxtəlif əhali qruplarının gəlirlərinin artmasıdır. Hər iki halda ərzaq bazarında tələbin artması bu bazarın böyüməsinə səbə olur. Eyni tendensiyanın nəticəsi beynəlxalq ərzaq bazarında mövcud olan qiymətlərin yüksəlməsinə də səbəb olur;
- Ərzaq bazarlarında müşahidə edilən digər bir tendensiya isə bu bazarların beynəlxalq əmtəə bazarları tərkibində həcminin azalmasıdır.

Beynəlxalq Ərzaq Bazarlarında olan dəyişikliklərin əsas səbəblərindən biri əhalinin gəlir və tələbatlarının dəyişməsidir. Gəlirlərin artması tələbin artmasına və bazarların böyüməsinə səbəb olur. Lakin bu qanunauyğunluq bəzən pozula bilir. Məsələn "Normal və Lüks Əmtəllər" gəlirlərin artması ilə daha çox tələblə üzləşir. Lakin sonrakı mərhələd qiymətlərin artması "lüks" əmtəələrə olan tələbi azalda bilir. Bu qanunauyğunluğun əksi isə adətən **"Giffen Əmtəələri"**-də müşahidə edilir. Giffen əmtəələri standart istehlakçı və iqtisadi nəzəriyyələrə uyğun olmayan və aşağı dəyərli,

qeyr-lüks əmtəllərdir. Beynəlxalq Ərzaq Bazarında qiymətlər artdıqda tələb azaldığı halda "Giffen" əmtəələrinə və ya ərza məhsullarına olan tələb artmaqdadır. Bu onların aşağı qiymətləri ilə əlaqədardır (https://www.investopedia.com/terms/g/giffen-good.asp). Giffen əmtəələri ilə normal əmtəələr arasındakı əsas fərq əhali qruplarının gəlirlərinin artması ilə bu məhsullara olan tələbin azalması və əks olaraq gəlirlərin azalması ilə Giffen əmtəllərə tələbin artmasıdır.

Beynəlxalq Ərzaq Bazarlarının əmtəə bazarlarının tərkibində həcminin azalmasının əsas səbəblərindən biri ərzaq məhsulları üzrə beynəlxalq ticarətin qeyri-səmərəliliyidir. ETT-nin təsiri ilə ölkələr ayrı-ayrılıqda öz daxili tələbatlarını ödəyə biləcəkləri ərzaq məhsullarını istehsal etdikləri üçün və ərzaq məhsullarının istehlak müddətinin qısa olması onun daşınma zamanı məhv olması riskinin mövcudluğu üçün beynəlxalq ərzaq ticarəti ölkələr üçün qeyri-səmərəli hesab edilir. Artıq əksər ölkələr öz daxili tələbatlarının çox böyük hissəsini daxili istehsal hesabına qarşılaya bilirlər. Ölkələri bu istiqamətdə hərəkət etməyə sövq edən bir səbəb əhalinin gündəlik tələbatını ödəyən ərzaq məhsullarının əldə edilməsində dünya bazarından asılı olmamaq və baş verən qlobal iqtisadi böhranlara və təbii fəlakətlərə adekvat cavab verə bilməkdir. 2007 və 2011-ci illərdə baş verən qlobal böhranlar qlobal ərzaq bazarında bir neçə əsas tendensiyanın yaranmasına səbəb oldu (Grzegorz D., Anna B. 2016: p.6).

- ✓ İlk növbədə kənd təsərrüfatı məhsullarının istehsalı artdı;
- ✓ Ərzaq məhsullarında xaricdən asılı ölkələr ciddi qiymət şokları ilə qarşılaşdılar;
- ✓ Heyvandarlıq sahəsinə məxsus məhsulların qiyməti digər kənd təsərüüfatı məhsullarına nisbətən zəif artırdı;
- ✓ Ölkələr kənd təsərrüfatı üzrə yeni lahiyyələr hazırlamğa başladı;
- ✓ Müvafiq sahədə investisyaların həcmi və "Yaşıl Zona" lahiyyələri artmağa başladı və s.

Kənd təsərrüfatındakı artım sürətli olsa da, qlobal ərzaq bazarında bu artım süüərti eyni qədər olmurdu. Bunu bəzi səbəbləri var idi:

1. Ərzaq qiymətlərinin qlobal bazardan daxili bazara inteqrasiyası nisbətən yavaş baş verirdi;

2. 2008-2011-ci il böhranları qlobal ərzaq bazarına olan inamı qırdığı üçün sonrakı dövrdə daxili kənd təsərrüfatlarında olan artımı beynəlxalq ərzaq bazarına istiqamətləndirmək daha çətin idi;

3. Böhranlardan öncəki müddətdə qlobal ərzaq idxalı qlobal ərzaq istehsalından çox idi, sonrakı müddətdə isə əks proses müşahidə edilir;

4. İstehsal edilən ərzaq məhsulları xarici bazara çıxarılmadan daxili bazarda reallaşdırılırdı;

Beynəlxalq əmtəə bazarının digər bir struktur vahidi **"Beynəlxalq Xammal Bazarıdır".** Bu bazarlar beynəlxalq bazarların bir hissəsi olmaqla yanaşı beynəlxalq siyasətin formalaşmasına da ciddi təsir etməkdədir. Tarix boyu xammal ehtiyyatları ilə zəngin olan ölkələr üzərində hakimiyyətlə bağlı gedən siyasətlərə müasir dövrdə müvafiq məhsulların sosisal-iqtisadi inkişafa təsirləri, xammalların istifadəsi, ətraf-mühitə təsiri və bu istiqamətdə vergi mexanizminin yaradılması məsələləri aktuallığını artırmışdır. Beynəlxalq xammal bazarında 2019-cu ildə 8.6%-lik bir azalma müşahidə olundu(https://www.globenewswire.com/newsrelease/2020/05/08/2030243/0/en/Global-Commodity-Forecasts-for-Industrial-Raw-Materials-Adjusted-Forecasts-AmidCOVID-19-Outbreak.html). Xammal bazarının zəifləməsinin səbəbi əsas aparıcı ticarət obyektləri hesab edilən xam neftin və əsas metalın satışında olan azalma olmuşdur. Bu azalmanın əsas səbəbi isə qlobal miqyasda müşahidə edilən qeyri-müəyyənlik və ABŞ-Çin ticarət müharibəsi olmuşdur. Ölkələr arasındakı ticarət müharibəsi sənaye fəaliyyətinə və mal ticarətinə mənfi təsir etdi. Digər tərəfdən Avropada B.Britaniyanın başlatdığı "Brexit" siyasətinin investorları tərəddüdə buraxması müvafiq əmtəələr üzrə ticarətin azalmasına səbəb oldu. Müvafiq azalmanın 2021-ci ilə qədər davam edəcəyi proqnazlaşdırılır. Bu dəfə beynəlxalq xammal bazarına, eləcədə bütün əmtəələr üzrə ticarətə mənfi təsir edən yeni problem kimi pandemiya dövrünün təsirləridə özünü ciddi mənada göstərəcək. Müvafiq mənada 2020-ci ildə xammal bazarının alt seqmenti hesab edilən metal

bazarında da kəskin düşüş müşahidə edilirdi. Əsas metallar indeksi 10.3% azalmışdı. Metallar indeksində ən böyük çəkiyə sahibi aliminum hesab edilir. 2019-cu ildə aliminum qiymətlərinin 15.2% azaldığı söyləməklə vəziyyətin qlobal miqyasda nə qədər ağırlaşdığını deyə bilərik.

Beynəlxalq Əmtəə Bazarında xüsusi çəkiyə malik digər bir seqment isə **Qiymətli Metallar Bazarıdır**. Qiymətli metallar xammal bazarlarına aid olsa da, bazarın böyüklüyü və qiymətlərin yüksək həddi bu bazarın əmtəə bazarları arasında müstəqil və yüksək çəkili bazara çevrilməsinə imkan vermişdir. Qiymətli metallar, xüsusəndə qızıl ölkələr üçün həm ehtiyyat "valyuta" rolunu oynayır, həm də xüsusi istehlak vasitəsi kimi böyük tələbata məruz qalır. Tarix böyü ödəniş vasitəsi kimi istifadə edilən qiymətli metallar(əsasən qızıl və gümüş), hal-hazırda həm ehtiyyat xarakteri daşıyır, həm də nadir tapıldıqları üçün hər zaman tələbdən daha az olur. İstənilən halda qlobal miqyasda baş verən böhranın qiymətli metallar bazarına təsiri olsa da, bu mənfi təsir digər əmtəələr üzrə ticarətdə olduğundan xeyli zəif olmuşdur.

2020-ci ilin 3-cü rübü ilə birlikdə qiymətli metalların qiyməti sürətlə artmağa başlamışdır. Bu artım qızıl və gümüş qiymətlərində daha çox müşahidə edilirdi. 2020-ci ilin 3-cü rübündə qızıl qiymətləri 12% artdı(World Bank 2020: p.33). Qızıl qiymətində müşahidə edilən artımın 2 əsas səbəbi var.

1. Qlobal qeyri-müəyyənlilik zəmnində meydana gələn böhran ilə ölkələrin və ayrılıqda fərdlərin qızıl ehtiyyatlarına marağının artması;
2. Pandemiya ilə birlikdə istehsalın zəiflədiyi üçün qızıl başda olmaqla qiymətli metalların təklifinin tələblə müqayisədə xeyli az olması.

Beynəlxalq əmtəə bazarlarında **"Enerji Daşıyıcılarının"** mövqeyidə xüsusilə qeyd edilməlidir. Enerji daşıyıcıları müvafiq bazarda neft, təbii qaz, kömür, hidroenerji, atom və alternativ enerji resrursları ilə təmsil olunurlar. Beynəlxalq enerji bazarı həm iqtisadi, həm də siyasi arenada xüsusi mövqeyə malikdir. Bunun əsas səbəbi beynəlxalq arenada şəhərləşmə, rəqəmsallaşma və iqtisadi artım prosesinin sürətlənməsidir. Hal-hazırda bu bazarda müəyyən tendensiyalar müşahidə olunmaqdadır(KPMG 2019: s.3).

- Dünya miqyasında texnoloji inkişaf təmiz-alternativ enerji təklifini artırsa da hələ də ənənvi enerji istehsal və istehlakının enerji bazarındakı mövqeyi öz yerini qorumaqdadır;
- Beynəlxalq Enerji Təşkilatının hesabatlarına görə XXI əsrin ilk illərinə əsasən enerji tələbi daha çox sənayecə inkişaf etmiş Qərb ölkələri və ABŞ-da daha çoxdur. Bu mənada 3-cü yerdə isə Asiya regionu gəlir. Lakin növbəti 20 il ərzində proqnozlara görə bu tendensiya dəyişəcək və ilk yeri Çin başda olmaqla Asiya regionu tutacaq. Ümumi nisbət isə İEÖ-lərdən İEOÖ-lərə doğru dəyişəcək;
- **Qaya Qazının** miqdarı enerji sektorunda sürətlə payını artırmaqdadır. Qaya qazı yeraltı şist suxurlarına sıxışmış şəkildə mövcud olan bir növ təbii qazdır. Daha çox ABŞ-da təsadüf edilir (https://www.powerenerji.com/kaya-gazi-nedir-nasil-bulunur-turkiye-kaya-gazi-nerelerde-bulunur-haritasi.html);
- Dünyada elektirik ehtiyacı enerji ehtiyacından bir neçə dəfə çoxdur. Səbəb kimi isə günü-gündən artan rəqəmsallaşma götürülür;
- Elektirik istifadəsi artmasına baxmayaraq hələ də xüsusən uzun yol nəqliyyat sahəsində neft-qaz qaynaqlı enerji resurslarının payı çoxdur;
- Pandemiya dövrünün enerji bazarına da təsiri mənfi oldu. 2020-ci ilin ilk dövrü üzrə neftə olan tələbin kəskin azalması qiymətlərin kəskin düşməsinə, enerji bazarına ixraca əsaslanan ölkələrin iqtisadi tənəzzülünə gətirib çıxartdı.

Beynəlxalq enerji bazarında müşahidə edilən bütün hadisələr qlobal miqyasda həm iqtisadi, həm də siyasi təsirlərini göstərir. Bu mənada enerji resurları üzərində ciddi siyasi və hərbi mübarizələr aparılır. Neft və təbii qaz bu bazarların əsas özəkləri hesab olunurlar. Beynəlxalq neft bazarlarına əsasən OPEC ölkələri, ABŞ, Rusiya və İran körfəzi ölkələri başçılıq edir.

Aşağdakı diaqramda beynəlxalq enerji bazarlarında təmsil edilən əsas enerji resurslarının payı faizlə göstərilmişdir.

**Diaqram 1: 2018-ci il üzrə dünya enerji istehlakında enerji resurslarının payı**




**Mənbə:** Diaqram Beynəlxalq Enerji Agentliyinin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://www.iea.org/data-and-statistics/charts/global-share-of-total-energy-supply-by-source-2018 , Global share of total energy supply by source, 2018

Diaqramdanda göründüyü kimi neft resurslarının payı(34%) hələdə ümumi enerji bazarında öz mövqeyini saxlamaqdadır. İinkişaf Etmiş Ölkələrdə atom, hidroenerji və yenilənəbilən enerji resurslarının istehlakı davamlı artsa da, payları ümumi bazarda hələdə azdır. Müvafiq olaraq 4%, 7% və 4% olmaqla əsasən yüksək texnoloji səviyyəyə malik ölkələrdə istifadə edilirlər. Lakin bu rəqəmlərin növbəti illərdə xüsusən alternativ enerji resursları xeyrinə ciddi şəkildə dəyişəcək. Ölkələrin iqtisadi inkişafı daha çox enerji tələbi yaratması və ətraf-mühitin təhlükəsizliyini təmin etmə zərurəti günəş və külək enerji istehlakının payı sürətlə artacaq.

**Beynəlxalq Texnologiya Bazarlarını** da əmtəə bazarlarının struktur vahidi kimi qəbul edə bilərik. Bu zaman əsas məsələ satış obyektinin əmtəə xarakterinin mövcudluğudur. Yəni əmtəə xarakterli bütün məhsulların mübadiləsinə əsaslanan mexanizm beynəlxalq əmtəə bazarının strukturunu təşkil edir. Eyni mənada texnoloji avadanlıqların istehsalı və satışı beynəlxalq əmtəə bazarlarının formalaşmasına istiqamətlənmişdir.

Beynəlxalq Əmtəə Bazarlarının strukturu bu bazarlarda mübadilə edilən əmtəələrin növlərinə əsasən müəyyən edilməkdədir. Bununla belə müvafiq bazarlarda

məhsulların haqının ödənilməsi müddəti baxımından bazarlar 2 əsas hissəyə ayrılır (Caner E 2017: s.461).

1. Spot bazarları;
2. Müddətli bazarlar.

Spot bazarlarda əmtəənin haqqı mübadilə prosesində  məhsul təhvil alınarkən ödənilir. Bu zaman daşınma müddətini nəzərə aldıqda müəyyən allarda malların çatdırılması ödənişdən qısa müddət sonra ola bilər. Müddətli bazarlarda isə vəziyyət daha fərqlidir. Bu zaman məhsulun dəyəri gələcək dövrə əsasən ödənilir və məhsulun çatıdırlması növbəti dövrlərdə həyata keçirilir. Neft-qaz resurslarının satışı əsasən müddətli bazarlarda həyata keçirilir. Bu zaman kontagentlər arasında  daha çox Fyuçers və Forvard kontraktları bağlanır.

### 2.3. Beynəlxalq əmtəə bazarlarının qloballaşmasının səbəbləri

Beynəlxalq əmtəə ticarəti əsasən zəruri əmtəələrin ticarətinə əsaslandığı üçün müvafiq bazarların qloballaşması prosesi müşahidə olunmaqdadır. Qlobal fəaliyyət göstərməkdə uğursuz ölkə və şirkətlərin beynəlxalq əmtəə bazarlarında yeri yoxdur. İlk növbədədə qeyd edək ki, qloballaşma əmtəə bazarları ilə maliyyə bazarlarını bir-birinə sıx bağlamaqdadır (Mehmet Y., Muhammet B.Ş Yasin K. 2014: s.109). Əmtəə bazarlarının böyüməsi, satışların müddətli müqavilələr ilə həyata keçirilməsi və bu uzunmüddətli satışlar zamanı tərəflərin riski sığortalya bilməsi üçün maliyyə bazarının alətlərindən istifadə etməsi artıq normal vəziyyət almışdır. Əmtəə bazarlarının qloballaşması bütün beynəlxalq bazarlarda müşahidə edilən müasir inkişaf tendensiyasıdır. Bu proses keçən əsrin sonları etibarilə sürətlənməkdədir. Bəs beynəlxalq əmtəə bazarlarının qloballaşması səbəbləri nələrdir?  Bu səbəbləri geniş spektrdə analiz edək. Qeyd etmək lazımdır ki, beynəlxalq istehsalın qloballaşması ilə beynəlxalq əmtəə bazarlarının qloballaşmasına təsir edən səbəblərin ortaqlığı çoxdur. Bu əmtəə ticarətinin əmtəə istehsalının nəticəsi olmasından qaynaqlanır. İlk növbədə **“Beynəlxalq Təşkilatlaarın”**  fəaliyyəti əmtəə bazararlarının qloballaşmasına şərait yaradır. ÜTT,

UNCTAD, OPEC, UNİDO kimi təşkilatlar ticarət münasibətlərini tənzimləməklə, tərəflər arasında yaranan iqtisadi problemləri nizamlamaqla və ehtiyac olduğu hallarda yatırıma dəstək və informasiya yardımı etməklə əmtəə bazarlarının genişlənməsinə və qlobal xarakterinin artmasına şərait yaradır. Ölkələr də artıq bu təşkilatlara qoşulmadan, onların müəyyən etdiyi ticarət kodekslərinə əməl etmədən ticari münasibətlərin sığortalanmasının mümkünsüzlüyünü dərk etməkdədir. Məsələn ÜTT dünya üzrə ticarət rejminin tam liberallaşması ilə ölkələr arasında tarif və qeyri-tarif alətlərinin tətbiqinin ləğv edilməsinə və ticarətin həcminin və arealının genişlənməsinə imkan yaratmağa çalışır. OPEC də təşkilata daxil olan ölkələrin neft ticarəti zamanı münasibətlərini tənzimləmək, neft bazarlarının vəziyyətini yaxşılaşdırmaq, qiymətləri və neft hasilatını mövcud qlobal tendensiyalara uyğunlaşdırmaq istiqamətində fəaliyyət göstərməkdədir. Lakin son illər bu təşkilatların rolu müəyyən qədər zəifləməkdədir, buna səbəb isə artıq ölkələrin liberal rejimə güvənlərinin müəyyən qədər itirməsidir. Qlobal arenada qeyri-müəyyənlik tendensiyası əmtəə bazarları başda olmaqla bütün beynəlxalq bazarlarda qloballaşma tendensiyasını zəiflədən əsas amildir. Beynəlxalq əmtəə bazarlarının qloballaşması səbəblərindən biri də **kommunikasiya səviyyəsidir**. Texnologiyanın inkişafı davamında kommunikasiya və infrastrukturun inkişafına şərait yaradır. Kommunikasiyanın inkişafı ticarət prosesini asanlaşdırdığı və sürətləndirdiyi üçün əmtəə bazarları sürətlə qloballaşmaqdadır. Müasir dövrdə beynəlxalq arenada təmsil olunan heç bir ölkəni internet kommunikasiyasından istifadə etmədən fəaliyyət göstərməsini düşünmək mümkün deyil. Hətta hal-hazırda əmtəə ticarəti üzrə ən böyük şirkətlər online satış üzərinə qurulmuşdur. “Amazon” timsalında Jeff Bezosun dünyanın ən zənginləri siyahısında ilk sıralarda olması online ticarətin nə qədər sürətlə böyüməsinə nümunədir. Amazonun 2020-ci ilin 3-cü rübündə gəliri 96.1 milyard ABŞ dolları olmuşdur (https://venturebeat.com/2020/10/29/amazon-earnings-q3-2020/). İnternetin insanlarla əlçatanlığının sürətlənməsi ticarətin artıq internet vasitəsi ilə konkret sərhədləri və xərcləri aradan qaldıraraq artmasına imkan yaradır. Lakin onlayn ticarətin əmtəə ticarəti üçün faydaları ilə yanaşı riskləri də mövcuddur. Bu risk əsasən tərəflərin

dələduzluq edərək satışdan sonra malı çatdırmamaq və ya malın satış zamanı razılaşılan keyfiyyətə və həcmə uyğun olmamağıdır. Digər bir risk isə **"kiber təhlükəsizlik"** problemidir. Əmtəə bazarlarının qloballaşması bu bazarlarda fəaliyyət göstərən subyektlərin gəlirlərini artırdığı üçün qloballaşmaya müsbət yanaşan əsas ünsürlərdən biridə **"Transmilli Korporasiyalardır".** TMK-lar sekulyar sistemlər olduqları üçün milli-dini dəyərlər onlar üçün əhəmiyyət daşımır. Bu mənada onlar istənilən ölkə arasında münasibətlərin qurulması və ticarət rejminin bu şirkətlərin mənfəətlərinə uyğun olmasına çalışırlar. Beynəlxalq əmtəə bazarlarının qloballaşması səbəblərindən digər biri **"Beynəlxalq Marketinqin"** inkişafıdır. Qlobal əmtəə bazarlarında fəaliyyət göstərən şirkətlər ilk növbədə marketinq strategiyası qurmalıdırlar. Bazarlarda gündəngünə əmtəə çeşidlərinin həm də ümumi əmtəə həcminin artması şirkətlərin güclü marketinq strategiyası qurmasına gətirib çıxarır. Belə böyük bazarlarda öz məhsulunun daha "keyfiyyətli" olmasını göstərməyin yeganə yolu uğurlu reklam taktikalarına əsaslanan marketinq strategiyalarıdır. Əks təqdirdə çox variantlılıq şəraitində əmtəə bazarlarında uğurlu marketinq tətqiqatı aparmayan və regionun və bazarın mövcud şəraitinə və tələblərinə uyğun marketinq lahiyyəsi hazırlamayan şirkətlər uğur qazana bilmirlər. Beləliklə şirkətlərin beynəlxalq marketinq üzrə standartlaşdırılmış kompleks fəaliyyəti zəruri hal yaradır. **Standartlaşdırılmış marketinq kompleksi-** kompaniyanın bütün bazarlarında, əsasən, eyni məhsulun, reklamın, satış kanallarının və marketinq kompleksinin digər elementlərinin istifadəsi üzrə beynəlxalq marketinq strategiyasıdır (Osmova M. G. və digərləri, 2008: s.71). Şirkət beynəlxalq bazarda uğur qazanmaq üçün müxtəlif marketinq strategiyalarını öyrənir və onun əlverişli olanını tətbiq etməyə çalışır, nəticədə isə beynalxalq əmtəə bazarlarında həm əmtəə, həm də satıcı-alıcı çeşidliliyi yaranır ki, bu da müvafiq bazarların qloballaşmasını şərtləndirir. Beynəlxalq bazarlara çıxan zaman ölkələr əsasən müvafiq regiondakı alıcıların zövq və arzularını, oxşar sahələrdə fəaliyyət göstərən şirkətləri-onların durumunu(əsasən təchizatçılar), rəqib ölkələrin vəziyyətini və gəlirlərə təsir edə biləcək digər faktorları(məsələn: bazarların əhatə olunduğu ölkələrdə vergi mexanizmi

və azad ticarət siyasətinin mövcudluğu) öyrənməlidir. Beynəlxalq marketinq strategiyasının tərkib hissələrinən biri **reklam strategiyasıdır.** Reklam beynəlxalq bazar ara.dırmasından sonrakı mərhələdir. Beynəlxalq əmtəə bazarına məhsul çıxarmış ölkə uğurlu reklam strategiyası quraraq bazar payını artırmağa çalışır. Lakin bu elədə xərcsiz fəaliyyət deyil. Daha çox bazar payı əldə etməyə çalışan ölkələr bir-birinə rəqib reklam fəaliyyəti göstərirlər. Buna iqtisadi nəzəriyyədə **"oyun nəzəriyyələri"** deyirlər.

Reklam beynəlxalq marketinqin olmazsa, olmazıdır. Reklamların əmtəə bazarlarına təsirləri əsasən istehlakçılar üzərindən reallaşır. Bu mənada reklamların istehlakçılar üzərində 3 əsas təsiri mövcuddur (T.C. Milli Eğitim Bakanlığı 2012: s.17).

1. İqtisadi təsirləri;
2. Psixoloji təsirləri;
3. Sosial təsirləri.

Reklamın iqtisadiyyat üzərində əsas təsiri yeni növ tələb yaratma və bu tələbi qarşılamaqla iqtisadiyyatı böyütməkdir. Bu yeni növ tələb sürətlə böyüdüyü üçün istehsalçılar bazarlara çıxartıqları məhsulları daim təkmilləşdirməlidirlər, bu da nəticədə texnoloji inkişafa aparır. Eyni zamanda reklamın tələbi arıtması ilə bazarda əlavə mənfəət yaranır ki, bu da iştirakçıların daha çox qazanmasına və bazara yeni iştitakçıların daxil olmasına şərait yaradır.

Psixoloji təsirləri bazarlar üçün müsbət olduğu halda, istehlakçılar üçün müəyyən hallarda mənfi olur. Reklamlar cəmiyyətlər arasında olan fərqləri aradan qaldırmaqla movcud əmtəəyə olan tələbi dünyanın hər tərəfinə yaya bilir, beləlikdə həm beynəllxalq əmtəə bazarları daha da böyüyür, həm də hegemon şirkətlər daha çox gəlir əldə edir. Müəyyən mənada bunun istehlakçılar üçün də müsbət təsiri vardır. Cəmiyyətlər arasında fərqlərin aradan qalxması milli zəminlərdə baş verən mübahisələri aradan qaldırırı, lakin bu proses praktikada çox yavaş gedir. Reklamların istehalakçılara mənfi psixoloji təsirləri isə əlçatanlığın olmamasıdır. Reklamlarda əmtəələrin mükəmməlliyi alıcıları həmin məhsulu almağa sövq edir. Lakin bu zaman

ortaya bir neçə real faktor çıxır. Əmtəələrin reklamda olan qədər keyfiyyətli olmaması, istehlakçıların maddi vəziyyətlərinin bu məhsulları əldəı edə bilməməsi və sağlamlığa etdiyi mənfi təsirlər son nəticədə alıcılara mənfi psixoloji təsir göstərir. Bu mənada bu tip reklamlara qarşı beynəlxalq mübarizə aparılsa da, onların təsirlərini məhdudlaşdırmaq mümkün olmur. Reklamların isə istehlakçılar, əmtəə bazarları və bu bazarda iştirak edən digər subyektlər üzərində təsirləri günü-gündən artmaqdadır. Psixoloji təsiri daha çox **gizli reklam** vasitəsilə reallaşdıra bilirlər. Gizli rekalm "gerilla marketinqin" formalarından biri hesab edilməklə əmtəə və ya brendlərin KİV-də və əyləncə xarakterli yerlərdə yerləşdirilməsidir (Fərhad M., Elşad M. Azadə N. 2017: s. 53). Bu reklam vasitəsi ilə istehlakçıların güvənini daha rahat qazanmaq olur ki, bunun sonrakı psixoloji təsirləri daha güclü olur. Reklamın digər təsirləri sosioloji yönümlüdür. Bu növ təsirlər bazarların təmsil olunduğu ölkələrin inkişaf səviyyələrində olan fərqlərlə əlaqədardır. İEOÖ-də yayımlanan bir İEÖ reklamı birincidə istehlakçılar arasında özəntilik yaradır. Bu mədəni inkişafa apardığı hallarda düzgün idarə edilməsə nəticəsi tamamilə mənfi ola bilər.

Beynəlxalq Əmtəə Bazarlarının qloballaşmasına təsir edən faktorlardan biri də **informasiya inqilabıdır.** İnformasiya inqilabı özü ilə texnoloji inkişaf, artan və daim tələbat, eyni zamanda bu tələbatın sürətlə müəyyənləşdirilib qarşılanması ilə müşahidə edilir. Yeni informasiya və yeni texnologiya bazarlarda yeni tələblər yaradır, istehsalçıların üzərinə isə bu sürətli dəyişkənliyə ayaq uydurmaq düşür. İnformasiya inqilabının əmtəə bazarlarında əsas təsiri yalnızca yeni tələbat və manesiz komnukasiya qurulması ilə kifayətlənmir. Artıq satıcılar istehlakçıların istək və zövqlərini daha rahat müəyyənləşdirə, həmçinin bazarda əmtəəyə olan tələbinin miqdarını təyin edə bilirlər. Bu isə beynəlxalq əmtəə bazarlarına çıxarılan məhsulların sürətlə satılmasına və bazarda əmtəə artıqlığının qarşısının alınmasına imkan yaradır. İnformasiya inqilabı özü ilə birlikdə bəzi anlayışları ortaya çıxarır. Bunlara informasiya iqtisadiyyatı, informasiya cəmiyyəti və informasiya bazarını nümunə gətirə bilərik. İstənilən halda bu anlayışlar arasında informasiya cəmiyyətinin struktural və keyfiyyət inkişafı qlobal

təşəkkülə səbəb olur. İnformasiya cəmiyyəti əsas texnologiyanın inkişafı ilə informasiya sektorunun, informasiya istehsalının, informasiya kapitalının və ixtisaslı işçi faktorunun əhəmiyyət qazandığı, təhsilin davamlılığının təmin olunduğu komnukasiya vasitələri və elektron ticarət kimi inkişaf göstəriciləri ilə cəmiyyəti iqtisadi, sosial , siyasi və mədəni baxımdan sənaye cəmiyyətindən irəli aparan inkişaf mərhələsidir (Coşkun A. 2016: s.3). Əmtəə bazarlarının qloballaşmasına təsir edən faktorlarından biri də **dövlətlərin bu prosesə yanaşma tərzidir.** Liberalist mövqeyə arxalanan dövlətlərin fəaliyyəti əmtəə bazarlarının qloballaşmasına gətirib çıxarır, bu ölkələr xarici ticarətin inkişafı məqsədilə bütün proteksionist alətləri ləğv edir. Digər tərəfdən antiqlobalist prinsiplərə əsaslanan dövlət siyasətləri proteksionist alətlərin təsirini artırmaqla beynəlxalq ticarətin zəifləməsinə səbəb olurlar. Müasir dövrdə bazarların qloballaşması istiqamətində ölkələrin tamamilə qlobalist və ya antiqlobalist siyasət yürütdüyü hallar yoxdur. Dövlətlər daha çox hər iki prinsipə əsaslanan siyasət yürütməyə çalışırlar. İnkişaf etmiş Qərbin liberalist ölkələri belə iqtisadiyyata mütəmadi olaraq müdaxilə edir. Bu müdaxilələrin əsas səbəbi milli iqtisadiyyatların və milli bazarların alternativləri ilə rəqabət mübarizəsində uğur qazanmağa çalışmalarıdır (Osmova M.N və digərləri 2008: s.35). Liberalistlərə görə, inteqrasiya bazarların qovuşması, dünya üzrə eyni əmtəələr üzrə vahid bazar qiymətlərinin formalaşması üçün əsas faktordur. Beynəlxalq əmtəə bazarlarının qloballaşması ölkələrin **siyasi mübarizəsindən** də öz təsirini alır. Adətən iri TMK-lar siyasi cəhətdən stabil bölgələrə meyil edir, bu bölgələrdə məhsul istehsal edirlər və bu tip regionlarla ticarət münasibətləri qururlar. Nəticə etibarilə əmtəə bazarlarının formalaşması, inkişafı və son nəticədə qloballaşması regiondakı siyasi mübarizədən də asılı olur. Daimi olaraq ölkələrin mübarizə meydanı olan və daxili sabitlik təmin olunmayan Yaxın Şərq ölkələri ilə inkişaf etmiş Qərb ölklərində əmtəə bazarlarının inkişaf səviyyələrini müqayisə belə etməyə dəymir. Aşağı qiymətə daha keyfiyyətli və daha çox əmtəə istəyinin formalaşması qlobal miqyasda əmtəələrə olan tələbləri və bu tələblərə uyğun iqtisadi fəaliyyətləri homogenləşdirməkdədir (https://hbr.org/-1983/05/the-globalization-of-

markets). Beynəlxalq bazarların hər birində qloballaşma prosesinin sürətlənməsinə təsir edən amillərdən biri də **dildir.** Artıq ingilis dilinin qlobal dilə çevrilməsi, bu dildə danışanlara dünyanın hər yerində rast gəlinməsi və demək olar ki, qlobal şirkətlərdə işçilər üçün vacib kriteriya hesab olunması həm cəmiyyətləri bir-birinə yaxınlaşdırır, həm də ticarət münasibətlərinin daha uğurlu həyata keçirilməsinə imkan verir. Qlobal miqyasda insanların tələbatlarının homogenləşməsinə texnologiyadan sonra ən çox təsir edən faktorlardan biri də məhz qlobal dil anlayışının formalaşmasıdır. İngilis dilinin qlobal dilə çevrilməsi ilə online film-dizi platformalarının izləyicilərinin artması, həm bu tip bazarların böyüməsinə gətirib çıxarır, həm də insanları və onların istəklərini homogenləşdirir.

# III FƏSİL. BEYNƏLXALQ İSTEHSALIN VƏ ƏMTƏƏ BAZARLARININ QLOBALLAŞMASININ NƏTİCƏLƏRİ VƏ AZƏRBAYCANA TƏSİRİ

## 3.1. Beynəlxalq istehsalın qloballaşmasının nəticələri

Beynəlxalq istehsal  beynəlxalq istehsal, bölgü, mübadilə və istehlak sisteminin əsas tərkib hissəsidir. Onun qloballaşması prosesi də ümumi qloballaşma tendensiyasının xüsusiləşmiş halı hesab edilir. Beynləxalq istehsalın qloballaşmasına müəyyən amillərin təsirləri ilə bağlı öncəki fəsillərdə mülahizələr irəli sürmüşdük. Bu fəsildə isə bu amillər səbəbilə qloballaşmanın hansı nəticələr doğuracağını araşdırcağıq. İlk növbədə qeyd edək ki, qloballaşmanın ölkələrə təsirləri pozitiv və neqativ ola bilər. Qloballaşmanın yaratdığı pozitiv təsirlər özünü iqtisadi, sosial, mədəni, təhsil, ticarət və xarici əlqələr kontekstində inkişafın və böyümənin əldə edilməsi ilə  biruzə verir. Neqativ nəticələr isə ölkələr  arasında sərhədlərin "qalxması"  hesabına bu sahələrdə baş verən böhranların qlobal miqyasda və sürətlə yayılmasıdır. Qloballaşmanın pozitiv və neqativ nəticələri istehsal prosesində də özünü biruzə verməkdədir. İlk növbədə qloballaşmanın beynəlxalq istehsala və iştirakçılarına yaratdığı pozitiv nəticələrlə bağlı qeyd edək. Daha böyük **bazarlara giriş imkanının** əldə edilməsi beynəlxalq istehsalın qloballaşmasının əsas nəticələrindən hesab edilir. Bazarlara giriş imkanı istehsalın həcminin artması və bu istiqamətdə fərqli ölkə qruplarının əməkdaşlıqları əsasında yaranır. İstehlakçıların daha **keyfiyyətli və ucuz məhsul əldə etməsi** imkanının yaranması da pozitiv nəticələrdir. Beynəlxalq istehsalın qloballaşması ilə dünya bazarlarında rəqabətin artması istehsalçıların məhsullarının keyfiyyətlərini artırmağa və maya dəyərini mümkün olduğu qədər azaltmağa sövq edir. Nəticədə istehlakçılar daha ucuz və keyfiyyətli məhsullar əldə edirlər. **Ehtiyatların səmərəli istifadəsi** beynəlxalq istehsalın qloballaşması ilə  birlikdə daha da aktuallıq qazanmaqdadır. Hal-hazırda ölkələr sahib olduqları ehtiyyatlarla məhsul istehsal etməkdənsə, daha ucuz istehsal edilən məhsulları və ya yarımfabrikatları almağa meyil edirlər. Beynəlxalq istehsalın qloballaşmasının diqqətə laiyq nəticələrindən biri prosesin sürətlənməsi ilə

tənzimləmə mexanizminə ehtiyacın yaranması və **tənzimləmə mexanizmlərinin yaradılmasıdır**. Qlobal istehsal həcminin artması ilə istehsal edilən məhsulların keyfiyyətinə nəzarət, istehsal prosesinin düzgün idarə edilməsi və istehsal vasitələrindən səmərəli istifadə, istehsalın nəticəsinin beynəlxalq qanunvericiliyin tələblərinə uyğun realizasiyası problemi yaranır. Bu mənada tənzimləmə mexanizmini 3 əsas subyekt həyata keçirməkdədir. İlki beynəlxalq bazarlar və istehlakçıların davranış və seçim mövqeyidir. Bazar qanunlarına və istehlakçıların tələblərinə qarşılıq verməyən məhsullar və bu məhsulların istehsalçıları bazardan çıxmağa məcbur olur. İkinci ünsür ayrılıqda dövlətlərdir. Bu mənada hər bir dövlətin öz qanunvericilik və vergi mexanizmi, o cümlədən, texniki və normativ xarakterli aktları mövcuddur. Üçüncü və ən effektiv tənzimləmə mexanizmi isə beynəlxalq təşkilatlar və onların yaratdıqları xüsusi normativlərdir. Bu normativlər istehsal edilən məhsulun keyfiyyətinin yaxşılaşdırılması və məhsul istehsalında istifadə edilən istehsal vasitələrinin səmərəli istifadə edilməsinə imkan yaradır. **Rəqabət qabiliyyətlilik səviyyəsinin yüksəlməsi** pozitiv mənada istehsalın kürəsəl xarakter almasının qaçınılmaz nəticəsidir. Milli istehsalçılar və eyni zamanda xarici istehsalçılar arasındakı rəqabətin artması zəif istehsalçıların qlobal istehsal şəbəkəsindən çıxmasına səbəb olur. Lakin rəqabət apara bilən ölkə və müəssisələr nəticədə rəqabət qabiliyyətlilik səviyyəsini dha da artırırlar. Rəqabət qlobal istehsalın sürətlə böyüməsinə və beynəlxalq bazarların formalaşmasına şərait yaradır. Beynəlxalq istehsalın qloballaşması rəqabət mühitini artırır, rəqabət daha keyfiyyətlii və daha ucuz istehsal yaratmağa səbəb olur. Satış qiymmətinin aşağı olması bazar tələbini artırır ki, nəticədə bazarlar daha da böyüyür (E.Ö. Selçuk 2014: s.10). **Beynəlxalq ticarətin həcminin artması** istehsalın qloballaşması ilə birbaşa əlaqəlidir. İxrac xərclərinin və ixracı idarəetmənin çətinliyi beynəlxalq ticarət qarşısında duran ciddi problemlərdəndir. Beynəlxalq istehsalın qloballaşması ilə şirkətlərin qlobal miqyasda istehsal şəbəkəsinin böyüməsi ixrac xərcləri və ixracın idarə edilməsi problemlərini aradan qaldırır. Nəticədə beynəlxalq ticarətin həcmi sürətlə artır. İstehsalın qloballaşması ilə istehsal

həcminin artmasına baxmayaraq beynəlxalq iqtisadiyyat istehsal mərkəzli sistemdən **istehlakçı mərkəzli** sistemə doğru inkişaf edir. Bu prosesin əhəmiyyəti istehlakçıların zövq və istəklərinə əsaslanan tələbatlarının öncəlik qazanması və istehsalın bu istiqamətdə inkişaf etməsidir. Beynəlxalq istehsalın qloballaşması ilə birlikdə meydana gələn mümkün pozitiv nəticələrlə bağlı şərhlərdən somra neqativ nəticələrlə bağlı mülahizələr aparaq. **Qlobal ədalətsizlik və bərabərsizlik** beynəlxalq istehsalın qloballaşmasının neqativ nəticələrindən biridir. Beynəlxalq istehsal həcminin sürətlə artması, istehsal şəbəkəsinin böyüməsi məhşur istehsalçıların gücünü daha da artırmaqla yanaşı zəif dövlətlərin və ya bazara yeni daxilmaq istəyən müəssisələrin işini çətinləşdirir. İnhisarlaşma prosesinin artması qlobal istehsal şəbəkəsinə daxil olmağa mane olur, həmçinin iqtisadiyyatın digər sahələrində olduğu kimi istehsalda da iri mülkiyyətçilər və güclü dövlətlər əksərən iqtisadi gücləri ilə yanaşı dövlət orqanlarına lobbiləri vasitəsi ilə əlavə təsir imkanları yaratmaqla potensial rəqiblərinin yaradacağı rəqabətdən qaçırlar. Bu prosesin davamı istehsalın azalmasına, keyfiyyətin azalmasına və qiymətin sürətlə yüksəlməsinə gətirib çıxarır. “... inhisarlaşma prosesi kapitalist yığım prosesinin ayrılmaz tərkib hissəsi hesab edilir, maliyyə sektorunun iştirakı ilə birlikdə qlobal istehsalçıların həyata keçirdiyi kapital yığımı və mərkəzləşmə prosesinin davamı inhisarlaşmaya səbəb olur” (O.Başar, Y. Fatma s.4315). **Mərkəzdən asılılıq** beynəlxalq istehsalın qloballaşması nəticəsində yaranan növbəti neqativ nəticədir (M. Talas, Y. Kaya 2014: s.32). Bu proses İEOÖ-lərin İEÖ-lərdən asılı hala düşməsi ilə səciyyələnir. İEOÖ-lərdə istehsalın texnoloji səviyyəsinin aşağı olması və çox hallarda istehsal şəbəkəsinin əsasını digər inkişaf etmiş ölkələrin müəssisələrinin təşkil etməsi mərkəzdən asıllığın sürətlə artmasına şərait yaradır. Bu proses bir növ qlobal səviyyədə inhisarlaşmaya nümunədir. Yüksək səviyyəli texnoloji istehsal prosesinin təşkil edilməsinin maddi və strukturlaşdırma çətinliyi İEOÖ-lərin qlobal istehsal şəbəkəsinə qoşulmasına əngəl törədir, nəticədə mərkəzdən asılılıq prosesi getdikcə güclənir. **Ekoloji çirklənmə** səviyyəsi beynəlxalq istehsalın qloballaşması ilə birlikdə daha da artmaqdadır. Qloballaşmanın maliyyətləri azaltması və tələbi artırması

hesabına istehsala olan maraq da artır. İstehsalın sürətlə artması və çox hallarda onun törətdiyi zərərlərə adekvat və önləyici tədbirlərin görülməməsi ekoloji çirklənmənin hüdudlarını genişləndirməkdədir. Ekoloji çirklənmə ilə istehsalın artması, ümumi iqtisadi inkişafın əldə edilməsi arasında mənfi mənada çox sıx bağlılıq vardır.

Beynəlxalq istehsalın qloballaşmasının **işsizlik problemi** üzərində 2 zidd təsiri müşahidə edilməkdədir. İlki pozitiv təsirdir. Beynəlxalq istehsalın qloballaşması ilə birlikdə müəssisələrin sayının artması işsizlik probleminə müsbət mənada təsir etmişdir. Xüsusən işsizliyin çox olduğu zəif inkişafa malik ölkələrdə TMK-ların fəaliyyətinin genişlənməsi yeni iş yerlərinin yaradılmasına imkan yaratmışdır. Digər tərəfdən İstehsal şəəbəkəsinin sürətlə böyüməsi 2 əsas problemi ortaya çıxarmışdır. İstehsal prosesinin böyük həcimdə texnologiya istifadəsinə əsaslanması ilə insan əməyinin istifadəsinin azaldılması işsizliyin yenidən artmasına səbəb olmuşdur. Bu proses uzun müddətli dövrdə “lazımsız insan kütləsinin” yaranmasına səbəb ola bilər. Digər bir problemli tərəf isə yoxsul ölkələrdə işçi qüvvəsinin istismarıdır. TMK-lar istehsal müəssisələrini əhalisi çox olan ölkələrə köçürməklə ucuz işçi qüvvəsindən istifadə etməyə çalışırlar. Bu zaman çox aşağı maaşa işləyən işçilərin istismar edilməsi məsələsi ortaya çıxır.

**Çox qütblülük** anlayışı beynəlxalq istehslın qloballaşması zəminində yaranan neqativ tendensiyadır(D.Duygu, 2013: s.8). Ölkələrin və onların TMK-larının beynəlxalq istehsalın şəbəkəsində mövqeyini möhkəmlətməyə çalışması, potensial mənfəətin əldə edilməsi imkanları qlobal miqyasda qütbləşmələrin yaranmasına təsir göstərir. Bu qütbləşmələr ölkələr arasında, regional təşkilatlar arasında və iri TMK-lar arasında müşahidə edilir. Bu qütbləşmənin çox ciddi mənfi təsirləri meydana çıxır. Xüsusəndə maya dəyərini azaltmağa və bazar payını artırmağa çalışan TMK-lar ətraf-mühitin qorunması ilə bağlı tədbirlər görmür, işçi qüvvəsini istismar edir, öz mənafeləri naminə ölkə iqtisadiyyatlarına və siyasətlərinə ciddi təsir edirlər. Ölkələr səviyyəsində isə bu problem daha irəli getərək siyasi və hərbi münaqişələri qaçınılmaz edir. Ümumilikdə baxdıqda beynəlxalq istehsalın qloballaşma tendensiyası ilə digər

sahələrdə baş verən qloballaşma prosesinin ortaq pozitiv və neqativ nəticələri mövcuddur. Beləki bu mənada **“vəhşi kapitalizm”, maliyyə-iqtisadi böhranlar və lidlerlik problemi** müxtəlif sahələrdə baş verən qloballaşma ilə birlikə meydana gələn neqativ iqtisadi nəticələrdir (https://www.aa.com.tr/tr/analiz-haber/kuresellesme-ve-21-yuzyilda-cozum-bekleyen-sorunlarimiz/972674). Qısa şəkildə bu neqativ tendensiyaları şərh edək. İlk növbədə “vəhşi kapitalizm” mənfəət əldə etmə istiqamətində bütün qaynaqların sistemsiz və toplu istifadəsi, eyni zamanda meydana gələn problemləri aradan qaldırımadan öz prioritet məqsədini saxlamasıdır. Maliyyə-iqtisadi böhranlar isə ölkələr arasında “iqtisadi sərhədlərin”-iqtisadi manelərin aradan qalxması ilə sürətlə yayılması və həcminin böyüməsi riskidir. Liderlik problemi isə qütbləşmənin artması ilə əlaqədardır. Problemlərin artması və vahid idarə etmə mexanizminin olmaması, problemlərin həllini çətinləşdirməkdədir. Bu mənada son dövrlərdə BVF-nin, Dünya Bankının, ÜTT-nin, OPEC-in və s. təsirinin azalması xüsusilə qeyd edilə bilinər. Beynəlxalq istehsalın qloballaşması çərçivəsində yaranan problemlərin ciddiliyi pandemiya dövründə özünü daha da ciddiləşdirdi. Ölkələrin qapanma siyasəti istehsalın qlobal miqyasda azalmasına və beynəlxalq tələbatın ödənilməməsinə gətirib çıxarmışdır. Qloballaşmanın üstünlüklərinə arxalanan əksər ölkələr maliyyə böhranları və pandemiyalar kimi fors major halların baş verməsi ilə qloballaşmaya olan güvənləri sarsılmışdır. Proqnozlar qloballaşma prosesinin zəifləyəcəyini ön görsə də, təbii-iqtisadi qanuna uyğunluğu nəzərə alsaq, qloballaşmanın uzun müddətli dövrdə daha da güclənəcəyini inkar edə bilmərik. Bu cəmiyyətin daim inkişaf və yenilik axtarışında olması ilə bağlıdır.

Beynəlxalq istehsalın qloballaşması zamanı yaranmış neqativ və pozitiv nəticələrin siyahısını artıra bilərik. Bu nəticələr həmçinin qloballaşmanın tarixi inkişaf xətii boyunca formalaşdığı üçün uzun müddətli dövrdə yeni müsbət və mənfi nəticələrin meydana gəlməsi qaçınılmazdır. Buna görə yenilikçi olmalı və əlimizdəki potensialı düzgün qiymətləndirməyi bacarmalıyıq.

### 3.2. Beynəlxalq əmtəə bazarlarının qloballaşmasının nəticələri

Beynəlxalq istehsalın qloballaşması ilə beynəlxalq əmtəə bazarlarının qloballaşmasının ortaq nəticələri mövcuddur. Bu mənada **bazarlara çıxış imkanı, ucuz və keyfiyyətli məhsullar, məhsulların keyfiyyətinə nəzarət sisteminin** təkmilləşdirilməsi kimi ortaq nəticələr qeyd edilməlidir. Bazarların qloballaşması ilə beynəlxalq əmtəə bazarları şəbəkəsinin böyüməsi hesabına ölkələr və TMK-lar timsalında iqtisadi subyektlərin bazarlara giriş imkanı yaranır. Həmçinin ölkələr arasında bağlalan ticarət və digər müqavilələrin təsiri ilə, eyni zamanda milli preventiv səciyyə daşıyan proteksionist xarakterli gömrük və qeyri-gömrük tariflərinin azaldılması və ya ümumiyyətlə ləğv edilməsi hesabına iqtisadi subyektlərin beynəlxalq əmtəə bazarlarına asan giriş imkanları yaranır. Ucuz və keyfiyyətli məhsulların əldə edilməsi həm beynəlxalq əmtəə bazarlarının, həm də beynəlxlaq istehsal şəbəkəsinin qloballaşması nəticəsində meydana gələn müsbət xarakterdir. Əmtəə bazarlarında qloballaşma tendensiyasının güclənməsi bazarın iştirakçılarının sayını artırır ki, bu da satıcılar arasında rəqabəti artırır, artan rəqabət hesabına satışlarını artıraraq böyük bazar payı əldə etmək istəyən satıcılar məhsulların keyfiyyətini artırmağa və maya dəyərini azaltmaqla birlikdə daha ucuz satmağa çalışırlar ki bu zaman əsasə qazanan subyekt də məhz alıcılar olur. **Rəqabət anlayışı** da öncəki bölümdə qeyd etdiyimiz kimi qloballaşma tendensiyasının əmtəə və istehsal səciyyəli qloballaşmanın ortaq nəticəsidir. Əmtəə bazarlarında realizasiya edilən əmtəələrin kəmiyyəti artdıqca məhsulların keyfiyyətinə nəzarət problemi də ortaya çıxır. Bu barədə də öncəki bölümdə qeyd etdiyimiz kimi dövlətlər, beynəlxalq iqtisadi təşkilatlar və bazar(istehlakçılar) səviyyəsində həyata keçirilir. Məhsulların **GDO (geni dəyişdirilmiş orqanizmlər)** səviyyəsinin artması əmtəə bazarlarının qloballaşması ilə yaranan ciddi nəzarət edilməli problemdir. Tələbatın artması, məhsulların maya dəyərini aşağı salma istəyi və istehsal prosesində istifadə edilən vasitələrin həcminin idarə edilməsi problemi yarandıqca istehsalçılar bazarlara geni dəyişdirilmiş məhsullarla çıxırlar ki, bu məhsulların insan sağlamlığı üçün çox ciddi fəsadları

müşahidə edilmişdir. GDO məhsullarının əmtəə bazarlarına çıxarılmasına istehlakçıların zövq xarakteristikasının da müəyyən mənada təsiri mövcuddur. Alıcılar ilkin halda məhsulların keyfiyyətindən daha çox onun görünüşünə nəzər saldıqları üçün məhsul istehsalçıları məhsulların genini dəyişdirərək daha gözə gəlimli məhsul ərsəyə gətirirlər, lakin əksər hallarda keyfiyyətsiz olan bu məhsulların insan sağlamlığı üçün çox ciddi fəsadları olur. Əmtəə bazarlarında qloballaşma prosesinin digər bir nəticəsi isə müxtəlif regionlarda olan bazarlarda **məhsulların homogenləşməsidir.** Qloballaşma ilə birlikdə insanların zövq və istəklərinə əsaslanan tələbatları oxşarlaşmağa başlayır. Bu prosesi daha çox məhsul istehsalçıları idarə edirlər. Qlobal miqyaslı marketinq siyasəti hesabına insanların ortaq zövq və istəkləri formalaşdırılır və igstehsal bu özvq və istəkləri qarşılamaq istiqamətində qurulur. Nümunə olaraq insanların komunkasiya ehtiyacının eyniləşdirilməsini göstərə bilərik. Ümumi halda telefonlar bu ehtiyacı ödədiyi halda telefonların sahib olduqları funkisyalar alıcıların zövq və istəklərinə əsaslanır. Bu mənada seçimi alıcılar sərbəs etdiklərini hesab etsələr də, əslində formalaşmış seçim imkanları insanların zövqlərini istiqamətləndirir. “Apple”, “Samsung”, “Xiomi” kimi markaların reklam stratejiləri ilə alıcılara necə təsir etdiklərini rahatlıqla müşahidə etmək olar. **Qlobal kriz** əmtəə bazarlarında baş verən qloballaşmanının mümkün nəticələrindən birirdir. Bu mənada krizin müxtəlif formaları fərqliləşdirilir. İlkin halda bazarlarda baş verən iqtisadi-maliyyə xarakterli krizlərin qloballaşmanın təsiri ilə kürəsəl miqyasda yayılması nəzərdə tutulur. İkinci halda isə bazarlarda realizasiya edilən məhsulların istifadəsi nəticəsində mövcud xəsətliklərin beynəlxalq miqyasda yayılması kriz yaradır. Son dövrlərdə baş verən pandemik xəstəliklərin məhsulların istehlakı ilə yayılmasını buna nümunə kimi göstərə bilərik. “Quş qripi” kimi kənd təsərrüfatı məhsullarının satışı ilə müxtəlif regionlarda sürətlə yayılan xəstəliklər qeyd edilən krizin bariz nümunəsidir. Əmtəə bazarlarının qloballaşması ilə birlikdə bu tip xəstəliklərin sürətlə yayılması müəyyən sahələrdə qloballaşma tendensiyasının idarə edilməsi və ya məhdudlaşdırılmasının vacibliyi məsələsini ortaya çıxarır. Lakin istənilən halda qloballaşmanın məhdudlaşdırılması

beynəlxalq xarakterli şirkətlərin maraqlarına uyğun gəlmədiyi üçün qloballaşmanın xüsusən kənd təsərrüfatı məhsullarının satışında məhdudlaşdırılması prosesi sadəcə ideya olaraq qalmaqdadır. Beynəlxalq əmtəə bazarlarının qloballaşması bu sahədə sazişlərin həcminin artmasına gətirib çıxarmışdır. Əmtəə bazarları böyüdükcə və bu bazarlarda iştirakçıların sayı artdıqca ÜTT və oxşarı təşkilatların fəaliyyət zəruriyyəti meydana çıxır. Bu mənada xüsusilə qeyd edilməli fakt **Regional Ticarət Razılaşmalarının(RTA)** sayının artmasıdır (https://www.wto.org/english/tratop_e/region_e/region_e.htm). Aşağdakı qrafikdə illər üzrə bu sazişlərin inkişafı göstərilmişdir.

**Qrafik 7: 1948-2020-ci illər üzrə RTA-ların sayının dəyişməsi.**




**Mənbə:** Qrafik ÜTT-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://www.wto-.org/english/tratop_e/region_e/region_e.htm , Regional Trade Agreements

Qrafik 7-də əmtəələr və xidmətlər üzrə ayrılıqda RTA-ların sayı, bu sazişlərin illər üzrə kumuliyativ cəmi göstərilmişdir. Qeyd olunan qrafikdəndə göründüyü kimi son illərdə bu tip razılaşmaların sayı kəskin artmışdır.

Beynəlxalq bazaların kəmiyyət və keyfiyyətcə inkişafı ilə yanaşı **bazarlarda struktur dəyişiklikləri** də ortaya çıxır. Struktur dəyişikliklərinin mahiyyəti özünü əmtəə bazarlarını təmsil edən müxtəlif əmtəə birjalarının əhəmiyyətini itirməsi və ya

əhəmiyyət qazanması istiqamətində göstərir. Hal-hazırda beynəlxalq əmtəə bazarlarında əsas hissə yanacaq(neft, qaz, kömür, torf və s.), əsas və qiymətli metallar(polad, mis, qızıl, gümüş və s.) və kənd təsərrüfatı məhsulları(buğda, çəltik, kartof, ət və ət məhsulları və s.) üzrə fərdiləşdirilir. Müasir dövrdə isə həm ayrı-ayrılıqda birja daxili, həm də birjalar arası artma-azalmalar müşahidə edilir. Məsələn alternativ enerji resusrlarının əhəmiyyəti artdıqca neft-qaza olan maraq azalır. Lakin istənilən halda yanacaq realizasiyası üzrə birjalarda neft-qaz satışı öz mövqeyini qoruyub saxlamaqdadır. Birjalar arası fərqliliklər isə texnoloji avadanlıqların və qiymətli metalların mövqeyinin kənd təsərrüfatı məhsullarına nisbətətn daha da əhəmiyyət qazanması formasında şərh edilə bilinər. Kənd təsərrüfatı üzrə ticarətin beynəlxalq miqyasda əhəmiyyətini itirməsinin səbəbi bu məhsulların daşınması zamanı problemlərin yaranması və bu məhsulların tez xarab olan məhsullar olmasıdır. Beynəlxalq əmtəə bazarlarında kənd təsərrüfatı məhsullarının əhəmiyyətini itirmıəsi ilə yanaşı son dövrlər tamamilə yeni bir tendensiya nəzərə çarpmaqdadır. Bu İEÖ-lərin Afrika ölkələrindən torpaq icarəyə götürməsidir. Bu mənada Avropa ölkələri, Rusiya, Çin və Türkiyənin son illər xüsusi fəaliyyəti qeyd ediulməlidir. **Bu ölkələrin Afrikadan torpaq icarəyə götürməsi beynəlxlaq istehsalın və əmtəə bazarlarının qloballaşmasının son nəticəsidir.** Türkiyənin Kənd Təsərrüfatı naziri Bekir Pakdemirli xüsusən Sudandan torpaq icarəyə götürmələrini yaxın 50 il ərzində gözlənilən qıtlıq ilə əlaqələndirmişdir (https://www.ntv.com.tr/turkiye/turkiye-neden-sudandan-tarim-arazisi-kiraladi-bakan-cevapladi,A-CC-3j3o0mdXPouM3577g). Nazirin dilə gətirdiyi qıtlıq problemi olacağı təqdirdə yararlı torpaq sahələri az olan ölkələr çox ciddi problemlərlə qarşılaşacaqlar. Nəticədə kənd təsərrüfatı məhsullarının beynəlxalq əmtəə bazarlarındakı mövqeyi kəskin zəifləyəcək.

Beynəlxalq əmtəə bazarlarında qloballaşma proseslərinin nəticələrindən biri də **Ticarət Müharibələrinin** meydana gəlməsidir. Ticarət müharibələrinə bariz nümunə kimi ABŞ və Çin arasında son illərdə kəskinləşən ticari rəqabəti göstərə bilərik. Bu iki ölkə arasındakı ticarət müharibəsinin əsas səbəblərindən biri Çinin ABŞ-a ixrac etdiyi

əmtəənin dəyərinin təxminən 540 milyard dollar olduğu halda ABŞ-ın Çinə ixrac etdiyi məhsulların ümumi dəyəri isə yalnızca 120 milyard dollar olmasıdır (https://finans.az/xeber/abs-cin-ticaret-muharibesi-analitika.html). Bu fərqi aradan qaldırmaq baxımından ABŞ-ın Çin şirkətlərinə qarşı tətbiq etdiyi sanksiyalar Çinlə yanaşı digər ölkələrdən də təsirsiz ötüşmür. Bu müharibənin şiddətlənməsi ABŞ və Çin arasında siyasi münaqişənin də yaranmasına şərait yaratmışdır. Məhşur iqtisadçı Jeffrey Sachs-a görə ABŞ və Çin arasındakı bu mübarizə pandemiyanın dünyaya göstərdiyi təsirdən daha ağrılı ola bilər (https://www.bbc.com/azeri/international-53130539). Ticarət müharibəsinin kökündə ABŞ və Çin arasındakı idxal-ixrac fərqi dayansa da, bu və bu kimi oxşar ticarət müharibələrini şiddətləndirən ana səbəb beynəlxalq əmtəə bazarlarının qloballaşması və bu tendensiyadan uğurla faydalana bilən ölkələrin iqtisadi hökmranlıq siyasətləridir.

Əmtəə bazarlarının qloballaşmasının ən yeni nəticələrindən biri də özünü **maliyyə sistemində** göstərmişdir. Əmtəə ticarətinin **maliyyə təminatı və ödəniş prosesinin** həyata keçirilməsinə tarixi yanaşma ilə nəzər salsaq, görərik ki, qədim dövrlərdə ticarət zamanı əmtəə-əmtəə və ya əmtəə-dəyərli əşyalar(qızıl, gümüş və metal olmayan digər dəyərli vasitələr) istifadə edilmişdir. Zaman keçdikcə mübadilə prosesinin əsasını əmtəə-pul münasibətləri formalaşdırmışdır ki, burada da yalnız nəğd puldan söhbət gedir. XXI əsr etibarilə əmtəə bazarlarında və mübadilə prosesində qlobballaşma tendensiyası yeni ödəniş sistemlərinin yaranması reallığını ortaya çıxarmışdır. Bu ilkin halda **akrediriv, lizinq, faktorinq və forfeytinq** kimi ixracın qısa və uzunmüddətli maliyyələşdirmə mexanizmləri ilə həyata keçirilməsi və ən son dövrdə **kripto pulların** mübadilə mexanizminə daxil olması ilə təkmilləşdirilmiş maliyyə təminatı və ödəniş üsulu kimi qeyd olunur. İxracın qısa(akreditiv) və uzunmüddətli(lizinq, faktorinq və forfeytinq) maliyyələşdirilməsi alıcıların maliyyə davamlılığını təmin etməklə birlikdə, satıcının daşınma zamanı yaranan problemlər, malın dəyərinin alına bilinməməsi və sş risklərin aradan qaldırlmasına imkan yaradır. Alıcı və satıcıcının ixracın maliyyələşdirilməsi ilə əldə etdikləri üstünlüklərlə yanaşı bu

prosesin aktiv iştirakçısı olan banklar, kredit təşkilatları və digər müvafiq ixtisaslaşmış şirkətlər riskləri və ümumi prosesin idarə olunmasını(satışın həyata keçirilməsi və əmtəənin satıcıdan alıcıya çatdırılması) üzərlərinə götürməklə yaranan mənfəətdən öz paylarını götürürlər. Beynəlxalq əmtəə bazarlarında ticarət prosesini sürətləndirdiyi üçün ixracın maliyyələşdirilməsi prosesi bu mənada ən aktual vasitə hesab edilir. Kriptovalyutaların yaranması və mübadilə prosesində istifadəsi çox geniş yayılmasa da, növbəti illərdə beynəlxalq əmtəə bazarlarında, xüsusən iri həcmli ticarət sövdəşmələrində əsas mübadilə vasitəsi kimi istifadə edilməsi qaçınılmaz olacaq.

Qloballaşma bütün sahələrdə olduğu kimi ticarət prosesində də ən yeni metodların tətbiq edilməsinə imkan yaradır. Bu mənada beynəlxalq əmtəə bazarlarında qloballaşmanın meydana gətirdiyi ən son anlayışlardan biri də **transşipment** metodudur. Tranşipment və ya transşipmnet terminini 2 əsas formada anlamaq olar. İlki hərfi tərcümədən də göründüyü kimi köçürmə deməkdir. Yəni ticarət zamanı əmtəələrin bir nəqliyyat vasitəsindən digərinə yüklənmə prosesi.Buna əsas səbəb kimi alıcı ilə satıcı arasında bir başa quru və ya su yolunun olmaması və beynəlxlaq əmtəə bazarlarının "sahəsi" böyüdükcə birbaşa əlaqəli olmayan alıcı və satıcı arasındakı əlaqəni təmin etməkdir. Digər forma isə öz mənasında birinci ilə yaxındır, lakin əsas yaranma səbəbi ticarət məhdudiyyətlərinə qarşı mübarizədir. Məsələn ABŞ və Çin arasındakı ticarət müharibəsi Çin mallarının ABŞ-a daşınmasına mane olduqda Çin mallarını hissə-hissə və ya bütövlükdə Viyetnam, Tayland kimi ölkələrə göndərir və burada yenidən qablaşdırılan və ya hissələri birləşdirilən mallar müvafiq ölkə məhsulları kimi ABŞ-a göndərilir (https://container-xchange.com/blog/what-is-a-transshipment/). Qeyd etmək lazımdır ki, bu halda həyata keçirilən ticarət prosesində malların əsl mənşe ölkəsini müəyyən etmək olduqca çətin olur.

**Kartelləşmə** beynəlxalq əmtəə bazarlarının tarixi inkişaf xətii boyunca daimi özünü göstərmiş prosesdir. Lakin qloballaşma ilə birlikdə kartelləşmə daha da şiddətli xarakter almışdır. Əmtəə bazarlarında kartelləşmənin əsas şərti dünya bazarlarında təklif olunan əmtəənin böyük hissəsinin məhz kartel üzvlərinə məxsus olmasıdır(E.

Caner, 2017: s.459). Əmtəə bazarlarındakı müasir kartelləşmə meyillərində ortaya çıxan iki əsas istiqamət sənaye məhsullarının istehsalçıları və satıcılarının maliyyə bazarları ilə birləşməsi və kənd təsrrüfatı məhsulları ilə sənaye məhsulları bazarları arasında sənaye məhsulları hesabına kəskin fərqin yaranmasıdır. Beynəlxalq əmtəə bazarlarının qloballaşması ilə vahid məhsul satışı üzrə ixtisaslaşmış şirkətlər qlobal tendensiyaları və bununla yanaşı fəaliyyət göstərdikləri ölkələrdə milli-mədəni reallığı nəzərə alaraq müvafiq regionun tələblərinə uyğun olaraq bazara yeni növ məhsullar çıxara bilirlər ki, bu da bir çox hallarda həmin şirkətlərin spesifik davranış formalarına zidd hərəkət etməsi mənasına gəlir.

### 3.3. Beynəlxalq istehsalda və əmtəə bazarlarında Azərbaycanın mövqeyi

Qloballaşan dünyada xarici iqtisadi əlaqələr qurmadan, dünya bazarına məhsul çıxarmadan, müştərək istehsala əsaslanan məhsullar ərsəyə gətirmədən heç bir ölkə mövcudluğu təmin edə bilməz. Bu mənada Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrini, o cümlədən, beynəlxalq istehsal şəbəkəsindəki və beynəlxalq əmtəə bazarlarındakı mövqeyini öyrənmək, mövcud vəziyyəti təhlil edib problemləri aşkar etmək və mövcud problemlərin həllinə istiqamətlənmiş təkliflər paketi hazırlamaq hər bir iqtisadçının prioritet vəzifəsi olmalıdır. Qeyd olunan zəruriyyətinə əsaslanaraq dissertasiyanın bu fəsli Azərbaycan Respublikasının Beynəlxalq istehsalda və əmtəə bazarlarındakı mövqeyinin təhlilinə həsr edilmişdir.

Azərbaycanın dünyaya inteqrasiyası prosesində SSRİ-nin süqutu ilə yeni bir qapı açılmışdır. Bu dövrə qədər SSRİ-nin tərkibində yalnız İttifaqdaxili ölkələrlə qurulmuş əlaqələr İttifaqın süqut etməsi ilə bərabər "süqut" etdi. Ağıq iqtisadi-siyasi dövr yaşayan ölkənin yeganə çıxış yolu dünya ilə 0-dan iqtisadi-siyasi əlaqələr qurmaq idi. Respublikanın bu mənada ilk addımı 1992-ci ildə BMT-yə üzv olmaqla atılmışdı. Lakin digər tərəfdən Ermənistanla müharibənin başlanılması, torpaq itkisi və daxili siyasi sabitliyin olmaması həm iqtisadi, həm də siyasi əlaqələrin qurulmasına maneə törədirdi. MDB, İKT, GUAM, AŞ kimi təşkilatlara üzv olmaq, NATO və AB kimi birliklərlə

əlaqələr qurmaqla ortaq lahiyəllər həyata keçirmək Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra əldə etdiyi ilk və əsas uğurlar idi.

Növbəti mərhələ isə daxili siyasi sabitliyi təmin etməklə ölkəyə xarici investisyanın gətirilməsi idi. Bu mərhələnin başlanğıcını 1994-cü il 20 sentyabrda bağlanmış "Əsrin Müqaviləsi" ilə əlaqələndirmək olar. 8 ölkənin 13 iri şirkəti ilə bağlanmış saziş Azərbaycanın neft və qaz ehtiyyatlarının hasil edilməsi və dünya bazarına çıxarılması məqsədi daşıyırdı. Ölkədə yaradılan siyasi və makroiqtisadi sabitlik, balanslaşdırılmış xarici siytasət , zəngin karbohidrogen ehtiyatları və ucuz işçi qüvvəsi xarici investisyaların cəlb edilməsinə şərait yaratdı (M.Məmmədov, 2016: s.192). Hasil edilmiş karbohidrogen ehtiyatlarının xarici bazara çıxarılması istiqamətində isə əsas fəaliyyəti 1994-cü ildə yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti(ABƏŞ) öz üzərinə götürmüşdür. Növbəti mərhələdə isə Bakı-Tbilisi-Ceyhan(BTC), Bakı-Tbilisi-Ərzurum(BTƏ), Trans-Adriatik Boru Kəməri(TAP), Trans-Anadolu Qaz Boru Kəməri(TANAP) və Bakı-Tbilisi-Qars dəmir yolu xətiinin qurulması kimi lahiyyələrin həyata keçirilməsi olmuşdur.

Qeyd olunan əməkdaşlıq lahiyyələrinin qurulması ilə yanaşı Beynəlxalq Təşkilatlar və "nəhəng" iqtisadi-siyasi gücə sahib dövlətlərlə ortaq lahiyələrin yaradılması istiqamətində razılıqların əldə edilməsi Azərbaycanın dünyay inteqrasiya etməsinə şərait yaradan başlıca addımlar olmuşdur.

Ölkənin beynəlxalq istehsal və əmtəə bazarlarındakı mövqeyini və rolunu daha yaxşı analiz etmək, gələcəklə bağlı proqnozlar və mümkün təkliflər verə bilmək üçün hər iki istiqamət üzrə tarixi inkişaf istiqamətinə, həyata keçirilmiş lahiyələrə və istehsal, investisiya və xarici ticarət(idxal-ixrac) həcminə ayrılıqda nəzər salmaq zəururidir.

SSRİ-nin süqutu ilə birlikdə mövcud iqtisadi əlaqələrin qopması Azərbaycanda daxili istehsalın həyata keçirilməsini ləngitməklə birlikdə məhsul ixracının tamamilə azalmasına gətirib çıxardı. SSRİ-ni vahid bir avadanlıq və Azərbaycanı da onun bir hissəsi olduğunu nəzərə alsaq, müstəqilliyin ilk illərindəki vəziyyətin niyə bu qədər ağır olduğunu anlaya bilərik. Ölkədəki mövcud zavod və fabriklərin hesabına nəyin ki,

məhsul ixracını həyata keçirmək hətta daxili tələbatı qarşılamaq demək olar ki, mümkün olmamışdır.

Azərbaycanın Ümumi Daxili Məhsul(ÜDM) göstəricisi – verilmiş vaxt müddətində ölkə ərazisində istehsal edilən əmtəə və xidmətlərin ümumi bazar dəyəri – müstəqilliyin ilk illərindən etibarən daim artmaqdadır. Belə ki, ÜDM-nin tarixi inkişaf xəttinə nəzər salsaq, maksimum nəticəni 2019-cu ildə 81681,0 milyon manat ilə aldığını görmüş olarıq (https://www.stat.gov.az/news/index.php?id=4442). Lakin Statistika Komitəsinin 2020-ci il hesabatında 2020-ci il üzrə ÜDM-nin ilkin hesablaması həyata keçirilmiş olması(72432,2 milyon manat), 2020-ci il üzrə dəqiq rəqəmlərin təqdim edilməsinə çətinlik törədir.

Qeyd olunan hesabatda öncəki illə nisbətdə qeyri-neft-qaz sektorundakı əlavə dəyərin 3,5%, neft-qaz sektorunda isə 0,4% artdığı müşahidə edilmişdir. Ümumi istehsalın 41,4% sənaye istehsalına məxsus olmuşdur. Xidmət istehsalında isə əsas yeri ticarət, nəqliyyat və anbar təsərrüfatı, nəqliyyat vasitələrinin təmiri, turizm və ictimai iaşə, informasiya və rabitə sahələri və s. sahələr tutmuşdur.

Adam başına istehsal olunan Ümumi Daxili Məhsul isə 2019-cu il üzrə 8247,0 manat olmuşdur. Aşağdakı qrafikdə isə ÜDM-nin tarixi inkişaf xətti boyunca dəyişmə tempi göstərilmişdir.

Qrafik 8-dən göründüyü kimi 1990-2020-ci il üzrə həm ümumi ÜDM, həm də adambaşına ÜDM daim artmaqdadır. Yalnız 2020-ci il üzrə olan statistik göstəricilər ilkin qiymətləndirməyə əsaslandığı üçün dəqiq rəqəmi ifadə etmək olmur(Məhz buna görə 2020-ci il qrafikdə *-ilə işarə olunub).

Bunu nəzərə almaqla yanaşı pandemiyanın təsiri ilə qapanmaları və nəticədə istehsalın, xüsusən xidmət sektorunun tamamilə azalmasını hesaba qatsaq, 2020-ci ilin 2019-cu ilə nisbətdə daha az ÜDM-yə sahib olmasını anlaya bilərik. Bu hadisənin davamlılığını nəzərə alsaq, növbəti illərdə ÜDM-nin azalması ilə bağlı proqnoz vermək olar.

**Qrafik 8: 1990-2020- ci il üzrə Azərbaycanda ÜDM-nin ümumi  və adambaşına dəyişim tempi (milyon manatla)**




**Mənbə:** Qrafik AR DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://www.stat.-gov.az/news/index.php?id=4442, illər üzrə ÜDM hesabtları.

Azərbaycanın beynəlxalq iqtisadi arenadakı mövqeyini və gücünü qiymətləndirmək üçün istifadə edilən digər bir statistik göstərici ölkəyə daxil olan Birbaşa Xarici İnvestisiya(BXİ) və daxili investisiyanın miqdarını ifadə edən göstəricilərdir. Əsrin müqaviləsi ilə birlikdə Azərbaycana həm xarici, həm də daxili investisiya daha çox neft-qaz sektoruna yatırılmışdır. Beləliklə neft-qaz sektorunda əldə edilən inkişaf ölkənin sosial-iqtisadi tərəqqisinə imkan yaratdı, lakin neft-qaz sektoruna göstərilən qayğı digər sahələrdə özünü göstərmədiyi üçün digər sahələrdə inkişaf ləng gedirdi. Aşağdakı qrafikdə 1995-2019-cu illər üzrə Azərbaycanda iqtisadiyyata yatırılmış həm daxili, həm də xarici investisyanın miqdarı verilmişdir.

Qrafik 9-da 1995-2019-cu illər üzrə Azərbaycana yatırılmış investisyaların miqdarı göstərilmişdir. Bu müddət ərzində maksimum ümumi investisiya(xarici və daxili investisyalar birlikdə) 2018-ci ildə əldə edilmişdir(25877 milyon manat). Maksimum daxili investisyalar isə 2013-cü ildə 13178.9 milyon manatlıq dəyərlə müəyyən edilmişdir. Müvafiq dövr ərzində xarici investisyalarda əldə edilmiş maksimum göstərici 2016-cı ildə qeydə alınmışdır(16216.1 milyon manat).

**Qrafik 9: 1995-2019-cu illər üzrə Azərbaycanda ümumi, xarici və daxili investisiyanın miqdarı(milyon manatla).**




**Mənbə:** Qrafik AR DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. www.stat.gov.-az/menu/4/e-reports , illər üzrə investisiya hesabatları.

Azərbaycanda investisya fəaliyyətinin son dövrlərdə 2 əsas mənfi tendensiyası müşahidə olunmaqdadır.

I. İnvestisyaların 85%-dən çoxu neft-qaz sektoruna yatırılmışdır. Bu digər sektorların inkişafını ləngiməsinə səbəb olur. Neft-qaz qiymətlərinin aşağı düşməsi, ehtiyatların azalması və dünya əmtəə bazarlarında neft-qaz və neft-qaz məhsullarına olan tələbatın azalması ölkə iqtisadiyyatına mənfi təsir edə bilər;

II. Beynəlxalq istehsal və əmtəə bazarları şəbəkəsi böyüməsi nəticəsində investisiya lahiyyələrinin maliyyə təminatının maddi dəyəri yüksəlməsilə yanaşı son illərdə Azərbaycanda xarici investisyaların həddinin azalması investisiya fəaliyyətində qarşıda duran əsas problemlərdəndir.

Azərbaycanın beynəlxalq istehsal şəbəkəsinə qoşulması prosesi məhz neft-qaz sektoru ilə əlaqədar olmuşdur. Xüsusən "Əsrin Müqaviləsi" bağlandıqdan sonra energetika sənayesinin inkişafı, karbohidrogen ehtiyatlarının hasilatı, ilkin işlənməsi, neft məhsullarının hazırlanması və s. xarici investisyanın müştərək iştirakı ilə həyata keçirilmişdir. Xarici investisyanın ölkəyə sürətli axını sosail sahədə inkişafa səbəb

olmaqla birlikdə, mədəni qloballaşmanın baş verməsinə də səbəb olmuşdur. Bu istiqamətdə müstəqilliyin ilk illərindən etibarən bir neçə beynəlxalq əhəmiyyətli lahiyələr həyata keçirilmişdir:

**Cədvəl 2: Azərbaycanda bəzi beynəlxalq əhəmiyyətli layihələr**

| № | Lahiyələr | Başlanma tarixi(müqavilə) | Bitmə tarixi |
|---|---|---|---|
| **1** | Bakı-Tiflis-Ceyhan(neft) | 1998-1999 | 2005 |
| **2** | Bakı-Tiflis-Ərzurum(qaz) | 2003 | 2006 |
| **3** | Bakı-Tiflis-Qars(dəmir yolu) | 2005 | 2017 |
| **4** | TANAP(qaz) | 2012 | 2018 |
| **5** | TAP(qaz) | 2013 | 2020 |

**Mənbə:** Cədvəl prezident.az saytından götürülmüş məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb. https://president.az/azerbaijan/contract , neft-qaz layihələri

Cədvəl 2-dən də göründüyü kimi müstəqilliyin ilk illərindən etibarən zəngin təbii sərvətlərimiz və coğrafi mövqeyimizin verdiyi üstünlük hesabına bir çox beynəlxalq əhəmiyyətli lahiyələr uğurla həyata keçirilmişdir. Respublikamızın dünya əmtəə bazarlarındakı mövqeyini müəyyən edən əsas əmtəə qrupları neft-qaz və neft məhsuları, kənd təsərrüfatı məhsullarıdır( meyvə-tərəvəz). Ölkəmizin zəngin təbii sərvətləri xarici ticarət qabiliyyətimizi artırsa da, digər oxşar ölkələrin qarşılaşdığı kimi "Holland Sindromu" ilə qarşılaşmağımıza səbəb olmuşdur.

Xarici ticarət dövrüyəmizdə ixrac bölməsində əsas hissəni(95%-ə qədər) neft-qaz və neft məhsulları tutur. İxrac bölməsində 2-ci ən çox ixrac edilən məhsul isə pomidordur. İdxal bölməsində isə elektronik avadanlıqlar, əczaçılıq məhsulları, hərbi məhsullar, digər texnoloji təyinatlı əmtəələr və s. xüsusi əhəmiyyət daşıyır. Ən çox məhsul ixrac etdiyimiz ölkə ardıcıl olaraq İtaliya, Rusiya və Türkiyədir, ən çox idxal isə Rusiya və Türkiyədən həyata keçirilir.

Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dinamikasını müəyyən etmək üçün AR DSK-nın təqdim etdiyi statistik göstəricilər əsasında qurulmuş qrafiklərə nəzər salaq:

**Qrafik 10: 2010-2019-cu illər üzrə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi:ixrac və idxal dinamikası (milyon ABŞ dolları ilə).**




**Mənbə:** Qrafik AR DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://www.stat.-gov.az/source/trade/ , Azərbaycanın illər üzrə xarici ticarəti

Qrafik 10-dən də göründüyü kimi Azərbaycanın ticarət dövriyyəsində ən yüksək qiymət(34,687.9 milyard dollar) 2013-cü ildə müşahidə edilmişdir. Qeyd olunan müddət ərzində idxalın maksimum qiyməti (13,667.2 milyard dollar) 2019-cu ildə, ixracın maksimum qiyməti isə(26,570.9 milyard dollar) 2011-ci ildə qeydə alınmışdır. Dövlət Statistika Komitəsi(DSK) tərəfindən təqdim edilən bu göstəricilərdə müvafiq illər üzrə xam neft və qazın gömrük orqanlarında qeydə alınmış, lakin rəsmiləşdirilməsi tamamlandırılmamış qiymətləri əlavə edilməmişdir. Vurğulanan göstəricinin hesablanması ilə əldə olunan qiymətləri nəzərə alsaq, maksimum - ticarət dövriyyəsi və ixrac uyğun olaraq 44,161.7 milyard dollar(2011-ci il), 34,405.7 milyard dollar(2011-ci il) həcmində həyata keçirilmişdir. DSK-nın təqdim etdiyi məlumatlara əsasən müstəqilliyin ilk illərindən hal-hazırkı müddətə qədər əldə edilmiş maksimum ticarət dövriyyəsi və ixrac həcmi 2008-ci ildə uyğun olaraq 54,926.0 milyard dollar, 47,756.0 milyard dollar həcmində qeydə alınmışdır. Qrafik 10-dan da göründüyü kimi 2013-cu il etibarilə ticarət dövriyyəsinin həcmi azalmağa başlamışdır. Azərbaycan Respublikasının dünya əmtəə bazarlarındakı mövqeyni müəyyən etmək üçün ayrı-

ayrılıqda ölkələr və ölkə qrupları üzrə ticarət dinamikasına DSK-nın yayımladığı məlumatlara əsaslanmaqla qurulmuş qrafik əsasında nəzər salaq.

**Qrafik 11: 2017-2019-cu illər üzrə Azərbaycan Respublikasının MDB, Rusiya, İtaliya və Türkiyə ilə xarici ticarət dövriyyəsi (min ABŞ dolları ilə).**




**Mənbə:** Qrafik AR DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb. https://www.stat.gov.az/source/trade/ , Azərbaycanın ölkələr üzrə ticarət dövriyyəsi

Qrafik 11-dən də göründüyü kimi Azərbaycanın xarici ticari əlaqələrində əsas payı İtaliya, Türkiyə və Rusiya, o cümlədən MDB-yə(Müstəqil Dövlətlər Birliyi) məxsusdur. İtaliya ticarət əlaqələrində əsas ticarət obyekti neft və neft məhsullarıdır. Bu səbədən İtaliya ilə olan ticarət dövriyyəmizdə həmişə müsbət saldo mövcud olur. 2019-cu ildə İtaliya ilə ümumi ticarət dövriyyəmiz 6 milyard dollardan bir az artıq olmuşdur. 2019-cu ildə sonrakı yeri ölkə olaraq Türkiyə(4.5 milyard dolar), ölkə qrupu üzrə isə MDB(4.6 milyard dollar) tutur. Eyni dövrdə Rusiya ilə olan ticarət dövrüyyəmiz isə 3 milyard dollardan bir az artıq olmuşdur. Bu zaman Rusiya ilə olan ticarət dövriyyəsində mənfi saldo əmələ gəlmişdir. 2.3 milyar dollara yaxın idxalı təxminən 700 milyon dollarlıq ixrac qarşılamışdır.

Azərbaycan Respublikasının beynəlxalq istehsal əlaqələrini və beynəlxalq əmtəə bazarlarındakı mövqeyini müəyyən etmək üçün ölkənin iqtisadi inteqrasiya istiqamətində 4 əsas hərəkət istiqamətini analiz etmək olar:

1. Azərbaycan – Türk dünyası ölkələri. Türk dünyası ilə istehsal və ticarət əlaqələri Azərbaycan üçün uzunmüddətli perspektivdə əsas inkişaf etdirilməli olan istiqamətdir. Xüsusi ilə Türkiyə ilə qurulan siyasi-iqtisadi əlaqələr bu mənada xüsusi əhəmiyyət daşıyır. İxrac münasibətlərimizdə Türkiyənin Türk dünyasında 1-ci, dünya üzrə isə 2-ci yer tutması təsadufi hal deyil.

2. Azərbaycan – MDB ölkələri. Bu ikinci əsas istiqamətdir. Rusiya bu mənada ən yaxın tərəfdaşımızdır. Xarici ticarət əlaqələrimizdə MDB ölkələri arasında 1-ci yeri də məhz Rusiya tutur.

3. Azərbaycan – Qərb ölkələri. Qərbə inteqrasiya Azərbaycan üçün həm zəruri, həm də qaçınılmaz gerçəklikdir. Bu istiqamətdə İtaliya, Böyük Britaniya və ABŞ ən yaxın tərəfdaşlarımız hesab edilir. İtaliya xarici ticarət əlaqələrimizdə həm Qərb, həm də dünya ölkələri arasında ilk yeri tutur.

4. Azərbaycan – İslam ölkələri və ya Ərəb ölkələri. Azərbaycanın xarici iqtisadi əlaqələrində ən zəif inkişaf etmiş istiqamətlərindən biri İslam ölkələri və Ərəb ölkələri ilə olan əlaqələrdir.

## Nəticə və Təkliflər

Tədqiqat işinin sonuncu mərhələsində əldə etdiyimiz bütün məlumatları ümumiləşdirərək, bu ümumiləşdirməyə uyğun təkliflərimizi irəli sürəcəyik.

Beynəlxalq istehsal və əmtəə bazarları dünya iqtisadi sisteminin əsas struktur bölmələri olmaqla birlikdə, mövcud bütün maddi istehlakın təminatçısı rolunu oynayırlar. Milli, regional və beynəlxalq miqyasda iqtisadi, sosial və mədəni inkişafa sövq etməklə, insan qruplarının və müxtəlif cəmiyyətlərin əməkdaşlıqlarının yaranması müvafiq məhfumların təsiri sürətlənir.

Həm beynəlxalq istehsalın, həm də əmtəə bazarlarının qloballaşmasının ortaq səbəb və nəticələri mövcuddur. Müvafiq mənada qloballaşmanın nəticələrini pozitiv və neqativ olmaqla iki hissəyə ayırmaq olar. Qloballaşmanın ortaq səbəbləri ilə yanaşı hər iki sahənin səciyyəvi qloballaşma səbəbləri də mövcuddur. Məsələn, istehsal texnologiyasının təkmilləşməsi, istehsal prosesində avtomatlaşdırma və robotlaşdırmanın tətbiqi beynəlxalq istehsalın qloballaşmasına səbəb olan səciyyəvi xüsusiyyətlər olmaqla, ölkələr və təşkilatlararası ticarət razılaşmalarının bağlanması, istehlak mallarının keyfiyyətinin idarə edilməsi istiqamətində inistutsional təşkilatların yaranması və s.  əmtəə bazarlarının qloballaşmasına səbəb olan səciyyəvi xüsusiyyətlərdəndir. Qloballaşmanın əmtəə istehsalı və satışına təsiri ilə müvafiq sahələrdə struktural dəyişimlərin meydana gəlməsinə səbəb olur. Məsələn, qloballaşma ilə birlikdə yeni əmtəələrə tələb və bu əmtəələrin istehsalı və satış kanalları yaranmışdır. Eyni zamanda əmtəə bazarları üzrə dünya bazarında olan dəyişimlər də sürətlənməyə başlanılmışdır. Məsələn, dünya əmtəə bazarlarında kənd təsərrüfatı məhsullarının həcminin azalması, enerji daşıyıcılarında atom enerjisi və digər alternativ enerji növlərinin payının sürətlə artması və s. qloballaşma ilə birlikdə beynəlxalq əmtəə bazarında ortaya çıxan müasir meyillərdir. İstehsal prosesində əl əməyindən istifadənin demək olar ki, aradan qalxması, istehsal prosesinin robotlaşdırılması və “lazımsız insan kütləsi” – “lazımsız işçi qüvvəsi” anlayışının yaranması qloballaşma ilə birlikdə daha da aktual proseslərə çevrilir.

Tədqiqatı Azərbaycan Respublikasının beynəlxalq istehsal və beynəlxalq əmtəə bazarlarında iştirakı və ölkənin tarixi inkişaf meyli ilə bağlı araşdırmalarla yekunlaşdırmışıq. Bu zaman əldə etdiyimiz əsas nəticələr aşağdakılardır:

- ✓ Ölkə müstəqiliyin ilk illərindən qeyri-neft sektoruna kifayət qədər önəm verməyib,
- ✓ Xarici ticarət dövriyyəmiz demək olar ki, tamamilə neft – qaz sektorundan asılıdır,
- ✓ Birbaşa xarici investisiyalar və daxili investisyaların əsas maraq göstərdiyi sahə neft-qaz sektorudur,
- ✓ İxrac strukturunda mineral məshulların ixracı 90%-dən çoxdur,
- ✓ Pandemiya və dünya əmtəə bazarlarındakı neft tələbinin azalması hesabına ölkəyə xarici valyuta daxil olmaları azalmışdır,
- ✓ İdxal strukturunda əsas hissəni texnologiya və texnoloji avadanlıqlar tutur ki, bu səbəbdən idxalın maddi dəyəri yüksəkdir və s.

Tədqiqatlarımız nəticəsində həm qlobal miqyasda, həm də ölkə səviyyəsində beynəlxalq istehsal və əmtəə bazarları ilə bağlı inkişafa nail olmaq və mövcud problemləri həll edə bilmək üçün aşağdakı nəzəri və praktiki əhəmiyyətli təklifləri irəli sürə bilərik:

I. Qlobal miqyasda beynəlxalq istehsal və əmtəə bazarları ilə bağlı təkliflər:

1. İstehsal resurslarından xüsusən tükənən və bərpa edilməyən resurslardan qənaətlə istifadə edilməli, bu məqsədlə alternativ enerji və tükənməyən resursların istifadəsi artırılmalı,
2. Gəlir əldə etmə naminə insanların zövq və ehtiyaclarının idarə edilməsi və istiqamətləndirilməsinə mane olunamldır,
3. İnsanların ehtiyac və tələblərinin idarə edilməsi və bazarda mümkün hallarda yeni məhsul təklifinin yaradılması və yeni növ məhsulların istehsalı yalnızca istehsal resurslarının qənaətlə istifadə edilməsinə nail olmaq üçün tətbiq edilməli,

4. Kosmos sənayesinə, süni intelekt, nano və biotexnologiyanın təkmilləşdirilməsi istiqamətində qlobal əməkdaşlıq yaradılmalı,

5. Müəyyən hallarda cəmiyyətin iqtisadi inkişafı qarşısında duran mədəni, milli-siyasi, dini və s. məhdudiyyətləri aradan qaldırılmalıdır,

6. Pilot ağıllı şəhərlər yaradılmalı, gələcək nəsilləri və resursların gələcək mövcudluğunu nəzərə alaraq insanların istehlak prosesi yönləndirilməlidir,

7. Qlobal istehlakı tənzimləmək üçün əhali artımına(xüsusən, Afrika və Yaxın Şərq ölkələrində, o cümlədən Çin və Hinditsanda) nəzarət edilməli,

8. Beynəlxalq ticrətin artırılması məqsədilə ixracın maliyyələşdirilməsi sistemi təkmilləşdirilməli, kriptovalyutaların tətbiqi və nağdsız ödəmə sistemlərinin həyatın hər tərəfində istifadə edilmləli,

9. İnsanların gündəlik istifadə etməli olduğu kalorini özünə birləşdirən hazır yeməklərin hazırlanması və bu sayədə israfçılığın qarşısı alınması(hal-hazlrda "ready meal" adı ilə bilinən bu yeməklər İEÖ-lərdə sıxca istifadə edilir) və s.

10. Məhsulların homogenləşməsinə mane olunmal(homogenləşmə zamanı həm insanların istehlak səbəti və qida rasionundakı müxtəliflik və zənginlik aradan qalxır, o cümlədən homogen məhsulların istehsalında istifadə edilən resursların sürətlə tükənməsi problemi yaranır) və s.

II. Azərbaycan Respublikasının beynəlxalq istehsal və beynəlxalq əmtəə bazarlarındakı mövqeyini yaxşılaşdırmaq məqsədilə aşağıdakı təklifləri vermək olar:

1. Qeyri-neft sektoru inkişaf etdirilməli, neft-qaz istehsalı azaldılmalı(gələcək nəsillərin tələbatını nəzərə almaq və qeyri-neft sektorunu inkişaf etdirməyə maraq yaradılması məqsədilə),

2. Qeyri-neft sektoruna yönləndirilən BXİ-nin həcmi ən az 50%-ə, ümumi investisyalar isə 70%-ə(hal-hazırda 15%-ə yaxındır, ixracda isə neft sektorunun payı 90%-dən çoxdur, neft sektoruna yatırılan investisiyalar 85%-dən 30%-ə endirilməklə ixracda neft sektorunun payı 90%-dən 30%-ə endirilməli(təqribi hesablamalardır)) çatdırılmalı,

3. Təhsil sistemi yenidən qurulmalı, bəzi universitetlər böyük sənaye müəssisələrinin nəzarətinə verilməli, gənclər lazımi qabiliyyəti qazanma istiqamətində təhsil almalı və köhnə sistem və əlavə məlumatlar dövriyyədən çıxarılmalıdır,

4. Ölkənin bölgələrində sosial və istehsal infrastrukturu inkişaf etdirilməklə istehsal müəssisələri bu bölgələrə köçürülməli, bu sayədə həm bölgələrin sosial-iqtisadi inkişafına nail olmaq, həm ümumi istehsal səviyyəsini artırmaq, həm də paytaxtın və digər sənaye şəhərlərimizin ekoloji tarazlığını təmin etmək mümkün olacaqdır,

5. Alternativ enerjinin tətbiqi artırılmalı, xüsusən dövlət və təhsil müəssisələrində alternativ enerjinin tətbiq edilməsi(bu sayədə həm enerjiyə sərfiyyatına qənaət ediləcək, həm də gələcək nəslin bu istiqamətdə tərbiyələndirilməsi mümkün olacaq),

6. Liberalist ideologiyaya əsaslanan hüquqi baza və vergi mexanizmi yaradılmalı(tərəfdaş ölkələrlə ikiqat vergi tutma aradan qaldırılmalıdır),

7. Ölkənin uyğun bölgələrində AİZ-lər yaradılmalıdır (xüsusən istehsal zonaları) və s.

Qeyd etmək lazımdır ki, bu praktiki və nəzəri əhəmiyyətli təkliflərin sayını artırmaq olar. Lakin əsas problem müvafiq problemlər üzrə edilən təkliflərin iqtisadiyyata tətbiq edilmə səviyyəsidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Bayramov V.İ. (2018). "Azərbaycanda İqtisadiyyatın Diversifikasiyasının Maliyyə Təminatının Gücləndirilməsi Məsələləri". Bakı, "Qanun nəşriyyatı", 352 səh.
2. Çyornaya P.İ. (2015). "Geoiqtisadiyyat" dərs vəsaiti/Rus dilindən tərcümə, Bakı, "İqtisad Universiteti" nəşriyyatı 248 səh.
3. Elşən H. (2018). "Dünya İqtisadiyyatı və Azərbaycan" Bakı, "Letterpress", 912 səh.
4. Ələsgərov A.K., Kərimov X.Ş., Güləliyev M.G. (2015). "Azərbaycanın Xarici İqtisadi Əlaqələri: Problemlər və Prespektivlər", Bakı, "Avropa" nəşriyyatı 332 səh.
5. Əzizova G.A. (2012). "Dövlətin İnvestisiya-İnnovasiya Siyasəti" Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 213 səh.
6. Fərhad Q., Elşad Y., Azadə N. (2017) "Reklam İşinin Təşkili", dərs vəsaiti. Biznes Universiteti Nəşriyyatı, Bakı, 356 səh.
7. Hüseynova İ. (2013). "Müəssisənin İqtisadiyyatı", dərs vəsaiti, Bakı, "Bakı Biznes Universiteti" nəşriyyatı, 304 səh.
8. Xasbulatov R.İ. (2015). "Beynəlxalq iqtisadi münasibətlər" / Rus dilindən tərcümə. Bakı, "Zərdabi LTD" MMC, 808 səh.
9. İmanov T. İ. (2008). "İstehsal Vasitələri Bazarı: Problemlər və Perspektivlər", Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 341 səh.
10. İsayev A. S. (2009). "İstehsalın Təşkili Əsasları", Bakı, "Azərnəşr" 151 səh.
11. İsmayılov G.İ. (2006). "Dünya İqtisadiyyatının Nəzəri Əsasları" Bakı, "Memar Nəşriyyat-Poliqrafiya" 251 səh.
12. İsrafilov H. A. (2009). "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" (monoqrafiya), Bakı, "Elm" 464 səh.

13.Kərimova T.İ. (2008). “İqtisadiyyatın İnvestisiya Potensialı: Formalaşması vı İstifadə Mexanizmləri”(monoqrafiya), Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 225 səh.

14.Qafarov Ş. (2005). “Müasir İqtisadi Sistem və Qloballaşma”(monoqrafiya), Bakı, “Poligraphic Production” 632 səh.

15.Qəribov A., Əzizov A., Əhmədova S. (2017). “Beynəlxalq Ticarət Əməliyyatları”, dərs vəsaiti, Bakı, “Bakı Biznes Universiteti” nəşriyyatı 255 səh.

16.Mirzəyev A., Eminov A., Suleymanov E., Qocayeva E. (2019). “Müasir Azərbaycan İqtisadiyyatının Əsasları” dərs vəsaiti, Bakı, “Zərdabi Nəşr” 440 səh.

17.Müzəffər M. (2016). “Azərbaycan dünya təsərrüfat əlaqələri sistemində”, monoqrafiya, Bakı, “Vektor Beynəlxalq nəşrlər evi”, 404 səh.

18.Osmova M.N., Boyçenko A. V., Jelezova V.F., Kasatkina E.A., Zubenko V.A., Talızıza E.V., Lyamenkov A.K. (2008) “Dünya Təsərrüfatının Qloballaşması”, dərs vəsaiti/Rus dilindən tərcümə. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 428 səh.

19.Vavilova Y.V., Borodulina L.P. (2008), “Beynəlxalq Ticarət”, dərs vəsaiti/Rus dilindən tərcümə. Bakı, “İqtisad Universiteti”, 336 səh.

**Türk dilində**

1. Aytekin İ. “Küreselleşme ve Ekonomik Küreselleşme”, BEU. SBE.Dergisi Cilt: 1 Sayı:2 (Haziran 2013), s.134.

2. Coşkun C.A., “ Bilgi Toplumu, Yeni Temel Teknolojiler ve Yeni Ekonomi” , Yeni Türkiye, sayı 88. Cilt 1, Bilim ve Teknoloji Özel Sayısı, (2016), s.37.

3. Çelik M. Y. “Boyutları ve Farklı Algılarıyla Küreselleşme”, DPUJSS NUMBER 32, VOL. II, (Nisan 2012), s.18.

4. Duygu D. K., “Küreselleşme Kavrami ve Küreselleşmeye Yönelik Yaklaşimlar” The Turkish Online Journal of Design, Art and Communication – TOJDAC, Volume 3, Issue 2, (Nisan 2013), s.11.

5. Ecevit C. (2008) "Küreselleşen Dünyada Çok Uluslu Şirketler ve Politik Risk", Kadir Has Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Ve Küreselleşme Ana Bilim Dalı, Yüksek Lisans Tezi, İstanbul, s.110.

6. Elçin A. B. "Küreselleşmenin tarihçesi", Ankara, (2012), s.17.

7. Erdoğan İ. "Karl Marx, İnsan, Toplum ve İletişim", İletişim kuram ve araştırma dergisi, Sayı 25 Yaz-Güz (2007), s.199-228.

8. Hüseyn K. A. "Küresel rekabetin işletmelerin üretim ve istihdam yapısı üzerindeki etkileri", Akademik Yaklaşımlar Dergisi, (2011), cilt 2, s.33.

9. Hüseyn N. B. "Küresel Petrol Piyasasındaki Fiyat Dalgalanmalarının Ekonomik Etkileri" Yalova Sosyal Bilimler Dergisi, Cilt 9, Sayı 19, (Ekim 2019), s.44-59.

10. Işın Ç. "Global Krizin Emtia Piyasaları Üzerine Etkileri ve Gelişmeler", Finansal Araştırmalar ve Çalışmalar Dergisi, (2013), s.33-66.

11. İbrahim Z. A. (2010), "Modern üretim sistemləri", İşletme lisans proqramı, s.275.

12. İçke Akif M. (2016) "Uluslararası İktisadi İlişkiler", İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi Kamu Yönetimi Lisans Programı, 435 səh.

13. Kırac F. (2015). "Küresel Krizin Bulaşma Etkisi: Menkul Kıymet Borsaları Üzerine Bir Uygulama", T.C. Dumlupınar Üniversitesi Sosyal Bilimler Enstitüsü İktisat Anabilim Dalı Doktora Tezi, s.216.

14. KPMG (2019), "Sektörel Bakış-enerji", p.34.

15. Masum T., Engin Y., Başak E. "Teknolojik yenilenmenin üretim maliyyetlerine etkisi", V. Ulusal Üretim Arastırmaları Sempozyumu, İstanbul Ticaret Üniversitesi, 25-27 (Kasım 2005), s.6.

16. Mehmet Ç., (2019), "Uluslararası Ticarette Hedef Pazara Yönelik Stratejiler", Süleyman Demirel Üniversiteti, s.15.

17. Mehmet R. G., (2020), "Uluslararası Pazarlara Giriş Stratejileri", Akademisyen Kitab Evi A.Ş., s.30.

18. Mustafa P. H. “İşletmelerin Satışa Sunacağı Yeni Ürünlerin Pazarda Tutunmasını Etkileyen Faktörler”, Girişimcilik İnovasyon ve Pazarlama Araştırmaları Dergisi (2017), 1(1): s.67-86.

19.Mustafa T., Yaşar K. “Küreselleşmenin Ekonomik Sonuçları”, ZfWT Vol. 6, No. 2 (2014), s.25-35.

20.Müge B., “Uluslararası Pazarlara Giriş Stratejileri: Enerji Sektöründe Bir Araştırma”, İstanbul Ticaret Üniversitesi Dış Ticaret Enstitüsü Uluslararası Ticaret Anabilim Dalı Küresel Pazarlama Ve Marka Yönetimi Lisans Programı, İstanbul, (2017), s.114

21. Onur B. Ö., Fatma Y. “Çok Uluslu İşletmeler ve Tekelleşmenin Uluslararasılaşması”, International SOCIAL SCIENCES STUDIES JOURNAL SSS Journal (ISSN:2587-1587) Vol:5, Issue:41, (2019), s.4312-4321.

22.Özay Ü. T. “Üretimde yalın dönüşümün temel performans kriterleri”, BAÜ Fen Bil. Enst. Dergisi Cilt 12(2), (2010), s.14

23. Özeş Özgür R., Zanbak M. “Dış Ticarette Dikey Uzmanlaşma: Türkiyede Endüstrilere Yönelik Bazı Tespitler”, İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, 8(2), (2019), s.1411-1436.

24. Sümeyra G. “Stratejik Emtialar ve Finansal Değişkenler: Türkiye İçin Bir ARDL Sınır Testi Yaklaşımı”, Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi 19/2 (2017) 544-563.

25. T.C.C. Strateji ve Bütce Bakanlığı (2020), “Dünya Ekonomisindeki Son Gelişmeler Bülteni”, s.31.

26.T.C.Milli Eğitim Bakanlığı, Aile ve Tüketici Hizmetleri(2012), “Reklamın Etkileri”, s.51.

27.TSKB (2020) Ekonomik Araştırmalar, “Piyasalarda Bugün”, s.6.

28.Türkiye İş Bankası A.Ş. İktisadi Araştırmalar Bölümü (2018), “Emtia Piyasasındaki Son Gelişmeler ve Beklentiler”, s.11.

29. Ünsar S. “Uluslararası İşletmelerde Üretim Stratejileri”, Journal if Yasar University (2007), s.695-708.

30. Ziya Ç. Y. “Seçilmiş Ülkelerde Rekabet Gücünün Belirleyicileri ve Büyüme İlişkileri” Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü İktisat Anabilim dalı,doktora tezi, Erzurum, (2014), s.260.

**İngilis dilində**

1. Antonio A., Shyam U. “Growth and distribution pattern of the world manufacturing output: A statistical profile”, Research, Statistics and Industrial Policy Branch Working Paper/UNIDO, (february 2014), p. 101.

2. Chartered Institute of Management Accountants(CIMA) (2010). “The global manufacturing sector: current issues”, p. 11.

3. Food and Agriculture Organization of the United Nations (2020). “ The State of Agricultural Commodity Markets: Agricultural Markets And Sustainable Development: Global Value Chains, Smallholder Farmers And Digital Innovations”, p. 164.

4. International Bank for Reconstruction and Development / World Bank (2020), “Commodity Markets Outlook”, p.94.

5. Lüthje, T. (2015). “The Development in Global Production” Modern Economy 6, 310-315.

6. Marcel K., Sergej V. “Transnational corporations in the global world economic environment”, 3rd International Conference on New Challenges in Management and Organization: Organization and Leadership, (2 May 2016), Dubai, UAE, p. 9.

7. Mariana S. “Precious Metals market in the millennium”, Global Journal of Business Economics and Management: Current Issues, Volume 8, Issue 2, (2018), p.61-66,

8. Peter J. B., Rosolino A. C. "Productive specialization, peaceful cooperation and the problem of the predatory state: lessons from comparative historical political economy", Article in Public Choice, (March 2019), p. 40.

9. Rabah A., Matsumoto A. "Shifting Commodity Markets in a Globalized World", ©International Monetary Fund (2017), p. 113.

10. Sebastian P. "International Cooperation and Devlopment: A Conceptual Overview", Publications of the German Development Institute/Discussion Paper, Bonn (2014), p. 41.

11. Unıted Natıons Conference On Trade And Development (2017). "Commodities and Development Report - 2017: Commodity Markets, Economic Growth and Development", p.98.

12. Unıted Natıons Conference On Trade And Development (2018). "World Investment Report", p. 213.

13. Unıted Natıons Conference On Trade And Development (2020). "World Investment Report", p. 268.

14. Unıted Natıons Conference On Trade And Development (2020). "World Investment Report", p. 268.

15. United Nations Conference on Trade and Development Division on Investment and Enterprise (2008). "Transnational Corporations", Copyright United Nations, p. 152.

16. United Nations Industrial development Organization (2020). "World Manufacturing Production Statistics for Quarter II 2020", p. 19.

17. United Nations Industrial development Organization (2020). "World Manufacturing Production Statistics for Quarter I 2020", p. 16.

## İnternet resursları


1. https://container-xchange.com/blog/what-is-a-transshipment/
2. https://finans.az/xeber/abs-cin-ticaret-muharibesi-analitika.html
3. https://hbr.org/1983/05/the-globalization-of-markets
4. https://venturebeat.com/2020/10/29/amazon-earnings-q3-2020/
5. https://www.aa.com.tr/tr/analiz-haber/kuresellesme-ve-21-yuzyilda-cozum-bekleyen-sorunlarimiz/972674
6. https://www.bbc.com/azeri/international-53130539
7. https://www.globenewswire.com/newsrelease/2020/05/08/2030243/0/en/Global-Commodity-Forecasts-for-Industrial-Raw-Materials-Adjusted-Forecasts-AmidCOVID-19-Outbreak.html
8. https://www.investopedia.com/terms/g/giffen-good.asp
9. https://www.ntv.com.tr/turkiye/turkiye-neden-sudandan-tarim-arazisi-kiraladi-bakan-cevapladi,A-CC-3j3o0mdXPouM3577g
10. https://www.powerenerji.com/kaya-gazi-nedir-nasil-bulunur-turkiye-kaya-gazi-nerelerde-bulunur-haritasi.html
11. https://www.stat.gov.az/news/index.php?id=4442
12. https://www.weforum.org/agenda/2020/04/oil-barrel-prices-economic-supply-demand-coronavirus-covid19-united-states/
13. https://www.wto.org/english/tratop_e/ region_e/region_e.htm

## Cədvəllərin siyahısı

Cədvəl 1: 2016-cı il ölkələr üzrə Qlobal İstehsal Rəqabətqabiliyyətlilik İndeksi.........22

Cədvəl 2: Azərbaycanda bəzi beynəlxalq əhəmiyyətli layihələr.................................82

## Qrafiklərin siyahısı

Qrafik 1: 2018-ci il üzrə beynəlxalq istehsalda 5 aparıcı ölkənin payı........................19

Qrafik 2: Qlobal miqyasda müxtəlif illər üzrə BXİ-nin dəyişməsi..............................39

Qrafik 3: Pandemiya dövründə beynəlxalq əmtəə bazarında əmtəə qiymətləri indeksi..........................................................................................................47

Qrafik 4: 2018-2020-ci illər üzrə neft istehsal və istehlakı.........................................48

Qrafik 5: 2010-2020-ci illər üzrə ərzaq məhsulları üzrə qiymət indeksi.....................50

Qrafik 6: 2017-2020-ci illər əsas metallar-dəmir qiymətlər indeksi............................51

Qrafik 7: 1948-2020-ci illər üzrə RTA-ların sayının dəyişməsi.................................73

Qrafik 8:1990-2020- ci il üzrə Azərbaycanda ÜDM-nin ümumi və adambaşına dəyişim tempi (milyon manatla)..........................................................................................80

Qrafik 9: 1995-2019-cu illər üzrə Azərbaycanda ümumi, xarici və daxili investisiyanın miqdarı(milyon manatla)...........................................................................81

Qrafik 10: 2010-2019-cu illər üzrə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi:ixrac və idxal dinamikası (milyon ABŞ dolları ilə)..................................83

Qrafik 11: 2017-2019-cu illər üzrə Azərbaycan Respublikasının MDB, Rusiya, İtaliya və Türkiyə ilə xarici ticarət dövriyyəsi (min ABŞ dolları ilə)...................................84

## Diaqramların siyahısı

Diaqram 1: 2018-ci il üzrə dünya enerji istehlakında enerji resurslarının payı...........58